Xalqın qəzeti!

# Xalq qəzeti

№ 198 (30314) 14 sentyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Hələ ki, Ermənistanın de-fakto olmasa da, hüquqi cəhətdən müstəqilliyi var, hələ ki, Ermənistan sərhədləri anlayışı müəyyən mənada qəbul edilir. Onlar bizim şərtlərimizi qəbul etməlidirlər. Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq.**

# Azərbaycanda "boz zona" qalmayacaq



**Ərazisinə nəzarət bütün dövrlərdə real hakimiyyətin simvollarından biri olmaqla yanaşı, həm də onun gücünün mənbəyi hesab edilib. Versal müqaviləsi dövründən etibarən dünya səhnəsinin əsas aktorları və bu unikal sərvətin – ərazilərin sahibləri suveren dövlətlər olub, ərazisi indi də onların əsas xüsusiyyətlərindən biri olaraq qalır.**

Eyni zamanda, dövlətlərin suverenliyi və ərazisi dəfələrlə şübhə altına alınıb ki, bu da onların parçalanmasına səbəb olub. XX əsrdə imperiyaların dağılması və müstəmləkələrin azad edilməsi nəticəsində ölkələrin sayı 55-dən 190-a yüksəlib. Belə parçalanmalar və ya birləşmələr bir çox hallarda "boz zona"ların da meydana gəlməsinə şərait yaradıb. Bu zonaların əsas yaradıcıları da separatçılar, üsyançılar, narkotacirlər və digər kriminal-quldur ünsürlər olub.

*(ardı 6-cı səhifədə)*



## İsraillə iqtisadi-ticari əməkdaşlığın yeni mərhələsi

**Prezident İlham Əliyev sentyabrın 11-də ölkəmizdə səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixteri videokonfrans formatında qəbul edərkən ikitərəfli münasibətlərdən, o cümlədən kənd təsərrüfatı sahəsində əlaqələrin inkişafından və bununla bağlı təcrübə mübadiləsinin həyata keçirilməsindən söhbət açıb. A.Dixter isə bu səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın dərinləşdirilməsinə mühüm töhfə verəcəyinə əminliyini vurğulayıb.**

Azərbaycan–İsrail iqtisadi–ticarət əməkdaşlığının mövcud vəziyyəti və şaxələndirilməsi perspektivləri, kənd təsərrüfatı sahəsində birgə fəaliyyət imkanları barədə danışarkən bir məqam xüsusilə vurğulanmalıdır. Belə ki, dost ölkə respublikamızın əlverişli biznes və investisiya mühiti, işğaldan azad edilən ərazilərimizin iqtisadi potensialı ilə daim maraqlanır, işgüzar mühitdən yararlanmağa çalışır, iqtisadiyyatın zəruri ehtiyac duyulan ayrı-ayrı sahələrinə investisiya yatırmaqla Azərbaycanın tərəqqisinə böyük töhfə verir.

*(ardı 7-ci səhifədə)*

# Cənubi Qafqazda suyu bulandıranlar




**Cənubi Qafqazdan min kilometrlərlə uzaqda yerləşib bölgəmizi qarışdırmaq istəyən ölkələrin sırasına biri də əlavə olunmaqdadır. Söhbət Cənubi Amerikada yerləşən Argentinadan gedir.**

Bugünlərdə Argentina Prezidenti Alberto Fernandes Ermənistanla Azərbaycan arasındakı vəziyyəti təhrif edən və daha da gərginləşdirəcək açıqlama ilə çıxış edib. O, sentyabrın 9-da Hindistanın paytaxtı Yeni Dehlidə keçirilən "Böyük İyirmilik" (G20) ölkələrinin dövlət və hökumət başçılarının XVIII sammitinin plenar iclasında çıxışı zamanı Azərbaycanın guya Qarabağın dağlıq hissəsini blokadada saxladığını iddia edib. "Şərqi Avropada müharibənin getdiyi bir vaxtda beynəlxalq ictimaiyyətin diqqətini daha az cəlb edən zorakı münaqişələr çoxalır. Lakin onlar da "humanitar böhran"a səbəb olan Azərbaycanın Laçın dəhlizinin blokadası (?) kimi ağrılıdır. Argentina beynəlxalq qarşılıqlı anlaşmanın ən yüksək metodu kimi çoxtərəfliliyə sadiqliyini təsdiqləyir", – deyə A.Fernandes qeyd edib.

*(ardı 3-cü səhifədə)*

# Aİ missiyasının sərhəd müşahidəsi: Ermənistan öz gözündə tiri görmür...



**Məlum olduğu kimi, Ermənistan ərazisində alman polislərindən və fransız jandarmlarından təşkil olunmuş, Avropa İttifaqının da yer aldığı pensiyaçı mülki müşahidə missiyası fəaliyyət göstərir. Fəaliyyət göstərir deyəndə ki, missiya Ermənistandadır. Özü də Ermənistan – Azərbaycan sərhədində. Və həmin missiya guya Azərbaycanın sərhədə qoşun yığdığından duyuq düşüb. Nə üçün "duyuq düşüb" deyirik, məsələyə aydınlıq gətirəcəyik. Eyni zamanda, müşahidəçilərin işlərini daha da "gücləndirmələrindən" də söz açacağıq.**

Ancaq əvvəlcə Avropa missiyasının Ermənistan – Azərbaycan sərhədində peyda olmasından danışaq. O da məlumdur ki, Aİ-nin mülki missiyasının bölgədə yerləşdirilməsinə dair qərar ötən ilin oktyabrında Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi və Fransa prezidenti Emmanuel Makronun iştirakı ilə keçirilmiş görüşü əsnasında qəbul olunmuşdu.

*(ardı 3-cü səhifədə)*

# Ölkəmiz Avropanın qaz bazarında mövqeyini möhkəmləndirir




**Hazırda Azərbaycanda gündəlik qaz hasilatı, təxminən, 100 milyon kubmetr səviyyəsinə çatıb. Energetika Nazirliyinin yaydığı operativ məlumata görə, 2023-cü ilin yanvar-avqust aylarında ölkəmizdə 32,2 milyard kubmetr təbii qaz hasil edilib. Bu isə ötən ilin müvafiq dövrünə nisbətən 1,5 milyard kubmetr və ya 5 faiz çoxdur.**

Qazın 8,6 milyard kubmetri "Azəri-Çıraq-Günəşli", 17,6 milyard kubmetri "Şahdəniz", 0,2 milyard kubmetri "Abşeron", 5,8 milyard kubmetri isə SOCAR-ın istismar etdiyi yataqlarda hasil olunub.

Hesabat dövründə Azərbaycandan xaricə 15,8 milyard kubmetr "mavi yanacaq" ixrac edilib. Cari ilin ötən dövründə qazın satışı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9 faiz çox olub. Ümumi ixracın 7,6 milyard kubmetri Avropanın, 6,7 milyard kubmetri Türkiyənin, 1,5 milyard kubmetri isə Gürcüstanın payına düşüb. İlin 8 ayı ərzində Türkiyəyə TANAP-la 3,8 milyard kubmetr qaz nəql olunub.

*(ardı 7-ci səhifədə)*

# "Ayrılıq"dan Xudafərinə

Səhifə ⇨ 10



# Ermənisayağı "ağıldan bəla"

Səhifə ⇨ 6

# Bütünlüklə tələbə adı qazanan siniflər



Səhifə ⇨ 10

## Y.M.Piriyevin Bakı Mühəndislik Universitetinin rektoru təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Yaqub Maksim oğlu Piriyev Bakı Mühəndislik Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 sentyabr 2023-cü il**

## R.E.Əzizovun Sumqayıt Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rüfət Eyvaz oğlu Əzizov Sumqayıt Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 sentyabr 2023-cü il**

## H.Ə.Məmmədovun Bakı Mühəndislik Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Havar Əmir oğlu Məmmədov Bakı Mühəndislik Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 sentyabr 2023-cü il**

## E.B.Hüseynovun Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elxan Bahadur oğlu Hüseynov Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 sentyabr 2023-cü il**

# Rəsmi Bakının Parisə cavabı

**Dünən Fransanın Avropa və Xarici İşlər Nazirliyinin mətbuat katibi Ann-Kler Lejandrın mətbuat konfransında səsləndirdiyi, bölgədə sülhə və sabitliyə xidmət etməyən, mövcud vəziyyətə dair yanlış təəssürat formalaşdıran və birtərəfli qaydada Ermənistanı müdafiə edən fikirlər qəbuledilməzdir.**



Bunu Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadə bildirib. O qeyd edib ki, Azərbaycanın öz suveren ərazilərində təlim məqsədilə, habelə sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün qüvvələrini istənilən istiqamətə yönəltmək hüququ vardır və bu addımlara müdaxilə qəbuledilməzdir.

Ayxan Hacızadə xatırladıb ki, əslində bölgədə əsas təhdid mənbəyi Azərbaycan ərazilərindən hələ də çıxarılmayan və Ermənistan tərəfindən birbaşa dəstəklənən erməni silahlı qüvvələrinin mövcudluğudur.

Fransa tərəfinin bölgədə guya "blokada" və "humanitar böhran"a dair əsassız iddialarına gəldikdə isə, sözügedən fikirlər Ermənistanın Azərbaycana qarşı bütün dünyada apardığı qarayaxma kampaniyasının tərkib hissəsidir.

Azərbaycan özünün Qarabağ bölgəsinə yüklərin Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə və Azərbaycanın qanunvericilik tələblərinə riayət etməklə daşınması üçün Laçın-Xankəndi və Ağdam-Xankəndi yollarından və digər mümkün yollardan istifadənin mümkün olduğunu bəyan edib. Bu istiqamətdə iyulun 15-də Brüssel görüşündən sonra, eləcə də avqustun əvvəlində əldə edilmiş razılıqlara və bu prosesin ABŞ və Avropa İttifaqı tərəfindən dəstəklənməsinə baxmayaraq Ermənistan tərəfinin və onun yaratdığı qondarma rejimin bu razılıqları kobud şəkildə pozduğu Fransa tərəfinə yaxşı məlumdur.

Fransa tərəfindən Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn bu kimi əsassız bəyanatlara son qoyulmasını tələb edirik", – deyə Azərbaycan XİN rəsmisi vurğulayıb.

**XQ**

# Azərbaycan sülh şərhlərini Ermənistana təqdim edib

**"Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsi ilə əlaqədar olaraq Azərbaycan tərəfi qısa müddət ərzində öz şərhlərini Ermənistan tərəfinə təqdim edib.**

XQ xəbər verir ki, bunu XİN-nin mətbuat katibi Ayxan Hacızadə Ermənistan rəsmilərinin sülh sazişi ətrafında əsassız bəyanatlarına cavabında deyib.

Onun sözlərinə görə, Ermənistan mətbuatının yaydığı bu məlumatlar həqiqəti əks etdirmir və Ermənistan tərəfinin növbəti manipulyasiyasıdır.

**XQ**

# "Boz zona"da status-kvonu saxlamaq ermənilərin səmərəsiz strategiyasıdır




**"Biz sentyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ dövlət katibi Antoni Blinken arasında telefon danışığı zamanı razılaşdırıldığı kimi, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) yük maşınları üçün Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının sürətlə və eyni vaxtda açılmasını təmin etmək üçün BQXK ilə işi davam etdiririk".**

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" sosial şəbəkəsində yazıb.

Prezidentin köməkçisi qeyd edib ki, həmin vaxtdan 12 gün keçsə də, Ermənistanın tabeliyində olan qeyri-qanuni rejim yolları açmaqdan imtina edir: "Biz beynəlxalq tərəfdaşlarımızı səylərini ikiqat artırmağa, Ermənistana və onun qeyri-qanuni marionet rejiminə bu destruktiv siyasətə son qoymaq üçün təzyiq göstərməyə çağırırıq. "Boz zona"da status-kvonu saxlamaq və humanitar məsələləri qəsdən silaha çevirmək onların səmərəsiz strategiyasıdır".

*

"Bu cür lobbizm, "pul danışıqları", azərbaycanlılara və başqalarına qarşı açıq-aşkar yalan və irqçi nifrət ABŞ Konqresinin imicinə və qlobal reputasiyasına xələl gətirir. Utancvericidir!".

"X" hesabında paylaşdığı bu fikirləri isə Prezidentinin köməkçisi ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri, senator Bob Menendezə cavab olaraq yazıb.

Onun sözlərinə görə, Bob Menendez ciddi korrupsiya iddialarına cavab vermək əvəzinə, ABŞ Senatının Xarici əlaqələr komitəsinə yalan məlumat verir və saxta şəkillərlə yalan danışır: "Şəkildə təqdim olunan şəxs xərçəng xəstəliyindən dünyasını dəyişib. Ermənilər özləri də tibbi sübutlar təqdim etdikdən sonra bu aşkar yalandan istifadə etməkdən utanırlar".

**XQ**

# Ceyhun Bayramovun Cenevrə səfəri

### *BMT-nin ali komissarı Azərbaycanın mövqeyi barədə məlumatlandırılıb*

**Xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türk ilə görüşüb.**



Nazir Ceyhun Bayramov ölkəmizin BMT-nin insan hüquqları mexanizmləri ilə konstruktiv dialoq və qarşılıqlı etimad çərçivəsində fəal şəkildə əməkdaşlıq etdiyini bildirib. İnsan hüquqlarının fundamental prinsiplərinin müdafiəsinə tam şəkildə sadiq olan Azərbaycanın beynəlxalq insan hüquqları sisteminin gücləndirilməsinə, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqinə mütəmadi əsasda töhfə verdiyini vurğulayıb.

Regiondakı son vəziyyət barədə Azərbaycanın mövqeyini qarşı tərəfin diqqətinə çatdıran nazir Ceyhun Bayramov Ermənistanın davam edən hərbi-siyasi təxribatlarından, habelə ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı bəyanatlarından söz açıb.

Görüşdə 30 ilə yaxın işğal dövründə Ermənistanın müharibə və insanlığa qarşı cinayətlər törətdiyi, o cümlədən etnik təmizləmələr həyata keçirdiyi qeyd olunub.

Bölgədə "humanitar vəziyyət" və "blokada" barədə iddiaların əsassız olduğu, Ermənistanın Laçın sərhəd buraxılış məntəqəsinə qarşı təxribatlarının, Ağdam-Xankəndi yolundan yüklərin daşınmasına törədilən maneçiliklərin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddiaların, Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrinin hələ də çıxarılmamasının sülhə və təhlükəsizliyə təhdid olduğu vurğulanıb.

Görüşdə, həmçinin nazir Ceyhun Bayramov işğaldan azad edilmiş ərazilərdə Ermənistan tərəfindən basdırılmış yüz minlərlə minanın günahsız insanların həyatına son qoymaqda davam etdiyini bildirib.



*

**Dünən xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İnsan Hüquqları Şurasının 54-cü sessiyasında iştirak və çıxış edib.**

Çıxışda Azərbaycan və BMT İnsan Hüquqları Şurası arasında əməkdaşlıq, ölkəmiz tərəfindən milli və beynəlxalq səviyyədə insan hüquqları sahəsində görülmüş işlər, habelə postmünaqişə dövründə insan hüquqlarının qorunması sahəsində mövcud çağırışlar barədə ətraflı məlumat verilib.

Nazir Ceyhun Bayramov, ölkəmizin Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən irəli gələn hüquqların qorunmasına sadiq şəkildə bu sahədə fəaliyyət göstərən qurumlarla aktiv dialoqu, habelə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının fəaliyyətinə töhfə verilməsini davam etdirdiyini bildirib. Azərbaycan tərəfindən milli səviyyədə bu sahədə aparılan islahatlar, o cümlədən qanunvericilik bazasının inkişafı, siyasi partiyalarla dialoqun möhkəmləndirilməsi, medianın inkişafına dəstək, fiziki məhdudiyyətləri olan şəxslər üçün şəraitin yaxşılaşdırılması, qadın və gənclərin səlahiyyətlərinin genişləndirilməsi, dövlət xidmətlərinin əlçatanlığının artırılması üçün görülən işlər barədə ətraflı məlumat verilib.

İnsan hüquqları sahəsində milli və beynəlxalq səviyyədə görülən işlərə baxmayaraq, bu istiqamətdə fəaliyyət göstərən qurumların mandat sahibləri tərəfindən müvafiq dövlətlərin mövqeyini və bölgədə mövcud faktlar və reallıqları nəzərə almayan ittihamlar irəli sürülməsinin məyusluq doğurduğu, bu kimi instansiyaların nüfuzunu və onlara olan inamı sarsıtdığı, bu xüsusda sözügedən pozuntuların aradan qaldırılmasının vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov münaqişənin bitməsinə baxmayaraq bölgədə dayanıqlı sülhün bərqərar edilməsinin qarşısında bir sıra çağırışların, o cümlədən Ermənistan tərəfindən hərbi-siyasi təxribatların, mina təhdidinin davam etdirilməsi, müharibə zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi barədə məlumatların bugünədək verilməməsi, 1987-1991-ci illər arasında indiki Ermənistan ərazilərində etnik təmizləmə siyasətinə məruz qalmış azərbaycanlıların hüquqlarının inkar olunması, Qarabağ bölgəsində məskunlaşmış erməni sakinlərin manipulyasiya edilməsi ilə reinteqrasiya səylərinə zərbə vurulmasının dayandığını vurğulayıb.

Çıxış zamanı, həmçinin bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin bərqərar edilməsi üçün yaranmış tarixi imkanın itirilməməsi məqsədilə beynəlxalq ictimaiyyətin ədalətli mövqeyinin hər zamankından daha müstəsna əhəmiyyət kəsb etdiyi bildirilib.

*

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Cenevrə Universitetinin Qlobal Araşdırmalar İnstitutu ilə birgə "Regional təhlükəsizlik və Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı" mövzusundakı dəyirmi masada çıxış edib.**

Nazir ölkəmizin xarici siyasət prioritetləri, qonşu ölkələrlə əlaqələrin perspektivləri, mövcud regional təhlükəsizlik məsələləri, çağırışlar və imkanlar barədə danışıb.

Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələrinin, o cümlədən baş verən regional proseslərin əlaqəliliyindən bəhs edən nazir Ceyhun Bayramov son dövrlər ərzində həm ikitərəfli əsasda, o cümlədən çoxtərəfli platformalar çərçivəsində münasibətlərin inkişafında intensivliyin müşahidə olunduğunu bildirib.

Nazir Ceyhun Bayramov, həmçinin Ermənistan baş nazirinin Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı verdiyi bəyanata baxmayaraq, ərazilərimizdə separatizmi təşviq edən ziddiyyətli açıqlamalar səsləndirməsinin anlaşılan olmaması ilə yanaşı, sülh prosesinin gələcəyini sual altında qoyduğunu bildirib.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramovun BMT-də Akkreditə Olunmuş Müxbirlər Assosiasiyasında (ACANU) aparıcı media qurumları üçün brifinqi təşkil olunub.**

Brifinqdə çıxış edən nazir Ceyhun Bayramov Azərbaycan Respublikasının xarici siyasət gündəliyində duran aktual məsələlər, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə iştirakçıları ətraflı məlumatlandırıb, jurnalistlərin çoxsaylı suallarını cavablandırıb.

**XQ**

# Aİ missiyasının sərhəd müşahidəsi: Ermənistan öz gözündə tiri görmür...




(əvvəli 1-ci səhifədə)

Bəli, həmin Praqa Sammiti zamanı N.Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etmişdi. Həm də ona görə buna getmişdi ki, sentyabr eskalasiyasından sonra ölkəmizin gücünü bir daha görmüş, qorxuya düşmüşdü. Əslində, bu gücü görən həm də Fransa olmuşdu. Nəticədə Parisin bilavasitə təşəbbüsü ilə sərhədə mülki missiyanın göndərilməsi işinə başlanılmışdı. Guya, Azərbaycan Ermənistan ərazisinə hücum edəcək, avropalılar da ölkəmizin işğalçılığını qeydə alıb bizi beynəlxalq aləmdə rüsvay duruma salacaqlar. "Plan"ın biri bu idi.

Əlbəttə, sözügedən missiya ilə bağlı başqa məqsədlər də nəzərdən keçirilməlidir. İrəvan danışıqlar prosesində destruktiv mövqe tutacaq, mövqelərimizi atəşə tutacaq, müşahidəçilər buna qarşılıq Bakının hansısa əks tədbirlər görməsini əngəlləyəcəklər. Necə deyərlər, canlı sipər olacaqlar. Beləliklə, sülhün əldə olunması uzanacaq. O vaxtadək ki, Ermənistan yenidən güc toplayacaq və özündə Azərbaycana qarşı mübarizə aparmaq əzmi formalaşdıracaq.

Aİ-nin daha bir məqsədi də var – Rusiya. Heç şübhəsiz, bu missiya Kremlin bölgədəki maraqlarına ziddir. Təsadüfi deyil ki, Rusiyanın müxtəlif rəsmiləri, o cümlədən Xarici İşlər naziri Sergey Lavrov avropalı müşahidəçilərin bölgədə əlavə qıcıqlandırıcılar kimi qələmə vermişdi. Azərbaycan isə məhz bu niyyətləri duyub həmin missiyanın öz tərəfində fəaliyyət göstərməsinə razılıq verməmişdi. Eyni zamanda, o səbəbdən razılıq verirdi ki, Fransanın egidası altında Aİ-nin Bakı-İrəvan nizamlama prosesinə fərqli siyasi gündəm yaratmaq cəhdlərini gördü.

*

Ölkəmiz həmişə mümkün qədər çalışıb ki, öz maraqları ilə bağlı məsələ hansısa ziddiyyətli qütblərin rəqabəti müstəvisinə düşməsin. Bəli, çoxsaylı cəhdlərə baxmayaraq, Azərbaycan Aİ-nin mülki müşahidə missiyasının şərti sərhədin öz tərəfində fəaliyyətinə razılıq vermədi. Ancaq sayı əvvəl 40, sonra 50 olan, daha sonra 200-ə çatan missiya heç Ermənistan tərəfində də bir iş görməyi bacarmadı. Onun rəhbərliyi cəmi bir dəfə guya hesabat verirmiş kimi mətbuat konfransı keçirdi və həmin tədbir biabırçılıqla üzləşdi. Müşahidəçilərin erməni jurnalistlərin suallarına cavab verə bilməyən rəhbəri Markus Ritter ümumi ifadələrlə kifayətləndi, konkret məqamlara gəlincə isə bildirdi ki, məruzəsini yuxarı rəhbərliyə təqdim edib və sair ilaxır...

Yeri gəlmişkən, onu da bildirək ki, Aİ-nin mülki missiyasını fəaliyyətsizlikdə günahlandıran erməni siyasi dairələri bir "məqamı" da qabartdılar. Onlar bildirdilər ki, Aİ Azərbaycanla enerji sahəsində əməkdaşlıq edir və buna görə Bakının hərəkətlərinə göz yummaq məcburiyyətindədir. Bir sözlə, avropalı müşahidəçilərin Ermənistandakı işi iflasa uğradı.

Doğrudur, Aİ-nin "sülh qaranquşları" arada Ermənistanın Laçın-Xankəndi yolunda düzənlədiyi "tır şousuna" da dəstəklərini göstərdilər. Bu "qaranquşların" bir qrupu əlinə durbin və binokllar götürərək, kənardan dayanıb, guya, monitorinq aparırmışlar kimi pozalar verdilər. Göz-qulaq oldular ki, tırlara zərər gəlməsin. Ola bilər, yük avtomobillərinin təkərlərini qaraltmaq, tozunu təmizləmək kimi mühüm işləri də gördülər. Üstəlik, xaricdən "tır şousuna" tamaşaya gəlmiş ermənipərəstləri və müxtəlif ölkə diplomatlarını müşayiət edərək, bir mütəxəssis kimi, onların yabanı bitkilərə toxunmamalarına, gicitkan və digər alaq otlarına yaxın düşməmələrinə nəzarət kimi "vacib" işləri gerçəkləşdirdilər.

İşdən söz düşmüşkən, M.Ritter bir neçə ay əvvəl mətbuat konfransında bununla bağlı rəqəmlər açıqlamışdı. Sən demə, missiyanın təmsilçiləri sərhəd zolağı boyu əvvəl 200, sonra 300, daha sonra 500 kilometr yol sürüblərmiş. Yazıqlar yaman əziyyət çəkiblər. Yaxşı ki, erməni jurnalistlər sualları ilə aranı qarışdırdılar. Bu gedişlə cənab Ritter əzmkar müşahidəçilərin çətin şərtlər altında neçə litr tut arağı, erməni konyakı, neçə dilim kolbasa, nə qədər sosiska, neçə qutu konserv yediklərini, dağda-daşda nə qədər salfetka işlətdiklərini də açıqlayacaqdı. Başqa nə var ki danışmağa? Heç nə.

*

Bəli, indi həmin M.Ritter və onun fırıldaqçı monitorinqçiləri yenə "Pikap"larına benzin töküb, çoxlu tualet salfetkasını da yükləyib ərazilərdə gəzintiyə çıxarkən müəyyənləşdiriblər ki, Azərbaycan sərhədə qoşun yığır.

Amma fırıldaqçı monitorinqçilər Ermənistanın sərhədə qoşun yığdığını "görməyiblər". Yəqin, həmin vaxt tualetdə olub, diqqət yetirməyiblər. Başqa nə deyək? Məsələ ilə bağlı fərqli nə isə söyləmək mümkünsüzdür. Təsəvvür edin, gözlərinin qabağında Ermənistan sərhədə silah-sursat, hərbi texnika daşıyır, bunu görmürlər, durub uzaqdan-uzağa Azərbaycanın qüvvələrindən danışırlar.

Əslində, M.Ritterin açıqlamasından gəlinən qənaət budur ki, müşahidəçilər Azərbaycanın şərti sərhədə qoşun yığdığını özləri görməyiblər. Diqqət yetirək: "Azərbaycan qüvvələrinin toplanması ilə bağlı söz-söhbətlər yarananda biz sərhədin bu hissələrində patrullarımızın sayını artırdıq. Biz gördüklərimizi mütəmadi olaraq Brüsselə çatdırırdıq. Bu barədə sosial şəbəkələrdə yazıb, vəziyyəti yaxşılaşdırmağa, gərginliyi azaltmağa çağırdıq. Deyəsən, bunun xeyri olub". Hə, fırıldaqçı, çox xeyri olub. Dəhşət. Adam bilmir ki, öz işinin səmərəliliyini sübuta yetirmək üçün nə tapsın, nə danışsın. Yox bir xeyirli iş görürlərmiş. İşini söz-söhbətə, şayiəyə əsasən quran müşahidə missiyasından nə gözləyəsən?

Nə isə, tualetdən söz düşmüşkən, M.Ritter başda olmaqla, avropalı fırıldaqçı monitorinqçilər özlərinə yeni məntəqə açıblar. Sən demə, əvvəllər bir yerdən başqa yerə getmək üçün çox məsafə qət edib yorulurmuşlar, indi isə İcavandakı yeni məntəqə imkan verəcək ki, sancıdan əziyyət çəkməsinlər... Ən əsası isə "indi burada daimi bazamız olduğundan, Azərbaycanla sərhəddə gecə-gündüz patrul xidməti apara bilərik".

Sən demə, Aİ-nin mülki müşahidə missiyasının İcevandakı yeni məntəqəsinin açılışı da olubmuş. Açılış mərasimində M.Ritterlə yanaşı, Aİ-nin Ermənistandakı fövqəlada və səlahiyyətli səfiri Vasilis Maraqos, Ermənistanın müdafiə nazirinin müavini Hraçya Sarkisyan və Tavuş vilayətinin qubernatoru iştirak edibmiş.

*

Sonda bir daha bildirək ki, elə Ermənistanda Aİ-nin Ermənistan – Azərbaycan şərti sərhədində Ermənistan tərəfindəki mülki müşahidə missiyasının fəaliyyətinə birmənalı müsbət münasibət yoxdur. Bəzi erməni siyasilər bildirirlər ki, Fransa bu sayaq missiyalardansa Azərbaycanla mübarizə aparmaq üçün gerçək iş görməlidir, amma görmür. Gerçək iş isə bu imiş – Azərbaycanın sərhədə qoşun yığdığı barədə söz-söhbətlərə diqqət yetirmək, buna qarşı immunitet formalaşdırmaq, müşahidə məntəqələrinin sayını artırmaq, nəticədə belə rəy yaratmaq ki, guya, ölkəmiz Ermənistan üzərinə hücuma keçəcək.

Bu cür qara-qışqırıq salmağın isə diqqəti İrəvanın hərbi hazırlıqlarından və təcavüz niyyətindən yayındırmaq məqsədi daşıdığı gün kimi aydındır. Bəs, nankor haylar deyirdilər ki, avropalıların heç bir xeyri yoxdur? Bundan yaxşı nə "fayda" ola bilər? Onlara illüziya və avantürizm lazımdır, avropalıların etdikləri də buna əsl "dəstəkdir".

***Ə.RÜSTƏMOV***
***XQ***

---

# Cənubi Qafqazda suyu bulandıranlar

## *Argentinanın prezidentini də çaşdırıblar*

(əvvəli 1-ci səhifədə)

Argentina Prezidentinin səsləndirdiyi fikirlərə Azərbaycanın reaksiyası özünü çox gözlətməyib. Belə ki, sentyabrın 11-də Argentinanın Azərbaycandakı səfiri Marianxeles Bellusi Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı, Argentina Prezidentinin "Böyük İyirmilik" ölkələrinin dövlət və hökumət başçılarının sammiti zamanı ölkəmizə qarşı qərəzli fikirlər səsləndirməsi ilə bağlı XİN-in etiraz notası səfirə təqdim edilib.

Görüş zamanı Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasına əsaslanaraq, bölgədəki reallıqları təhrif edən, suverenliyimiz və ərazi bütövlüyümüzə qarşı əsassız fikirlərin səsləndirilməsinin təəssüf doğurduğu bildirilib. Azərbaycan tərəfindən erməni sakinlərin ehtiyaclarının qarşılanması məqsədilə alternativ yollardan, o cümlədən Ağdam–Xankəndi yolundan istifadə təkliflərinin, göndərilən ərzaq məhsullarının hələ də qəbul edilməməsinin vəziyyətin Ermənistanın iddia etdiyi kimi humanitar deyil, siyasi xarakter daşıdığını nümayiş etdirdiyi qeyd olunub. Bu xüsusda, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı olan bəyanatlardan çəkinilməsinin vacib olduğu Argentina tərəfinin diqqətinə çatdırılıb.

Bundan əlavə, Qərbi Azərbaycan İcması da bəyanat yayıb. İcma Argentina Prezidentinin qərəzli fikirlərini kəskin şəkildə pisləyiriv bildirib: "Hiss olunur ki, Argentina Prezidenti ya məsələnin mahiyyətindən xəbərsizdir, ya da erməni diasporunun və ya Luis Moreno Okampo, Xuan Mendez kimi son vaxtlar "parlamaqda" olan azərbaycanofob həmvətənlərinin təsiri altında dini təəssübkeşlikdən çıxış edir. Qərbi Azərbaycan İcması Argentinanı beynəlxalq hüquqa hörmət etməyə, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə ikili standartlar prizmasından yanaşmamağa çağırır. Hesab edirik ki, Argentina Prezidenti başqa ölkənin daxili işlərinə kobud müdaxilə etməkdənsə, diqqəti öz ölkəsinin ağır sosial-iqtisadi problemlərinin həllinə yönəltməlidir".

***

Qeyd edək ki, Argentina hər zaman ermənipərəst siyasət yürütməsi ilə seçilib. Argentinadakı erməni diasporu Latın Amerikasındakı ən böyük diaspordur və sayı təxminən 120 min nəfərdir. İkitərəfli əlaqələrin yüz ildən artıq yaşı var. Belə ki, 1892-ci ildə Argentinaya, əsasən, Misir və Suriyadan erməni miqrantların ilk qrupu gəlib. Argentina Rusiya imperiyasının dağılması ilə müstəqillik əldə etmiş Ermənistan Respublikasını 1920-ci ildə tanıyıb və ölkələr arasında diplomatik əlaqələr qurulub. 1962-ci ildə Buenos-Ayres əyalətinin erməni icmasının futbol klubu yaradılıb.




1987-ci ilin sentyabrında Argentina Prezidenti Raul Alfonsin ölkənin erməni icması qarşısında çıxış edərək "erməni soyqırımı"nı tanıdığını bəyan edib. Sovet İttifaqının dağılmasından sonra müstəqilliyini bərpa edən Ermənistanla Argentina arasında diplomatik əlaqələr 1992-ci il yanvarın 17-də qurulub. 1992-ci ilin iyununda Ermənistan prezidenti Levon Ter-Petrosyan Argentinaya rəsmi səfər edib. 1993-cü ildə Ermənistan Buenos-Ayresdə səfirlik açıb. 1995-ci ildə Argentina Prezidenti Karlos Menem qondarma soyqırımını tanıyan qanuna veto qoyub. Ancaq o, sonradan mövqeyindən geri çəkilib, hətta 1998-ci ildə İrəvana rəsmi səfər edib. 2007-ci il yanvarın 11-də Argentina Prezidenti Nestor Kirşner isə "erməni soyqırımı"nı rəsmən tanıyan qanunu imzalayıb. 2009-cu ildə Argentina Ermənistanda səfirlik açıb.

Bununla belə, Buenos-Ayresin ermənipərəstliyi indiyədək özünü daha aşağı səviyyələrdə nümayiş etdirirdi. İndi isə ölkənin prezidenti səviyyəsində ermənilərin könlünü xoş edən fikirlər səsləndirilir. Bu fikirlərin yüksək tribunadan, beynəlxalq səviyyəli platformadan, yəni, "Böyük İyirmilik" ölkələrinin dövlət başçılarının sammitindən səsləndirilməsi də diqqətdən yayınmır. Sanki həmin platforma qəsdən seçilib. Bu isə Ermənistanın və dünya ermənilərinin maraqlarına tam cavab verir. Məsələ ondadır ki, rəsmi İrəvan ayrı-ayrı dövlətlərdən və beynəlxalq təşkilatlardan sui-istifadə edir. Haylar mövcud bütün imkanların istifadəsi ilə bölgədə, guya, "blokada" və "humanitar böhran"ın olması haqqında yalan və əsassız iddialarla Azərbaycana qarşı bütün dünyada qarayaxma kampaniyası aparmaqla məşğuldurlar. Argentina Prezidentinin belə fikirlər səsləndirməsi isə onlar üçün lap göydəndüşmə olub. Halbuki, Ermənistanın beynəlxalq birliyə "humanitar böhran", "blokada" kimi təqdim etməyə çalışdığı məsələnin, əslində, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş siyasi kampaniya olduğu hamıya, elə Argentina Prezidentinə də tam aydındır və bu, heç bir şübhə doğurmamalıdır. Ona görə də Azərbaycan tərəfi haqlı olaraq Argentina Prezidentinin bu yanlış və ziyanlı bəyanatına rəsmi cavab verdi. Yaxşı olardı ki, A.Fernandes erməni lobbisinin və diasporunun gücünü bu gün bölgəmizdə sülhə yaranmış təhlükənin aradan qaldırılmasına yönəldəydi. Həmçinin yaxşı olardı ki, Argentina dövlətinin başçısı bölgədə sülhün taleyinə prioritet kimi yanaşaydı. Bu çərçivədə Ermənistanın, eləcə də Qarabağdakı separatçı rejimin tör-töküntüsünün hərəkətlərinin nə qədər dağıdıcı olduğu məsələsinə toxunaydı.

Onu da bildirək ki, Xankəndidəki separatçı rejimin oynadığı oyunlar, keçirdiyi seçki şouları bugünlərdə beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə pislənilib. Argentina isə beynəlxalq birliyin yanaşmasına zidd mövqe ortaya qoyur. Cənab Fernandesin mövqeyindəki bağışlanmaz nüanslardan biri də bundan ibarətdir. Onun mövqeyi perspektivsiz olmaqla yanaşı, bölgədə gedən proseslərə heç hansı təsir göstərmək gücündə də deyil. Əslində, Cənubi Qafqazla heç bir coğrafi bağlılığı olmayan bir dövlətin başçısının Ermənistan–Azərbaycan münasibətləri barədə fikir yürütməsi, özü də yanlış mövqedə olması bağışlanmaz və ziyanlıdır.

Argentina Prezidentinin bu cür baxışlarla "Böyük İyirmilik" konsepsiyasına hansı töhfəni verə biləcəyi də artıq şübhə altındadır. Çünki Alberto Fernandesin yaranmış fürsətdən dünyanın müxtəlif regionlarında, o cümlədən Cənubi Qafqazda sülhün perspektivləri üçün daha geniş imkanlar yaratmağa çalışmaq əvəzinə, vəziyyəti daha da gərginləşdirən mövqedən çıxış etməsi "Böyük İyirmilik" platformasının özü üçün başucalığı gətirən hal sayıla bilməz. Əslində, "Böyük İyirmilik" ölkələri strategiyaları baxımından son dərəcə müxtəlif ölkələrdir. Lakin onların heç də hamısı beynəlxalq hüquq normalarına, dövlətlərin suveren hüquqlarına bu cür açıq-aşkar haqsız yanaşma sərgiləmir. Argentina Prezidentinin yanlış və qərəzli bəyanatı isə "Böyük İyirmilik" platformasının özünün nüfuzuna da zərbə vurur. Onun mövqeyi təkcə Azərbaycanın suveren hüquqlarına qəsd etmək deyil, "Böyük İyirmilik" platformasının strateji xəttinə ziyan vurmaq nöqteyi-nəzərindən də diqqəti cəlb edir. Zənnimizcə, "Böyük İyirmilik" ölkələri bu məqamı nəzərə almalıdırlar.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**



**Aydın QULİYEV,**
**siyasi şərhçi**

– Argentina Prezidentinin "Böyük İyirmilik" ölkələrinin dövlət və hökumət başçılarının sammitində Laçın yolu ilə bağlı məsələyə toxunması müasir dünyaya, onun təhlükəsizlik problemlərinə münasibətdə olduqca ziyanlı, dağıdıcı və yanlış mövqedir. Eyni zamanda, onun Laçın yolu barədə səsləndirdiyi fikirlər regiondan çox-çox uzaqda yerləşən bir dövlətin başçısının Cənubi Qafqazda baş verən proseslərin əsl mahiyyətindən xəbərsizliyinin əlamətidir. Aşkar şəkildə görünür ki, Argentina Prezidenti ya Laçın yolunda baş verən proseslərin həqiqi mahiyyətini bilmir, ya da bilmək istəmir. Bu məsələ ilə bağlı öz siyasətini birbaşa erməni lobbisinin təsiri altında formalaşdırır.

Sirr deyil ki, Argentina dünyada erməni lobbisinin təsirlərinin nisbətən üstün olduğu ölkələrdən biridir. Argentina Prezidentinin də belə yanlış, ziyanlı mövqedən çıxış etməsi onun erməni diasporunun və lobbisinin təsiri altında olduğunu göstərən əlamətdir. Xüsusilə Fernandesin çıxışında Şərqi Avropada gedən bəlli müharibə ilə yanaşı, Laçın yolunda "blokada"nın olduğunu iddia etməsi xüsusilə bağışlanılmaz və anlaşılmaz bir yanaşmadır. Şərqi Avropada gedən müharibə hara, Laçın yolundakı vəziyyət bu kontekstdə nəzərdən keçirmək hara? Laçın yolu ilə bağlı Azərbaycanın siyasəti hansısa blokada yaratmaqdan ibarət deyil. Bu, Azərbaycanın suveren hüquqları çərçivəsində həyata keçirdiyi beynəlxalq normalara uyğun siyasətdir.

# Milli Məclisin Sədri Bolqarıstanda



**Milli Məclisin Sədri Sahibə Qafarova Bolqarıstana səfəri çərçivəsində bu ölkənin Prezidenti Rumen Radevlə görüşüb.**

Prezident Azərbaycan və Bolqarıstanın, sadəcə, strateji tərəfdaş ölkələr olmadığını, həm də dövlətlərimiz arasında yüksək səviyyəli siyasi dialoqun müntəzəm xarakter daşıdığını diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycan və Bolqarıstan beynəlxalq müstəvidə baş verən bir çox proseslərə də eyni baxışlara malikdir, regionlarımızın sabitliyinə və təhlükəsizliyinə dair mövqeləri də oxşardır.

Prezident Azərbaycanla Bolqarıstan arasında enerji sahəsində də uğurlu nəticələrin müşahidə edildiyini qeyd edib. Bildirib ki, Azərbaycan qazı artıq Bolqarıstana gəlib çatıb. Strateji tərəfdaşlıq münasibətləri yalnız enerji sahəsini əhatə etmir. Ölkələrimiz arasında digər sahələrdə də uğurlu əlaqələr mövcuddur.

“Həmrəylik Halqası – STRİNG” layihəsinin ölkələrimizin birgə təşəbbüsü olduğunu deyən R.Radev, həmçinin SOCAR-ın Bolqarıstanda ofisinin açılmasını da bu sahədə uğurlu əməkdaşlığın göstəricisi olduğunu qeyd edib. O, həmçinin ölkələrimiz arasında “yaşıl enerji” sahəsində də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri Sahibə Qafarova, Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Bolqarıstanın dövlət başçısına çatdırıb. O, Azərbaycan ilə Bolqarıstan parlamentləri arasında əməkdaşlıqdan da söhbət açaraq qeyd edib ki, qarşılıqlı səfərlər iki ölkə parlamentləri arasındakı münasibətlərin daha da möhkəmləndirilməsində mühüm rol oynayır.

Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən qondarma rejimin “prezident seçkiləri”nin ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün, Azərbaycan Konstitusiyasının və qanunvericiliyinin, habelə beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması olduğunu qeyd edib.

Parlamentin Sədri Azərbaycan və Bolqarıstan xalqları arasında humanitar əlaqələrin zəngin tarixə malik olduğunu, təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlığın xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyni vurğulayıb.

*

Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Bolqarıstanın paytaxtı Sofiya şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə və Türkiyə Respublikasının 100 illiyinə həsr olunmuş tədbirdə iştirak edib.

Azərbaycanın və Türkiyənin Bolqarıstandakı səfirlikləri tərəfindən təşkil olunmuş tədbirdə, həmçinin Bolqarıstan Milli Assambleyasının üzvləri, bu ölkədə akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri və digər rəsmi şəxslər iştirak ediblər.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 13-də Budapeşt şəhərinə işgüzar səfərə gedib.**

S.Qafarova səfər çərçivəsində V Budapeşt Demoqrafik Zirvə görüşündə iştirak edəcək. Görüşdə parlament sədrinin çıxışı nəzərdə tutulub.

***Ə.BƏDƏLOV***
***XQ***

**Azərbaycanın Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyəti zonasındakı erməni separatçılarının hərəkətləri ölkəmizdə diqqətlə izlənilir. Hazırda müşahidə olunan vəziyyət separatçıların çaxnaşma içində olduqlarından xəbər verir. Eyni zamanda, Qarabağdan erməni əhalinin “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsindən keçərək Ermənistana gedişi də davam edir.**




# Naşükürlük

## Qarabağ separatçıları Rusiyanın köməyinin Ağdamdan göndərilməsinə qarşıdır

Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən Ağdam–Əsgəran yolundan keçməklə Qarabağdakı erməni əhaliyə aparılan yardımın paylanması da gündəmdə olan məsələlərdən biridir. İrəvanda nəşr olunan “Hraparak” qəzeti yazır ki, Rusiyanın göndərdiyi yardım Xankəndiyə çatıb, amma hələ də Laçın yolunun açılmasından (?) söhbət getmir: “Rusiyadan gələn yük maşını artıq Xankəndiyə çatıb. Şəhər sakini Arman Arutyunyanın sözlərinə görə, şayiə dolaşır ki, bu, Rusiyadan göndərilən yeganə yük maşını olmayacaq. Daha çox yük maşınları gələcək. Laçın yolunun açılmasına gəldikdə isə Xankəndi sakini bildirib ki, bu yolun açılmasından söhbət getmir”.

Qeyd edək ki, Azərbaycan Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarının eyni vaxtda açılmasını təklif edib. Moskvanın təşəbbüsü ilə Rusiya Qırmızı Xaç Komitəsinin ərzaq yükünün Xankəndi istiqamətində hərəkət etməsi isə ayrıca razılaşmadır və Beynəlxalq Qırmızı Xaç Komitəsinin daşımaları üçün Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarının eyni vaxtda açılması təklifi ilə qarışdırılmamalıdır.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bugünlərdə “X” sosial şəbəkəsində yazdığı kimi, Rusiyanın ərzaq yükü Ağdam – Əsgəran yolu ilə Xankəndi istiqamətində gedib: “Azərbaycan sentyabrın 1-də Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarının eyni vaxtda açılmasının təmin edilməsinə xoşniyyətli jest kimi razılığını bildirib. Lakin qanunsuz rejim bundan imtina edib”. Bu mənada “Hraparak”ın yazdıqları ictimai rəylə manipulyasiya etməkdən başqa bir şey deyil.

Əsgəranlı “ac” separatçı Ermine Xaçatryan isə Rusiyanın Azərbaycan qanunvericiliyinə uyğun olaraq göndərdiyi ərzaq yükünün gəldiyini biləndə Xankəndiyə necə getdiyini Ermənistan mətbuatına danışıb: “Deyəsən, səhər saat 07:30 idi. Xəbər tutan kimi tez geyinib evdən çıxdım. Nə baş verdiyini öyrənmək lazım idi. Dünən orda idim, uşaqlar iş başında idilər. Maşının yolu necə və niyə keçdiyini başa düşməkdə çətinlik çəkirəm. Əgər ruslar, doğrudan da, bizə kömək etmək istəyirdilərsə, bu yükü Laçın “dəhlizi” ilə də göndərə bilərdilər, daha Ağdamdan niyə göndərirlər?”

“Polislər” dedilər ki, yalnız Rusiya mallarının idxalına icazə verilib, Azərbaycan mallarının idxalına isə yox”, – deyə Azərbaycanın humanitar yardımının Qarabağa buraxılmayacağını bildirən Xaçatryan azərbaycanlılara münasibətdə ksenofobiya nümayiş etdirib.

Əsgərandan olan digər separatçı Snejana Tamrazyanın sözlərinə görə, bəzi sakinlər bu xəbəri sosial şəbəkələrdən öyrəniblər. Onun sözlərinə görə, bunu heç kim gözləmirdi.

Bugünlərdə başqa bir Xankəndi sakini isə Azərbaycandan gələcək humanitar yardımı qəbul etməkdənsə, ac qalmağı üstün tutduğunu bildirmişdi. Bütün bunlar isə Qarabağdakı separatçıların hələ də revanşist əhval-ruhiyyədə olduqlarını və ölkəmizə nifrət hissi ilə yanaşdıqlarını göstərir.

***Səxavət HƏMİD***
***XQ***

KÖŞƏ

# Ermənistana sentimental xəbərdarlıq

## Zaxarova deməkdə, İrəvan öz bildiyindədir

**Belə bir lətifə var. Bir nəfər digərini qorxutmaq istəyir. Əlini hər dəfə cibinə atır ki, silahını çıxarsın. Amma çıxarmır. Qarşısındakı əvvəlcə çəkinir. Amma bu hərəkətlər təkrarlandıqca, artıq bezir və ondan tələb edir ki, əgər kişisənsə, silahını çıxar və vur! Həmin adam qəti şəkildə əlini cibinə atanda silahı tapa bilmir. Görür ki, cibi cırılıb, silah düşüb... Mövzuya bu lətifə ilə başlamağımızın səbəbi sonda məlum olacaq. Hələlik isə mətləbə keçək.**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

“Rusiya Ermənistan rəhbərliyindən iki ölkə xalqları arasında münaqişə yaratmaq üçün fəlakətli olmayan planlar gözləyir. Ümid edirəm ki, bu, baş verməyəcək. Mən ürəkdən ümid edirəm ki, Ermənistan rəhbərliyində heç kimin belə bir məqsədi yoxdur. Çünki, fikrimcə, bu, sadəcə Ermənistan üçün fəlakət olar”. Belə bir fikirlə Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova çıxış edib.

Xarici İşlər Nazirliyinin rəsmisi xatırladıb ki, Rusiya tarixən Ermənistanın və erməni xalqının etibarlı müttəfiqi, dostu, ən yaxın tərəfdaşı kimi özünü göstərib və təsdiqləyib. Ən çətin anlarda köməyə gəlib, dəstək verib. Eyni zamanda, Rusiya hər zaman Ermənistanın nailiyyətlərinə sevinib və heç bir qərara ortaq olmasa belə, onun seçimlərini qəbul etməyi bacarıb, ölkənin suveren qərarına hörmətlə yanaşıb.

Diplomat Rusiya ilə münasibətlərdən imtina etməyin həm Ermənistan dövlətinə, həm də erməni xalqına fayda gətirəcəyinə əmin olmadığını vurğulayıb. “Belə əlaqələri bir və ya beş il ərzində qurmaq olmaz. Bu, tarixi bazadır. Bu, zamanla sınaqdan keçirilmiş hekayədir. Ən əsası, insanların ruhundan, ürəyindən gələn hekayədir. Bu, fürsətcillik deyil, haradasa proqramda yazılmır və həyata keçirilməsi insanların öhdəsinə buraxılmır. Bizim ölkədə insanlar belə düşünür, belə hiss edir, bu ölkəyə (Ermənistana – red.), bu insanlara (ermənilərə - red.) sevgi ilə yanaşırlar”, – deyə Zaxarova sentimental diplomatik tona üstünlük verməyi də yaddan çıxarmayıb. O, eyni zamanda, əlavə edib: “Və hər şeyin üstündən xətt çəkmək... Mən ürəkdən ümid edirəm ki, Ermənistan rəhbərliyində heç kimin belə planı yoxdur”.

***

M.Zaxarova bir müddət əvvəl Ermənistanın Rusiyadakı səfirinin ölkənin Xarici İşlər Nazirliyinə çağırılmasından və ona rəsmi İrəvanın anti-Rusiya ovqatı ilə bağlı xəbərdarlığın edilməsindən də söz açıb. Mövcud xüsusda Roma statutunun (Roma statutu Rusiya Prezidentinin Ermənistan ərazisinə daxil olacağı təqdirdə həbsini nəzərdə tutur – red.) Ermənistan parlamentində ratifikasiyası ilə bağlı məsələlərdən söz açıb. “İrəvanın motivasiyasını hələ də biz yox, erməni tərəfi əsaslandırmalı, izah etməlidir. Nə edirlər? Niyə edirlər? Yeri gəlmişkən, onlar öz qiymətləndirmələrini təqdim etdilər. Lakin biz ikitərəfli kanallar vasitəsilə erməni həmkarlarımıza, tərəfdaşlarımıza, dostlarımıza dəfələrlə dediyimiz kimi, bu cür addımları qeyri-dost hərəkətlər sayırıq. Hansısa mərhələdə onlar açıq danışmağa başladılar. Çünki suallar daha çox idi”.

***

Rusiya Ermənistanın düşməni deyil və heç vaxt da olmayacaq. RİA Novosti-yə müsahibəsində M.Zaxarova rəsmi İrəvanın bəzi bəyanatlarına Moskvanın reaksiyasını belə şərh edib. Onun sözlərinə görə, Moskva İrəvanın yüksək tonlu ritorikasına və təhqiredici şəxsi məqamlara, o cümlədən, kobudluğa əhəmiyyətsiz yanaşıb. Lakin həqiqətə uyğun olmayan, qeyri-dəqiqliyə və ya faktların təhrifinə yönəlmiş fikirlərə reaksiya verib və buna görə də səfir Xarici İşlər Nazirliyinə dəvət edilib. Rusiyanın Cənubi Qafqaz regionunda və xüsusən də Qarabağdakı rolunu şərh edən Zaxarova vurğulayıb ki, Azərbaycanın Qarabağdakı hüquqlarını Rusiya deyil, Ermənistan rəhbərliyi tanıyıb. “Buna necə reaksiya vermək onların, Ermənistan xalqının öz işidir. Amma İrəvanda qəbul edilən qərarların günahını və məsuliyyətini Rusiyanın üzərinə atmağa, Rusiyada düşmən axtarmağa ehtiyac yoxdur”, – deyən Zaxarova bu istiqamətdə günahkarların axtarılmasının fəlakətli nəticələr doğura biləcəyini bildirib: “Bu, Ermənistan üçün təhlükəlidir”.

Qeyd edək ki, Ermənistan baş naziri Nikol Paşinyan ölkənin ictimai televiziyasına bir neçə gün əvvəlki müsahibəsində M.Zaxarovanın da haqqında söz açdığı Roma statutundan danışmışdı. Onun sözlərinə görə, bu statut Ermənistan parlamentində ratifikasiya olunacaq. Paşinyan Prezident Putinin də ölkəsi ərazisində həbsini nəzərdə tutan bu layihəyə fərqli don geyindirməyə çalışmış, diqqəti əsas məsələdən yayındırmaq yolunu tutmuşdu. Nikol bildirmişdi ki, Roma statutu, əslində, Azərbaycanın təhlükəsinə qarşı Ermənistanın müdafiəsini nəzərdə tutan sənəddir. Ancaq baş nazir bu fikri ifadə edərkən də dolayısı ilə Rusiyanı qınamaqdan çəkinməmişdi. O, Moskvanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsindəki təhlükəsizlik tədbirlərinin İrəvan üçün yetərli olmadığını vurğulamışdı. Əlbəttə, Nikol bu qurumun Ermənistanla bağlı fəaliyyətinin qənaətbəxş saymadığı məqamlarına da toxunmuşdu.

***

M.Zaxarovanın fikirlərinə gəldikdə isə Ermənistan parlamentinin sədri Alen Simonyan tərəfindən “katibə” adlandırılaraq fikirlərinə önəmsiz yanaşılmış rəsmi nümayəndə, kifayət qədər, diplomatik tərzdə Rusiyanın Ermənistan rəhbərliyinə olan qəzəbini ifadə etdi. Onun bildirdiklərini, həmçinin İrəvana xəbərdarlıq kimi də qiymətləndirmək olar. Ancaq məsələ burasındadır ki, son zamanlar rəsmi Moskvanın belə xəbərdarlıqlarının sayı çoxdur və bir qayda olaraq, Ermənistan hakimiyyəti heç birindən nəticə çıxarmır. Əksinə, görürük ki, Paşinyan adminstrasiyası özünün anti-Rusiya ritorikasını daha da gücləndirir. Deməli, qalır, Zaxarovanın fəlakət məntiqinin sözdən əmələ keçməsi. Güman edirik ki, dəyərli oxucularımıza mövzuya nə üçün lətifə ilə başladığımızın səbəbi aydın oldu.

# Ağalı yeni sakinlərini qəbul etdi





**Dünən ağalıların sayı 123 nəfər də artdı. Köç karvanını Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları, Ağalıya daha öncə köçən ailələr böyük coşqu ilə qarşılayıblar.**

Sonra ata-baba yurdlarına qayıdan keçmiş məcburi köçkünlərə mənzillərin açarı təqdim edilib və ailələr yeni evlərində yerləşiblər.

Bununla da Böyük Qayıdış layihəsi çərçivəsində Ağalı kəndinə ümumilikdə 133 ailənin, 649 nəfərin məskunlaşması təmin olunub.

**XQ**

# Növbəti Xəzər müzakirəsi ölkəmizdə olacaq

**Sentyabrın 11-13-də Aşqabad şəhərində Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupun altıncı iclası keçirilib.**



Danışıqlarda Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan nümayəndə heyətləri iştirak edib. İclasa Türkmənistanın nümayəndə heyətinin rəhbəri M.G.Atacanov sədrlik edib.

Tərəflər Xəzər dənizində düz çıxış xətlərinin müəyyən olunmasının metodikası üzrə Saziş layihəsinin müddəalarını müzakirə edib, habelə layihənin bir sıra müddəalarını razılaşdırıblar. Sözügedən sənədin müzakirəsi YSİQ-in növbəti iclasında davam etdiriləcək.

Qeyd edək ki, növbəti iclas Azərbaycanda baş tutacaq.

**XQ**

# Sumqayıtda 3 tarixi görüş



**Azərbaycana rəhbərliyi müddətində 16 dəfə Sumqayıtda olan ulu öndərin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi düşüb.**

Ümummilli liderin Sumqayıta səfərləri əsasən kimya və metallurgiya müəssisələrinin genişləndirilməsi və modernizasiyası ilə əlaqədar olsa da, o, əmək adamlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması, gənc şəhərdə mədəni quruculuq tədbirlərinin həyata keçirilməsinə də böyük qayğı göstərmişdir.

1974-cü il noyabrın 27-də respublika rəhbərinin Səməd Vurğun adına Mədəniyyət sarayında Sumqayıtın 25 illik yubileyində iştirakını şəhərin yaşlı sakinləri yaxşı xatırlayırlar. Bu, ulu öndərin həmin il Sumqayıta 3-cü səfəri idi.

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı bunlar barədə geniş məlumat verən “Sumqayıtın tarixi” muzeyinin sabiq direktoru, hazırda pensiyada olan Əməkdar mədəniyyət işçisi Olya İslamova** bildirir ki, həmin il şəhərin yubileyinin maraqlı keçməsi üçün muzeyin elmi işçilərinin xalqımızın görkəmli oğlu Heydər Əliyevə böyük məhəbbət və ehtiramla tərtib etdiyi, tarixi eksponatların “dili ilə danışan” sərgi maraqla qarşılanmış, bayram ovqatını daha da yüksəltmişdi.

Ulu öndərin respublikada hakimiyyətinin ilk dönəmində onunla görüşmək Olya İslamovaya nəsib olmamışdı. Lakin dahi rəhbər Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra onunla üç dəfə – 1993, 1996 və 1999-cu illərdə görüşmək, hətta söhbət etmək imkanı yaranıb.





**İlk görüş – 28 dekabr 1993-cü il.** Həmin gün sumqayıtlılar Azərbaycanın görkəmli oğlu, xalqımızın xilaskarı, cəmi 5 ay əvvəl yenidən ölkə rəhbərliyinə gəlmiş Heydər Əliyevi böyük intizarla gözləyirdi. Əvvəllər Sumqayıta 10 dəfə səfər etmiş ulu öndər bu şəhərə ilk dəfə idi ki, Azərbaycan Prezidenti kimi gəlirdi. Odur ki Sumqayıt onun gəlişinə, qarşılanmasına ciddi hazırlıq görmüşdü.

Respublika rəhbəri ilk növbədə Türkiyənin “Teletaş” firmasının Sumqayıtın 4-cü mikrorayonunda quraşdırdığı elektron tipli müasir telefon stansiyasının açılışında iştirak edəcəkdi. Həmin ATS isə Olya xanımın çalışdığı “Sumqayıtın tarixi” muzeyinin lap yaxınlığında olduğuna görə güman vardı ki, ölkə rəhbəri muzeylə də maraqlansın. Odur ki, bir gün əvvəldən muzeyin hər iki mərtəbəsi, otaqlar, zallar xüsusi idarə tərəfindən diqqətlə yoxlanılmışdı. Olya xanımın dahi rəhbərə sonsuz sevgisi olan, onun hakimiyyətə qayıdışına çox sevinən atası, Sumqayıtın ağsaqqal ziyalısı Zəbi Abdullayev də qızına demişdi ki, Prezident hökmən muzeylə də maraqlanıb, ora baş çəkəcək, diqqətli ol.

Elə də oldu. ATS-dəki təntənəli açılışdan, Türkiyə Prezidenti ilə telefonla birbaşa danışıqdan sonra Heydər Əliyev özünün ən etibarlı silahdaşlarından biri olan Arif Rəhimzadə və digər rəsmi şəxslərlə birgə muzeyə tərəf addımladı. Onu muzeyin girişində sevinclə, həyəcanla qarşılayan Olya İslamova dahi rəhbəri salamlayaraq dedi:

– Heydər müəllim, bilirik ki, Siz dünən Parisin dünyaca məşhur Luvr muzeyində olmusunuz, bu gün isə Sumqayıt muzeyinə təşrif buyurmusunuz. Xoş gəlmisiniz!

Ulu öndər cavab verdi ki, “Xanım, Luvr Fransadadır, ancaq Sumqayıt muzeyi burada – Azərbaycandadır.”

Belə bir səmimi və müdrik cavabı eşidən Olya xanım bir qədər ürəklənərək, muzey haqqında dahi rəhbərə müfəssəl məlumat verməyə başladı.

Dövlət rəhbəri onu maraqla dinlədi. Sonra muzeyin salonlarından birində “Bir elin harayı” kolleksiyasının qarşısında ayaq saxlayıb, onun eksponatlarına diqqətlə, maraqla baxan ulu öndər 1988-ci ildə həmin zəngin kolleksiyanı Ermənistandan araba ilə, min-bir əziyyətlə Sumqayıta gətirmiş vətənpərvər ziyalı, tarix müəllimi Baxşeyiş Ələmşahovla görüşərək, fədakarlığına görə ona təşəkkür etdi və dedi ki, sənin bu “qaçqın muzey”in gələcək nəsillər tərəfindən daha yüksək dəyərləndiriləcək!

Heydər Əliyev daha sonra muzeyin hər iki mərtəbəsini gəzərək, eksponatlara maraqla tamaşa etdi. Özü ilə bağlı ekspozisiya ilə tanış olanda təəccübə bənzər şəkildə soruşdu ki, “Azərbaycanda olmadığım illərdə mənim bütün şəkillərimi cırıb atıblar, nə əcəb siz qoruyub saxlamısınız?”. Olya xanımın inamla: “Heydər müəllim, tarixi silmək olmaz! Muzey ilk növbədə ondan ötrüdür ki, tarix necə varsa, elə də qorunsun”, – deyə cavab verməsi Heydər Əliyevin çox xoşuna gəldi.

Ekspozisiyalarla tanışlıqdan sonra muzeyin çıxışına yönələn Prezidenti meydana toplaşmış minlərlə şəhər sakini sevinclə, ehtiramla, sürəkli alqışlarla qarşıladı. Səmimi görüş oldu.

Olya xanım bu gün də heyrətlə xatırlayır ki, torpaqlarımızın işğalının, Qarabağda erməni azğınlıqlarının davam etdiyi, qanlı çarpışmalar getdiyi həmin qış günündə Heydər Əliyev vaxt ayıraraq, sumqayıtlılar qarşısında bir saatdan artıq çıxış etmişdi. Və onun hər sözündə sabaha, torpaqlarımızın düşməndən tam azad ediləcəyinə böyük, sarsılmaz inam vardı.

Həmsöhbətimiz onu da xatırlayır ki, ulu öndər muzeydən sonra o zaman hələ ilk şəhidlərin gətirildiyi Sumqayıt şəhər məzarlığına da baş çəkmək, mərd oğulların ruhuna ehtiramını bildirmək istədiyini də demişdi. Orada şəhid oğlunu ziyarətə gəlmiş bir ana ilə təsadüfən görüşən Heydər Əliyev kövrələrək onun ağ saçlarından öpmüş, başsağlığı vermiş və Vətən uğrunda canından keçən bir oğul böyütdüyünə görə ona təşəkkür etmişdi. Sonda isə qəti bir inamla şəhidlərin qisasının hökmən alınacağını bildirmişdi.

**İkinci görüş – 2 iyun 1996-cı il.** Heydər Əliyevin BMT-nin İnkişaf Proqramı üzrə nümayəndəsi Paolo Lembo və hökumət adamları ilə Sumqayıta növbəti gəlişi bütün gün üçün nəzərdə tutulmuşdu. Bir vaxtlar ulu öndərin öz təşəbbüsü ilə inşa edilmiş “Kimyaçı” Mədəniyyət sarayında geniş tədbir keçiriləcəkdi. Ona görə də əvvəlcədən qərara alınmışdı ki, dahi rəhbərə həsr edilmiş, “Heydər Əliyevin Sumqayıta qayğılarından səhifələr” adlanan sərginin ekspozisiyasında fotoları olan adamlar – Sosialist Əməyi qəhrəmanları Zəminə Həsənova, İdris Dadaşov, Şəmşad Pənahov, Dadaş Dadaşov, hünərvər inşaatçılar Gülbahar və İmamverdi Vəliyevlər o stendlərin yanında dayansınlar. Ölkə rəhbəri şəkillərə maraqla tamaşa edərək irəlilədikcə birdən ilk azərbaycanlı metallurq qadın Zəminə xanımı gördü və gözlənilmədən, lakin çox təbii və səmimi şəkildə “Əziz bacım!” – deyərək, onu qucaqladı. Zəminə xanım da “Əziz qardaşım!” deyib rəhbərlə görüşdü və sevincindən göz yaşlarını saxlaya bilmədi. Həmin təsirli səhnə orada olanların hamısını kövrəltdi.

Sərgi rəhbərin çox xoşuna gəldi. Bir şəklin önündə ayaq saxlayıb, təəccüblə dedi ki, nə yaxşı, bu şəkil də burdadır ki!.. Şəhərin o vaxtkı icra başçısı Şakir Abuşov ölkə rəhbərinə bildirəndə ki, sərgini muzeyimizin direktoru Olya İslamova tərtib edib, çox möhkəm yaddaşı olan Heydər Əliyev Olya xanımı tanıyaraq, onu mehribanlıqla bağrına basdı, minnətdarlıq ifadəsi olaraq üzündən öpdü. Sonra isə mədəniyyət sarayının böyük salonunda keçirilən tədbirdə çıxış edərkən sərgidən razılıqla söhbət açdı. Amma oradakı fotolar arasında bir şəkli görmədiyini söylədi: “Axı, mən Sumqayıtın 25 illiyində də iştirak etmişdim, çıxışım da olmuşdu. Ancaq həmin şəkli bu gün sərgidə görmədim...”.

Olya xanım bunu bu gün onunla izah edir ki, həmin şəkildə fonda, Heydər Əliyevin başı üzərində Leninin də şəkli olduğuna görə onu sərgidə nümayiş etdirməyə şəhər rəhbərliyi risk etməmişdi...

**3-cü görüş – 14 iyul 1999-cu il.** Bu, ulu öndərin ilk dəfə Azərbaycanda hakimiyyətə gəlişinin 30 illiyinə təsadüf edirdi. Həmin tarixi gün münasibətilə Bakının İdman və Konsert Sarayında Heydər Əliyevin rəhbərliyi ilə ötən illər ərzində respublikanın şəhər və rayonlarında aparılmış abadlıq-quruculuq işlərini əks etdirən fotolardan ibarət geniş bir foto-sərginin təşkili nəzərdə tutulmuşdu. Sumqayıt muzeyinin kollektivi də həmin sərgi üçün xeyli şəkil toplamışdı. Axı, ulu öndər hakimiyyəti dövründə ən çox Sumqayıtda səfərdə olmuş, onun sosial-iqtisadi, mədəni inkişafı üçün böyük işlər görmüşdü. Azərbaycan boru-prokat zavodunda xarici avadanlıqlardan qurulmuş “EMAQ” axın xətti, Sintetik kauçuk zavodunda inşa edilmiş “EP-300” qurğusu, “Üzvi sintez” zavodunda inşa edilmiş “Polimir-120” kompleksi, Kompressorlar zavodu, Superfosfat zavodu və s. məhz ümummilli liderin Sumqayıt sənayesinə böyük töhfələri olub.

Sərginin açılışına oğlu – hazırkı Prezidentimiz İlham Əliyevlə, qızı Sevil xanım və gəlini – hazırda Birinci vitse-prezident olan Mehriban xanım Əliyeva ilə birlikdə gələn ulu öndər Gəncə stendinə baxdıqdan sonra Sumqayıt stendinə yaxınlaşdı. O, 3 il əvvəl Sumqayıtda görmədiyi, indi isə stenddə ilk sırada qoyulan fotonu görüb, məmnunluqla gülümsündü. Bu vaxt Olya xanım irəli durub dedi: “Heydər müəllim, bu, Sizin Sumqayıtın 25 illik yubileyinizdə çəkilən şəklinizdir. Çox istərdik ki, Siz şəhərimizin 50 illik yubiley tədbirində də iştirak edərək, biz sumqayıtlıları sevindirəsiniz!”.

Muzey direktorunun öz adından, həm də ilk dəfə səsləndirdiyi bu təklif–dəvət ölkə Prezidentini çox sevindirmişdi. O, cavabında gülərək demişdi: “Allah qoysa! Hökmən!..”

Təəssüf ki, bu, “Sumqayıtın tarixi” muzeyinin direktoru Olya İslamovanın ulu öndərlə son görüşü oldu. Ancaq dahi rəhbərlə bağlı solmaz xatirələr, onun sirayətedici və nurlu siması hamı kimi, Olya xanımın da xatirəsində bu gün Günəş kimi parlamaqda, işıq saçmaqdadır...

***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

**Sumqayıt**

# Heydər Əliyev dərsləri

**(əvvəli XQ-nin ötən saylarında)**

## “Müəllimin qarşısında baş əyirəm”

Heydər Əliyev müəllimlərin bütün dövrlərdə aztəminatlı insanlar qrupuna aid olmasına baxmayaraq, öz peşəsinə sadiqliyini fədakarlıq adlandırırdı. O deyirdi:

– Mən müəllimlərimi həmişə böyük hörmət və ehtiramla xatırlamışam. Bunu bu gün bir daha bildirmək istəyirəm. Arzu edərdim ki, müəllim elə müəllim olsun ki, bax, mənim hafizəmdə orta məktəbdən indiyədək yaşayan duyğular hər bir gəncin hafizəsində qalsın.

Xatirimdədir, biz müəllimi görəndə həmişə özümüzü yığışdırırdıq. Müəllimdən həm qorxurduq, həm də ona hörmət edirdik. Biz müəllimin hər sözünü qanun kimi qəbul edirdik. Şəxsən mənim həyatımda müəllim ən ali sima olmuşdur. Mən tək deyiləm, hesab edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti mənim kimi belə düşünür.

Hər kəs öz həyatında müəllimlə özünün əlaqəsi haqqında fikirlər söyləyə bilər. Ancaq mənim çoxillik həyatımda, dünyanın çox mərhələlərini keçib gəldiyim həyatımda ən çox yadımda qalan, mənim üçün əziz olan müəllimlərdir. Mən onları bu gün də böyük minnətdarlıqla xatırlayıram. Hesab edirəm ki, mənim öz daxili istedadımla yanaşı, müəllimlərimin mənə verdikləri bilik, tərbiyə, müəllimlərimin mənə göstərdiyi yol bütün həyatımı həmişə uğurlu edibdir və bu gün də uğurlu edir.

Əziz dostlar, siz fəxr etməlisiniz ki, müəllimsiniz və müəllimlik peşəsinə sadiqsiniz. Doğrudur, müəllimin maddi vəziyyəti başqa təbəqələrə nisbətən zəif olur, elə keçmişdə də belə idi. Həqiqətən belədir. Məsələn, 70- ci illərdə mən Azərbaycana rəhbərlik etdiyim zaman, yaxud da Sovetlər İttifaqında bu məsələlərlə məşğul olduğum zaman biz daim düşünürdük ki, müəllimlərin maaşını nə təhər artıraq, onların maddi vəziyyətini necə yaxşılaşdıraq. Sizə deyə bilərəm ki, 1984-cü ildə məktəb islahatı keçirilərkən biz, eyni zamanda, müəllimlərin maaşının artırılması haqqında qərar qəbul etdik. Amma bunlara baxmayaraq, hesab edirəm ki, başqa təbəqələrə nisbətən müəllimlər elə o vaxt da aztəminatlı adamlar olublar və bu gün də aztəminatlıdırlar. Bu, müəllimliyin xüsusiyyətidir. Çünki əsl müəllim pul, sərvət üçün yox, həmişə mənəviyyat üçün xidmət edibdir.

Xatirimdədir, orta məktəbdə, pedaqoji texnikumda oxuyanda mənim maddi vəziyyətim, yəni ailəmin vəziyyəti çox zəif idi. Ancaq görürdüm ki, mənə dərs verən müəllimlərin maddi vəziyyəti bizim maddi vəziyyətimizdən o qədər də artıq deyildir. Amma nə qədər həvəslə, sədaqətlə və nə qədər ürəklə bizə tərbiyə, dərs verirdilər. Ona görə də müəllimlik peşəsi həmişə fədakarlıq tələb edir. Bu, belə olubdur. Mən hesab edirəm ki, insan cəmiyyətində ən yüksək yerdə mənəviyyat durur. Maddi vəziyyət, sərvət, bu və ya başqa şeylər xeyli aşağıda durur. Bununla onu demək istəmirəm ki, müəllimlər həmişə maddi çətinlik içərisində yaşamalıdırlar. Yox, sadəcə, bu sözlərimlə mən özünü müəllimlik peşəsinə həsr edən insanın həmin peşəyə sadiqliyini sübut etmək istəyirəm. Ola bilər, o müəllimlər gedib başqa bir işlə məşğul olsaydılar, bir neçə qat artıq fayda götürə bilərdilər və maddi vəziyyətləri də yaxşı olardı. Ancaq onlar müəllimlik peşəsini seçiblər, siz müəllimlik peşəsini seçmisiniz. Buna görə də mən sizə “afərin!” deyirəm, sizin qarşınızda, müəllimin qarşısında baş əyirəm.

## “Xalqın hər bir günü tarixdə öz yerini tapmalıdır”

Tariximizə həmişə həssas yanaşan ulu öndər bunu elmi ictimaiyyətə də tövsiyə edirdi.

– Keçən vaxtlar – Sovet hakimiyyəti vaxtı bütün tarixçilər ümumi tarixi yazarkən, o cümlədən də universitetin tarixini yazarkən hər bir şeyi marksist-leninçi ideologiya əsasında və bir də o tarix ki, qurulmuşdu, onun əsasında yazmağa çalışırdılar. Ona görə də təhriflərə yol verirdilər. Amma iki-üç il bundan qabaq, respublikamızda yeni bir dövr yarananda bəziləri hesab etdilər ki, 1920-ci ildən 1992-ci ilədək Azərbaycanda nə olmuşdursa, bunlar heç bir şey deyil. Tarix indidən başlayır. Belə münasibət yaramaz! Xalqın hər bir günü tarixdə öz yerini tapmalıdır. Tariximizin hər bir nöqtəsi, hər bir günü bizim üçün əzizdir, – nə cür olur-olsun. İki-üç il bundan qabaq mən eşitdim: bəzi yeni siyasətçilər deyəndə ki, Nəriman Nərimanovdan başlayan və indiyə qədər, bizə qədər olan dövr tarix deyildir, mən dəhşətə gəldim. Belə ədalətsizliyə yol vermək olmaz!

*

1968-ci ildə mən respublikada Dövlət Təhlükəsizliyi Komitəsinin sədri idim. Universitetdə bir neçə alim Azərbaycanın tarixini araşdırarkən Azərbaycanın Rusiyaya birləşməsi haqqında mübahisə aparmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü surətdə girmişdir, yaxud eləbelə girmişdir, ya da məcburi girmişdir. Bunu o vaxtlar şişirtdilər. Şübhəsiz ki, elm adamları elmi axtarışlar zamanı gərək həmişə bütün versiyaları yoxlasınlar. O vaxt isə ümumi qərar belə idi ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü daxil olmuş, özü bunu xahiş etmişdir. Şübhəsiz ki, bu, tarixi həqiqətdən uzaqdır. Ancaq belə olmuşdu və bu hadisə də bayram kimi qeyd edilmişdi. Amma bir neçə alim o vaxt bunu şübhə altına alaraq öz fikirlərini söyləmişdi. Bu, böyük bir iğtişaş yaratdı. Başladılar araşdırmağa ki, bunlar millətçidirlər, yaxud başqa fikirləri var, dövlət mövqeyindən kənar fikirlə yaşayırlar və s. Düzdür, bundan ötrü o vaxtlar bəzi adamları xırdaca cəzalandırdılar. Ancaq mən bilirəm ki, o adamların hamısı indi də fəaliyyətdədir, işləyir və ondan sonra da yaxşı fəaliyyətdə olmuşlar.

## “Mən belə şeyi edə bilmərəm”

Keçmiş iqtidarda olan yüksək vəzifəli şəxslərin antimilli mövqeyini, onların dövlətə və dövlətçiliyə vurduqları zərərin miqyasını, yersiz iddialarını Heydər Əliyev müxtəlif tədbirlərdə təkzibolunmaz faktlar və hadisələr əsasında ictimaiyyətə açıqlayırdı. Ulu öndər çıxışlarının birində bu barədə demişdir:

– Əbülfəz Elçibəy öz-özünə yıxıldı, aradan çıxıb qaçdı. (Yerdən səslər: Bizi qoydu qaçdı). Bəli, qoyub qaçdı. O qaçandan sonra mən Etibar Məmmədovu işə cəlb etmək istədim. Siz bunu bilirsiniz. Mən onu yanıma çağırıb təklif etdim ki, gəl, xarici işlər naziri işlə. Dedi yox, bu vəzifə mənim üçün azdır. Dedim onda dövlət katibi ol. Dedi yox, bu vəzifə də mənim üçün azdır. Yaxşı, onda gəl, səni baş nazirin birinci müavini qoyaq. Dedi yox, bu da mənim üçün azdır. Bəlkə Ali Sovetin sədrinin birinci müavini qoyaq? Yox, bu da mənim üçün azdır. Dedim, bəs sən nə istəyirsən? Deyir, siz gərək məni baş nazir vəzifəsinə qoyaydınız, amma bu vəzifəyə Surət Hüseynovu təyin etdiniz. Dedim... Baş nazir vəzifəsi artıq tutulub, amma ondan bir pillə aşağı olan bir neçə vəzifə təklif edirəm. (Yerdən səslər: Ona ancaq vəzifə lazımdır). Bir görün, mənə sonra nə deyir: Siz gəlin, xarici işlər naziri, iqtisadi əlaqələr naziri, dövlət katibi vəzifələrini birləşdirin, Dövlət Neft Şirkətini də buraya əlavə edin və bir vəzifə yaradın, onu da mənə verin. Bilirsiniz, mən ona baxdım və dedim ki, axı sən hələ bir yerdə bir ağac da əkməmisən, bir arxa su gətirməmisən, bir daşı bir daşın üstünə qoymamısan, bəs səndə bu qədər iddia haradandır? Ona dedim ki, mən belə şeyi edə bilmərəm. Amma bu vəzifələrdən hansını istəyirsənsə, gəl seç, götür. Məqsədim də sağlam məqsəd idi. Düşündüm ki, cavan adamdır, siyasətə qoşulub, gəlib bu vəzifələrdən birində işləsin, təcrübə toplasın. Bəlkə gələcəkdə bundan bir xadim çıxdı. Amma gördüm ki, yox, bu, allahlıq iddiasındadır. Çıxıb getdi.

*

Yaxud götürək İsa Qəmbərovu. O əyri yolla, düz yolla, Allah bilir, hansı yolla Ali Sovetin sədri oldu. Yaxşı, işləyə bilmədin, qardaş, çıxıb qaçdın. Keçən il iyun ayının 11-də özü istefa verdi ki, mən işləyə bilmirəm. Nə üçün? Çünki Azərbaycanı gətirib vətəndaş müharibəsi vəziyyətinə çıxartdılar. Düz bir il bundan qabaq, keçən ilin may ayında – iyunun əvvəllərində Azərbaycanda artıq vətəndaş müharibəsi başlanmışdı, qardaş qırğını gedirdi. Azərbaycan od tutub yanırdı, parçalanırdı. Bir tərəfdən Gəncədə bir dəstə, digər tərəfdən Lənkəranda bir dəstə, başqa tərəfdən, ayrı bölgələrdə dəstələr peyda olmuşdu. Azərbaycan dağılıb gedirdi.

Azərbaycanı bu şəraitə gətirib salanlardan biri olan İsa Qəmbərov üç saat mənim özümdən xahiş edib ki, gəlin, respublikanı bu vəziyyətdən çıxarın. Mən dedim ki, gələ bilmərəm, çünki siz Azərbaycanı çox pis vəziyyətə salmısınız. Əbülfəz Elçibəy üç-dörd gün mənimlə danışıqlar apardı. Onlar bir həftə çalışdılar ki, məni Naxçıvandan buraya gətirsinlər. Mən də gəlib onların düz üzünə dedim ki, siz Azərbaycanı dağıtmısınız. Özləri istefa verdilər. İsa Qəmbərov da, Pənah Hüseynov da istefa verdi. Pənah Hüseynov qaçıb aradan çıxdı, on bir aydır gizlənir, bilən yoxdur, haradadır. Biri deyir xaricdədir, biri deyir filan yerdədir. Əgər düz adamdırsa, niyə qaçıb aradan çıxır? Əbülfəz Elçibəy də buradan qaçdı, on bir aydır ki, Kələki kəndində oturub, orada hərdənbir danışıqlar aparır, camaatı çaşdırır. Yaxşı, əgər hakimiyyət sizdə idisə və siz də onu saxlaya bilmədinizsə, Azərbaycanı vətəndaş müharibəsi vəziyyətinə gətirib çıxardınızsa, ölkəni dağıtdınızsa, bəs indi nə istəyirsiniz?! Bu xalqdan nə istəyirsiniz? Niyə camaatı çaşdırmağa can atırsınız? Gedin yerinizdə sakitcə oturun, bəlkə cəzadan xilas oldunuz.

*

Tofiq Qasımov. Bunu gətirib xarici işlər naziri qoymuşdular. İndi orada-burada elə hey danışır. Başqa bir söz deyə bilmərəm. Onun bir dəfə belə normal danışdığını görmək olmaz. İndi gəlib atılıb meydana. Yaxşı, sən bir il xarici işlər naziri oldun, bu bir ildə Azərbaycanın xarici siyasətini qura bilmədin. Məhz sən xarici işlər naziri olan dövrdə ABŞ Konqresi Azərbaycan üçün humanitar yardıma embarqo qoydu. Sən heç nəyə nail ola bilmədin. Azərbaycanın bir sıra dövlətlərlə münasibətləri korlandı. İndi de görək, nə iş görmüsən? Heç bir iş görməmisən! Belə bir halda sən nə istəyirsən?

Rəhim Qazıyev Xalq Cəbhəsinin liderlərindən biri idi. Ancaq Rəhim Qazıyev bu Xalq Cəbhəsinə hansı niyyətlə girmişdi? Xalq ona inanmışdı. Amma o, xalqa nə qədər xəyanət etdi. Yaxşı, bu məlumdur. O, elə 20 Yanvar hadisəsində də xalqa xəyanət etdi. Şübhəsiz ki, onu həbs edib Moskvaya aparandan sonra ələ keçirdilər və bundan sonra o, xalqın əleyhinə işləməyə başladı. Nəhayət, 1993-cü ilin hadisələri bunu göstərdi. Mən bəlkə də o vaxt belə düşünə bilməzdim. Çünki həmin Rəhim Qazıyev mən Naxçıvanda olarkən iki-üç dəfə Naxçıvana gəldi. Hələ o, burada heç müdafiə naziri deyildi. Görüşdük, söhbət elədik. Mən ona hörmətlə yanaşırdım, çünki onu tanımırdım, içini bilmirdim. Amma hesab edirdim ki, o vaxtlar Yanvar hadisələrinə görə həbs olunub, həbsxanada yatıbdır, demək, xalq hərəkatının liderlərindən biridir. Mən ona belə münasibət göstərirdim... Ancaq sonra nə təhər oldu? Sonra tamamilə xalqa xəyanət etdi və xarici ölkələrin xüsusi xidmət orqanlarına qulluq etdi. Təsadüfi deyil ki, bizim orqanlar burada həbs edəndən sonra onu təcridxanadan çıxaranlar haraya apardılar? Apardılar, onu Moskvada gizlətdilər. O, təlimatlarını elə oradan almışdı, oraya xidmət edirdi.

*

O vaxtlar mənim barəmdə daim kriminal axtarırdılar. Bəzi qəzetlərdə də yazırdılar ki, Heydər Əliyev Bakıda işləyəndə Nemət Pənahov onun bağında bağban olub, ona görə onun göstərişi ilə bu işləri görür. Amma bunlar hamısı uydurma sözlərdir. Mən Nemət Pənahovu qətiyyən tanımırdım. Bir də ki, mən Azərbaycandan gedəndə Nemət Pənahov yaşına görə, yəqin ki, uşaq idi. Çünki mən Azərbaycandan 1982-ci ildə getmişdim. Bu hadisələr 1988-ci ildə başlamışdı, o vaxtlar deyirdilər onun 25 yaşı vardı. Qəzet belə yazırdı, bilmirəm neçə yaşı vardı, amma belə yazırdı.

**(ardı var)**

**Faiq SADIQOV,**
**Əməkdar jurnalist**

# Azərbaycanda “boz zona” qalmayacaq

(əvvəli 1-ci səhifədə)

Heç kimə sirr deyil ki, hazırkı mərhələdə qlobal, regional və milli təhlükəsizliyə təhdidlərin xarakteri kəskin şəkildə dəyişib. “Soyuq müharibə” dövründə əsas təhlükələr proqnozlaşdırıla bilən dövlətlərarası münaqişələr, qarşıdurma və iki hərbi-siyasi blokun silahlanma yarışı idi. Bununla belə, son 30 il ərzində qloballaşma şəraitində dünya keyfiyyətcə yeni, gözlənilməz olan və sarıdan boldur. Amma elə ərazilər də var ki, bir ölkənin digər ölkənin ərazisini işğal etməsi nəticəsində yaranır. Latın Amerikasındakı bədnam “boz zonalar” Kolumbiyadakı FARC üsyançı hərəkatları, Peruda Sendero Luminoso (“Parlaq Yol”) və Boliviyanın bəzi ərazilərində nəzarət edir. Belə olan halda, onların meydana çıxmasının səbəbi 60-cı illərdən bəri ölkə hökumətləri ilə sosialist müxalifəti arasında davam edən daimi vətəndaş müharibəsidir.

Məhz buna görə də beynəlxalq ictimaiyyətin çoxtərəfli fəaliyyəti sayəsində “boz zonalar”ın formalaşmasında və mövcudluğunda müəyyən edilmiş ümumi amillər onların bərabərləşdirilməsi zamanı nəzərə alınmalıdır. Əraziyə nəzarət hər bir dövlətin təbii ehtiyacıdır, çünki ərazi onun mövcudluğu üçün resurslar əldə etməyə imkan verir. Ən əsası, ərazi dövlətin suverenliyinin əsasını təşkil edir və onu digər siyasi təşkilatlardan fərqləndirir.



tamamilə bütün dövlətlərin vətəndaşları üçün potensial təhlükə yaradan transmilli təhlükələr fenomeni ilə üzləşib. Beynəlxalq terrorizm, narkotik istehsalı və ticarəti, qeyri-qanuni silah ticarəti və dəniz quldurluğu tamamilə transmilli təhlükələr hesab edilə bilər. Bu və ya digər şəkildə transmilli təhlükələrin həlli üçün alternativ yolların axtarışı hələ də gündəmdədir. Bununla belə, transmilli təhlükələrdən danışarkən biz çox vaxt onların mənbəyini və ya “boz zonalar” adlanan əraziləri unuduruq.

Bu anlayışın beynəlxalq hüquqda təsbit edilməməsinə baxmayaraq, “boz zona” dedikdə ayrı-ayrı dövlətlərin əraziləri, beynəlxalq hüquq normalarının və milli qanunvericilik normalarının tətbiq olunmadığı regionlar başa düşülməlidir. Bu ərazilərdə faktiki siyasi güc və tam hüquqlu sosial-iqtisadi əlaqələr yoxdur. Öz növbəsində, tez-tez vətəndaş müharibəsinə məruz qalan və ya separatçı birləşmələri və ya ekstremist rejimləri təmsil edən bu cür ərazilər beynəlxalq terror təşkilatlarının bazalarının və təlim düşərgələrinin yerləşməsi üçün hədəfə, narkokartellərin və dəniz quldurlarının fəaliyyət sahəsinə çevrilir. Əgər bu ərazilər əlverişli geosiyasi mövqeyə malikdirsə, bir neçə rayonun qovşağında yerləşirsə və nəqliyyat kommunikasiyalarına çıxışı varsa, o zaman “boz zonalar” çox vaxt narkotiklərin qanunsuz dövriyyəsi və qeyri-qanuni silah ticarəti üçün marşrut kimi çıxış edir.

Hazırda siyasi ekspertlər müasir beynəlxalq münasibətlərdə çox sayda “boz zonalar” arasında beynəlxalq ictimaiyyət üçün ən böyük təhlükə yaradan”boz zonalar”a diqqət yetirməyin vacibliyini önə çəkirlər. Bütöv bir dövlətin “boz zona”ya çevrilməsinin ən tipik nümunələrindən biri Somalidir. Məlumdur ki, vətəndaş nəticəsində Somali ayrı-ayrı klanlar tərəfindən idarə olunan “boz zonalar”a parçalanıb. Ölkədə vahid siyasi sistem və milli iqtisadiyyat yoxdur. Somali hazırda digər dövlətlərin vətəndaşlarının həyatı və təhlükəsizliyi üçün birbaşa təhlükəyə çevrilən piratlığın qalasıdır. Eyni sözləri Suriya, Əfqanıstan barədə də demək olar. Məlumdur ki, bu iki ölkədə dağıdıcı proseslərin inkişafı ssenarisi bir çox cəhətdən Somaliyə bənzəyir. Hər iki ölkə “boz zonalar”

Nəzərdən keçirilən "boz zonalar" nümunələrinə əsaslanaraq, onların əmələ gəlməsini və mövcudluğunu müəyyən edən bir neçə ümumi faktoru müəyyən etmək olar. Belə ki, “boz zonalar”ın yaranmasına müəyyən siyasi rejimlərdə və sosial-iqtisadi sistemlərdə baş verən dəyişikliklər, lakin alternativlərin yaradılmasının mümkünsüzlüyü səbəb olur. Sosialist yönümlü rejimlərin devrilməsinin alternativ idarəetmə formasının və ya sosial-iqtisadi münasibətlər sisteminin qurulmasına gətirib çıxarmadığı Somali və Əfqanıstan nümunələri buna aydın şəkildə nümayiş etdirir. Gördüyümüz kimi, nəticədə ölkələrdə vətəndaş qəbilələrarası müharibələr və anarxiya yarandı.

Digər tərəfdən, cəmiyyətdə ideoloji parçalanma (məsələn, Kolumbiya) və ya müəyyən ərazilərin separatizmi nəticəsində yaranan daimi vətəndaş müharibəsi “boz zonalar”ın yaranmasında amil kimi çıxış edə bilər. Eyni zamanda, “boz zonalar”ın yalnız tranzit yollarının kəsişməsində formalaşması və yerləşməsi ilə bağlı geosiyasi amilin rolu da nəzərə çarpır. Həmçinin əhali üçün alternativ gəlir mənbələrinin olmaması (Somali, Əfqanıstan) və ya siyasi məqsədlərə nail olmaq narkotik ticarəti, qeyri-qanuni silah ticarəti praktikasını müəyyənləşdirir.

Nəhayət, “boz zonalar”ın mövcudluğunda amil digər oyunçuların maraqlarıdır, onlardan strateji əhəmiyyətli regionlarda (ABŞ Mərkəzi Asiya və Cənubi Amerikada, Əl-Qaidə) geosiyasi təsirlərini gücləndirmək üçün səbəb kimi istifadə edilir. Belə zonalar Antarktidadan başqa bütün kontinentlərdə mövcuddur. Belə ərazilər Moldovada, Ukraynada, Gürcüstanda və digər ölkələrdə var. Azərbaycanın 20 faiz ərazisi də 30 il “boz zonalar”a hesab olunurdu. Ermənistanın işğalı nəticəsində bu gün bərpa etdiyimiz ərazilər cinayətkar əməliyyatların aparıldığı meydana çevrilmişdi.

Yuxarıda sadalananlardan belə nəticəyə gəlmək olur ki, “boz zonalar” bütün dövlətlərin milli təhlükəsizliyinə transmilli təhdidlərin yaranması və yayılması səbəbindən müasir dünya nizamında sabitliyi pozan ciddi amil kimi çıxış edir.

Bundan əlavə, ərazi dövlətin həm də “ideoloji bünövrəsi”dir. Əraziyə nəzarət ərazini və onun elementlərini (təbii, insan, sənaye, infrastruktur və maliyyə kapitalı) tam idarə etmək qabiliyyətidir ki, bu da onu vahid ərazi-siyasi sistem kimi təsvir etməyə imkan verir. Ancaq geosiyasi qarşıdurma və ya regional müharibə, habelə bir dövlətin digər dövlətin ərazisini işğal etməsi nəticəsində yuxarıda vurğuladımız vahid ərazi-siyasi sistemi pozulur və meydana nəzarətsiz ərazilər və ya qısa olaraq “boz zona”lar çıxır.

Qarabağın Ermənistan tərəfindən işğal altında saxladığı əraziləri Avropada “boz zona” sayılırdı. Uzun illər ermənilərin işğal altında saxladığı ərazilər nəzarətsiz qalmışdı və narkotik vasitələrin qanunsuz dövriyyəsi marşrutları oradan keçirdi. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan erməni işğalına son qoydu, lakin separatçı rejim ünsürlərinin və həmin rejimin əsarətində yaşayan erməni əsilli vətəndaşların yaşadıqları bəzi ərazilər hələ də qalır.

Əlbəttə, Azərbaycan öz ərazisində hər hansı bir “boz zona”nın olmasını qəbul etməyəcək. Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında vurğulamışdı. Ermənistanın və Xankəndidəki oyuncaq rejimin, eləcə də onların havadarlarının Laçın yolu ətrafında yaranmış vəziyyətdən sui-istifadə etməklə “boz zona”nın “ömrünü” uzatmağa çalışırlar. Amma Prezidentin köməkçi Hikmət Hacıyevin qeyd etdiyi kimi, bu kimi addımların heç bir mənası yoxdur. Dünən cənab Hacıyev X sosial şəbəkəsindəki profilində bir daha qeyd etdi ki, “boz zona”nın status-kvonunu saxlamaq, humanitar məsələlərdən qəsdən silah kimi istifadə etmək faydasız strategiyadır”. H.Hacıyev vurğulayıb ki, Azərbaycan beynəlxalq tərəfdaşlarını səylərini ikiqat artırmağa, Ermənistana və onun nəzarəti altında olan qanunsuz rejimə bu destruktiv siyasəti dayandırmaq üçün təzyiq göstərməyə çağırır.

**Səbuhi MƏMMƏDOV**
**XQ**

---

Köşə

# Günahsız qurbanlar, cəzasız qatillər

## *Söhbət qalıqları tapılmış itkinlərimizdən və Qarabağdakı silahlı quldurlardan gedir*

**Bu sətirləri qələmə alarkən, öncə mübarək qalıqlardan birinin qismətinə yazılmış xoşbəxtliyi yada salmaq istəyirəm. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının ötən ayın 18-də yaydığı “Aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi prosesində şəxsiyyəti müəyyən olunmuş I Qarabağ müharibəsində itkin düşmüş Azərbaycan vətəndaşları” adlı məlumatdakı doqquzuncu arayış diqqətimi daha çox cəlb etdi.**



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Orada yazılmışdı: “9. Kəlbəcər rayonunun Çıraq kəndi ərazisində aşkar edilmiş meyit qalıqları 01.06.1948-ci ildə Kəlbəcər rayonunun İstisu qəsəbəsində anadan olmuş, 02.04.1993-cü ildə həmin ərazidə itkin düşmüş İsayeva Sənəm Həsən qızına (mülki şəxs) məxsus olduğu müəyyən edilmişdir. 2023-cü ilin aprel ayında Kəlbəcər şəhər qəbiristanlığında dəfn olunmuşdur.” Bəxtə bax, ilahi! Bu, təkcə mübarəklik deyil, həm də məhz Kəlbəcərdə dəfn olunmaq xoşbəxtliyidir. O qalıqlar bir neçə il əvvəl tapılıb müəyyən edilsəydi, Sənəm xanım Kəlbəcərdən ayrı düşəcəkdi.

Kəlbəcərdən söz düşmüşkən, bu dağlar diyarından olan şair Ələmdar Cabbarlının şəhid həmyerlisi haqqında yazdığı şeirdəki fikirləri də yada salmaq yaxşı olardı: “Bu da qəzavü-qədərdi. Qəzan mübarək, Dilqəm! Gülə-gülə ölümə getdin – şəhadətin mübarək, Dilqəm!”

Bir neçə gün əvvəl Dövlət televiziyasında Füzuli köçkünlərinin öz ata-baba yurdlarına qayıtmasından bəhs edən reportaj verilirdi. Yurda qayıdan insanların sevinci, məmnunluğu da özgə aləm idi, həmin mərasimə şahidlik edənlərin keçirdiyi hisslər də.

Ancaq ertəsi gün Füzulidə yüzlərlə insanın çoxsaylı Azərbaycan bayraqları və möhtəşəm əklillərlə toplandığı başqa bir tədbir keçirilirdi. Ürəklərin riqqətə gəlməməsi mümkün deyildi.

Həmin gün otuz il əvvəl Füzuli rayonu uğrunda gedən döyüşlərdə itkin düşən şəhid Hüseynov Əli Heydər oğlunun Edilli kəndində kütləvi məzarlıqda aşkarlanan nəşinin qalıqları Füzulinin Yağlıvənd kəndində torpağa tapşırılırdı. Biz xalqımızın şəhid ruhuna olan ehtiramını çox görmüşdük. Otuz ildən sonra öz doğulduğu yerdə dəfn olunan itkin soydaşımızın yurda “qayıdışı” isə daha möhtəşəm olurmuş. Elə bu sətirlərin qələmə alınmasının əsas səbəbi də həmin izdihamın arasında dalğalanan Azərbaycan bayraqları oldu. Fəxr edim ki, dövlət də, xalq da hər bir fərdimizin – şəhid, qaçqın, köşkün, itkin, hansısa təbii fəlakət zamanı zərərdidə olmuş hər kəsin yanındadır.

Yeri gəlmişkən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində, Birinci Qarabağ müharibəsində 3890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri qocadır.

“Qarabağ İtkin Ailələri” İctimai Birliyinin bu il avqustun 3-də Birləşmiş Millətlər Təşkilatına ünvanladığı müraciətdə qeyd edilir ki, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin ümumi sayından 872 nəfərin, o cümlədən 29 uşaq, 98 qadın və 112 qocanın əsir-girov götürülməsi və ya işğal edilmiş ərazilərdə qalması şahid ifadələri ilə təsdiq edilib. Bir sıra hallarda isə insanlar ailə üzvləri və yaxınları ilə birlikdə itkin düşüb, bütöv ailələr və nəsillər məhv edilib. Apardığımız araşdırmalar təsdiq edir ki, I Qarabağ müharibəsində 61 ailənin 2-dən 7-dək üzvü itkin düşüb, heç birinin aqibəti bilinmir. Bu hal yalnız azərbaycanlı itkinlərin ailələrinə deyil, bütün insanlığa hörmətsizlikdir.

O ki qaldı, Ermənistan ordusunun hələ də ölkəmizin ərazisində qalan idbar, murdar, çirkin, quldur tör-töküntülərinə, zaman sübut edir ki, onların da gorbagor olacağı gün uzaqda deyil. Azərbaycan Prezidentinin siyasi qətiyyəti, diplomatik məharəti və beynəlxalq aləmdəki nüfuzu qarşıya qoyduğumuz bütün vəzifələrin yüksək səviyyədə reallaşdırılmasını təmin etmişdir. Qalır indi Xankəndidə Azərbaycan Bayrağının qaldırılması. Regionda gedən proseslər sübut edir ki, biz tezliklə Xankəndi üzərində üçrəngli bayrağımızın dalğalanmasının şahidinə çevriləcəyik.

Həm BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalt təkilatların qərar və qətnamələrinə, həm də Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının 2020-cil noyabrında imzaladıqları üçtərəfli Bəyanatın müddəalarına qarşı hörmətsizlik edən Hayastan indi artıq bizim addımlarımız qarşısında duruş gətirə bilmir. Yekə-yekə bəyanatlar verən, Azərbaycanı revanşla təhdid edən Ermənistan rəhbəri son günlər hamıya car çəkir ki, mən Prezident İlham Əliyevlə dərhal danışıqlara başlamağa hazıram. Anlamır ki, hansısa danışığa ehtiyacı olan biz deyilik, rəsmi İrəvandır. Biz danışmaq istəmirik, tələb edirik ki, Ermənistan ordusunun Qarabağdakı tör-töküntüləri ərazilərimizdən rədd olub getsinlər. Ondan sonra sülh barədə danışarıq.

Yeri gəlmişkən, onlar son zamanlar gah Ağdamı, gah Kəlbəcəri, gah da Şuşanı atəşə tuturlar. Həmin ərazilər üzərindən keçən təyyarələr üçün manea yaradılır və təyyarənin istiqamətləndirilməsi üçün süni peyklərlə əlaqə yaratmasına əngəl törədirlər. Bu isə “dəmir yumruğ”un işə düşməsini tələb edir. Politoloq Qabil Hüseynlinin dediyi kimi, onların “Artsax” dedikləri ərazidə 18 000 sakin yaşayır. Bu qədər insanın içindən 12 ninlik qoşun yaratmaq qətiyyən ağlabatan deyil: “Bunlar hamısı Ermənistan silahlı qüvvələrinin tərkib hissələridir. Nə qədər ki, onları ərazimizdən çıxarmamışıq, başımız çox ağrıyacaq. Həmçinin ciddi problemlərimiz olacaq”.

Elə dövlət başçımız da Ermənistan rəhbərliyindən tələb edir ki, həmin tör-töküntülərin fəaliyyətinə son qoyulması üçün tezliklə qərar qəbul etsinlər. Geciksələr, biz qərar qəbul etməli olacağıq. Onda isə dövlət başçımızın qətiyyətli ilə üzləşəcəklər: “Müharibə arxada qaldı. Müharibə bizim gücümüzü göstərdi, əyilməz iradəmizi göstərdi, birliyimizi göstərdi, müharibə rəmzinə, qələbə rəmzinə çevrilən “dəmir yumruq” öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq”.

---

# Ermənisayağı “ağıldan bəla”

## *Xankəndi xuntasının məqsədi “qaşınmayan yerdən qan çıxarmaq”dır*

**Aleksandr Qriboyedov ağıldan bəla çəkənlərə belə eyham vurmuşdu ki, “bir komediyalıq” adam ümumilikdə mövcud cəmiyyətin əhval-ruhiyyəsini göstərmək üçün kifayətdir. Rəhmətlik akademik Məmməd Cəfər isə yazırdı: Həmin komediyaya baxan və ya kitabdan oxuyan istənilən adam hiss edir ki, bu cəmiyyət çürüyür və narazılıqlar üsyanı yaxınlaşdırır.**

Bu gün Xankəndidə mövcud olan cəmiyyət, eynilə, bax elədir. “Qlavar”ın dəyişdirilməsi ilə cəmiyyətin mahiyyəti dəyişmir. Çünki həmin “dövlət” ( Allah ətinizi töksün! – İ.M.) qonşudan oğurlanmış torpaq, kənar ölkələrdən çırpışdırılmış ssenari, imperialist ölkələrin “Qorxma, qorxma!”-sı əsasında düşünülmüş nəmərdlik, antitürk və anti-Azərbaycan əhval-ruhiyyəsi siyasi dairələrin məkrli xeyir-duası əsasında yaradıldığına görə məhvə məhkumdur. Artıq bunu özləri də yaxşı bilirlər. Elə olmasaydı, “xaç ataları” Nikol Paşinyan vurnuxmaya düşməz, “Mən dərhal İlham Əliyevlə danışıqlara hazıram!” – qərarını görüşdüyü istənilən adama eşitdirməzdi.

Nikol Paşinyanın həmin təlaşlı, həyəcanlı bəyanatlarını eşidəndə cənab dövlət başçımızın 44 günlük müharibə zamanı səsləndirdiyi “Bəs nə oldu, Paşinyan?”– sorğusu yada düşür. Bəli, bəs nə oldu?

Azərbaycan danışıqlar və reinteqrasiya təklif etdi, dəvətlər, təşəbbüslər oldu – xunta razılaşmadı. Rəsmi Bakı bütün kommunikasiyaların açılmasını təklif etdi, Xankəndiyə əlavə yollar, istənilən yük daşımalarını təklif etdi – xunta razılaşmadı, Aclıqdan qırılırıq, – dedilər. Azərbaycan ərzaq yardımı göndərdi, qəbul etmədilər. Mühasirədə qalmışıq, – dedilər İrəvandan və Parisdən gələn humanitar yardımları qəbul etmədilər, öz hikkələrini davam etdirdilər.

“Blokada və soyqırımı”ndan danışsalar da, nə yolun işləməsinə imkan verirlər, nə də Azərbaycanın göndərdiyi yükləri istəyirlər. Bəs onda nə istəyirlər? Heç nə! Sadəcə, “ağıldan bəla”nın fəsadlarını yaşayırlar.

Məhz “ağıldan bəla”nın əlamətidir ki, Azərbaycanın səbr kasasını daşdırmağa çalışırlar. Belə ki, hazırda bu ərazidə təhlükəli hərəkətlilik var – qanunsuz hərbi birləşmələr – minalanma, səngər qazıntıları, mühəndis işləri aparılır. Bunlar isə bir daha təsdiqləyir ki, yaxın vaxtlarda “qaşınmayan yerdən” qan çıxa bilər. Mən bu ifadəni sözgəlişi demirəm. Ermənistan ordusuna diz çökdürən Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı onlara xatırladıb ki, bir səhər durub başınızın üstündə Azərbaycan Bayrağının dalğalandığını görə bilərsiniz.

BMT başda olmaqla, bütün beynəlxalq təşkilatlar və aparıcı dövlətlər Cənubi Qafqaza sülh gətirilməsi üçün çoxsaylı çağırışlar edirlər. Çünki bu sülh təkcə region ölkələrinə deyil, Avrasiyadakı ölkələrin hamısına lazımdır. Axı söhbət Şanxay – London iqtisadi layihəsinin mühüm tərkib hissəsi olan Zəngəzur dəhlizinin açılmasından gedir. Bunun üçünsə mütləq sülh lazımdır. İndi Anadolu türkləri demişkən, “bir sürü erməni quldurу” bütün dünyanın çağırışlarına qarşı nə qədər davam gətirə bilər? Mən bilən, daha davam gətirə bilməyəcəklər. Gedən proseslər və səsləndirilən çağırışlar sübut edir ki, Qarabağdakı xuntanın son günlərini yaşadığını deyən ekspertlər tamamilə haqlıdırlar.

... Bütün bunlardan sonra bir daha rus ədibin məlum komediyasına qayıdırıq. Sanki həm Qriboyedov, həm də Məmməd Cəfər bu gün Xankəndidə mövcud olan xunta rejiminin daxili aləmini açıb göstərmək istəyirdilər. Bəli, dünya erməniliyinin Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaratdığı “Dağlıq Qarabağ” adlı dövlət içərisində çürüyür, iylənir, ətrafdakılarda ürəkbulanması yaradır. Nə yaxşı ki, aralarında normal düşünə bilən kimsə yoxdur. Ağıllı liderin olmadığı yerdə isə kənardan gələn dəstəklərin hamısı – maddi vəsait də, silah-sursat da, maşın-texnika da tamamilə səmərəsiz olur. Odur ki, biz tezliklə yeni hadisələrin, ədalətli qərarların şahidinə çevriləcəyik.

**İ.QAÇAYEV**
**XQ**

---

# General Baqeri: İran sərhədə hərbi qüvvə toplamır

**Sentyabrın 13-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovla İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeri arasında telefon danışığı olub.**



Müdafiə Nazirliyindən XQ-yə verilən məlumata görə, tərəflər regiondakı vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

General-leytenant M.H.Baqeri, öz növbəsində bəzi qüvvələrin ölkələrimiz arasında mövcud olan dostluq və mehriban qonşuluq münasibətlərinə xələl gətirmək məqsədilə guya İranın Azərbaycanla sərhədə canlı qüvvə və hərbi texnika toplaması, müxtəlif təlimlər həyata keçirməsi ilə bağlı yaydıqları yalan məlumatların heç bir real əsası olmadığını vurğulayıb.

Telefon danışığı zamanı, həmçinin ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri də müzakirə olunub.

**XQ**

# İsraillə iqtisadi-ticari əməkdaşlığın yeni mərhələsi

## Azərbaycan "LARGIX" layihəsinə 1 milyon dollar investisiya yatırıb



(əvvəli 1-ci səhifədə)

İsrailin ölkəmizdə investisiya, ərzaq təhlükəsizliyi, su və kənd təsərrüfatı sistemləri ilə bağlı elmi-tədqiqat üzrə əməkdaşlığı, habelə məhsullarımızın bu ölkəyə ixracının artırılması istiqamətlərində həyata keçirdiyi layihələr bunun bariz ifadəsidir.

Aqrar sahədə əməkdaşlıq, kənd təsərrüfatında ticarət dövriyyəsinin artırılması, heyvandarlıq və toxumçuluq sahələrində ən müasir texnologiyaların transferi, aqrar tədqiqatlar və təcrübə proqramları sahələrində əməkdaşlığın genişləndirilməsi, həmçinin suvarma sahəsində İsrail təcrübəsi kimi məsələlərə respublikamızda böyük maraq var. Məhz elə buna görədir ki, Azərbaycan Respublikası Kənd Təsərrüfatı və İsrail Dövlətinin Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı nazirlikləri arasında "Kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Niyyət Bəyannaməsi", eləcə də "2023-2025-ci illər üçün kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Yol Xəritəsi" imzalanması da məhz həmin maraqdan irəli gəlir. Xatırladaq ki, adıçəkilən bəyannamədə fəaliyyətlərin səmərəli şəkildə həyata keçirilməsini gerçəkləşdirmək məqsədilə birgə işçi qrupunun yaradılması nəzərdə tutulur.

Ümumiyyətlə, İsrail Dövləti müstəqilliyimizi tanıdığı 1991-ci il dekabrın 25-dən sonra Azərbaycan ilə bu ölkə arasında münasibətlər həmişə müsbət istiqamətdə inkişaf edib. Amma son bir neçə ildə münasibətlərdə xüsusi dinamika müşahidə olunub, əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı səfərlərin çoxalması, ticarət dövriyyəsinin və investisiyaların artması, qarşılıqlı fəaliyyət üçün yeni sənaye sahələrinin müəyyənləşdirilməsi daha çox diqqət çəkib. Ölkəmiz həm İkinci Qarabağ müharibəsi zamanı, həm də sonrakı mərhələdə – işğaldan azad edilən ərazilərin bərpası dövründə bu diqqət və dəstəyi daim hiss edib.

İki dost ölkə arasında əməkdaşlığın dinamik inkişafı hazırda ticari-iqtisadi



əlaqələrdə daha çox müşahidə olunur. Belə ki, 2021-ci və 2022-ci illərdə iki ölkə arasındakı ticarət dövriyyəsi 85 faiz artaraq 1 milyard 718 milyon dollara çatıb, cari ilin yanvar–aprel aylarında isə ticarət dövriyyəsi yarım milyard ABŞ dollarını ötüb. Bu isə ötən ilin analoji dövrü ilə müqayisədə 33,5 faiz artım deməkdir.

İnvestisiyalar sahəsində də artım göz önündədir. Buna səbəb isə 2022-ci ilin iyulunda Azərbaycan İnvestisiya Şirkəti ilə İsrailin aparıcı qlobal kraudfanding (kütləvi maliyyələşdirmə) platforması olan "OurCrowd" şirkəti arasında investisiya sazişinin imzalanmasıdır. Yeri gəlmişkən, cari ilin fevralında Azərbaycanın İqtisadiyyat Nazirliyi ölkəmiz tərəfindən sənaye məhsullarının hazırlanması üzrə ixtisaslaşan İsrailin "LARGIX" startapına 1 milyon ABŞ dolları dəyərində investisiya yatırıb.

Səmərəli əməkdaşlığın bütün bu uğurlu göstəriciləri qarşılıqlı fəaliyyətin gələcəkdə də davamlı olduğunda xəbər verir. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyir: "Həyata keçiriləcəyini planlaşdırdığımız birgə layihələr nəticəsində bizim daha balanslaşdırılmış ticarət dövriyyəmiz olacaq və o, təkcə enerji amilindən asılı olmayacaq. Buna baxmayaraq, uzun illərdir ki, Azərbaycan İsrailə xam neftin etibarlı təchizatçısı olmaqda davam edir və bu da əslində enerji sahəsində sıx əməkdaşlığı nümayiş etdirir".

Azərbaycan–İsrail əməkdaşlığının əsas istiqamətləri sırasında enerji, ticarət, infrastruktur və yüksək texnologiyalarla əlaqədar layihələr xüsusi yer tutur. Respublikamız İsrailin əsas neft tədarükçüsüdür. 2020-ci və 2021-ci illərdə Azərbaycan neftinin İsrailə tədarükdə payı təqribən 30 faiz, keçən il isə təxminən 40 faiz təşkil edib.

Bir məqamda qeyd edək ki, Azərbaycan İsrailin enerji təhlükəsizliyində mühüm rol oynayır. İsrailin neft idxalının 40 faizə yaxın hissəsini respublikamız təmin edir. Bundan əlavə İsrailin Aralıq dənizi sahillərində böyük qaz rezervi–Leviathan və Tamar yataqları kəşf olunub. Azərbaycanın Dövlət Neft Şirkəti (SOCAR) İsrailin Aşdod neft yatağı bölgəsindən 5 faiz pay alıb. Bir sözlə, indiyədək turizm, enerji, kənd təsərrüfatı, tibb, kibertəhlükəsizlik sahələrində sıx əməkdaşlıq yüksək nəticələrlə müşhidə olunub.

*Vaqif BAYRAMOV*
*XQ*

### Ekspert rəyi



**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**

Azərbaycan–İsrail əlaqələri müxtəlif sahələrdə dinamik inkişaf edir. Bu dövlətlər arasında ticarət dövriyyəsi getdikcə genişlənir, qeyri-neft məhsullarının payı yüksəlir. Bundan başqa, investisiya, innovasiya, informasiya, kənd təsərrüfatı, ekologiya, qida, su, enerji texnologiyaları, əczaçılıq və biotexnologiya, ərzaq təhlükəsizliyi, kibertəhlükəsizlik, turizm, kiçik və orta sahibkarlıq kimi sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər mövcuddur.

İki ölkə arasında qarşıdakı illər üçün əsas məqsədlərdən biri işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması və onların dəyər zəncirlərinə inteqrasiyasıdır. Bu ərazilərin geniş kənd təsərrüfatı potensialı var və azad olunmuş torpaqlar Yaşıl Enerji Zonaları kimi tanınır. Düşməndən təmizlənən bu torpaqlarda kənd və şəhərlərin inkişafı "Ağıllı şəhər" və Ağıllı kənd" konsepsiyasına əsaslanır. Bunu nəzərə alaraq, İsrail şirkətləri tərəfindən ən yaxşı texnologiya və təcrübələr Azərbaycan şirkətləri ilə bölüşülərək tətbiq olunur.

Hər iki ölkənin informasiya texnologiyaları və kibertəhlükəsizlik sahəsində qarşılıqlı əməkdaşlıq imkanları da getdikcə genişlənir. Bu sahəsə dost dövlətin "Israil Export Institute" şirkəti önəmli rol oynayır. Kibertəhlükəsizliyin təmin olunmasının hər iki ölkə üçün aktuallığı nəzərə alınaraq, bu istiqamətdə davamlı görüşlər və qarşılıqlı səfərlər reallaşdırılır. Gələcəkdə tərəflər arasında birgə işlərin görülməsi üçün danışıqlar aparılır.

Azərbaycanda kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsi və potensialının artırılmasına dəstək verilməsi məqsədilə ötən il təsis edilən AKTA özündə informasiya texnologiyaları və kibertəhlükəsizlik üzrə ixtisaslaşmış şirkət və təşkilatları birləşdirir.

Azərbaycan–İsrail əlaqələrindən danışarkən müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlığı da qeyd etmək yerinə düşər. Respublikamızın uzun illərdir ki, bu sahədə İsrailin müasir avadanlığına çıxışı var, bu da ölkəmizin müdafiə qabiliyyətinin müasirləşdirilməsini, möhkəmləndirilməsini şərtləndirir. Başqa sözlə, İsrailin müdafiə sənayesindən bəhrələnmək dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır.

Aqrar sahədə İsrail təcrübəsinin tətbiqindən danışarkən mühüm bir məqama da toxunmaq istərdik. Prezident İlham Əliyev tərəfindən təşviq olunan aqroparklar İsrailin "Kibbutz" kollektiv istehsal qurumuna çox bənzəyir. Bu strukturun fəaliyyətində keçmiş kolxozlara oxşar cəhətlər özünü qabarıq büruzə verir və kooperativ formasında təşkil olunur. Aqroparklarda da eyni sahəyə aid müxtəlif təsərrüfatların birləşməsi və onların ən müasir texnikalar ilə təchiz edilməsi həm məhsuldarlığın yüksəlməsinə, həm yeni iş yerlərinin yaranmasına, həm də daxili bazarda yerli şirkətlərin rəqabət gücünün artmasına gətirib çıxarır.

Beləliklə, aqroparkların yaradılması və fəaliyyəti ərzaq təhlükəsizliyinə mühüm töhfə verir. Bu, eyni zamanda işsizliyin azaldılmasını, yerli istehsalın inkişafını və ixrac imkanlarının genişlənməsini şərtləndirir. Ən başlıcası isə aqroparklarda yetişdirilən məhsullar ixracyönümlü olması ilə diqqət çəkir.

Xatırladaq ki, İsrail torpaqları və hava şəraiti bizdən fərqli olaraq əkinçilik üçün yararlı ərazilər deyil. 80 faiz sərhalıqdan ibarət olan bu ölkədə yalnız qış aylarında yağış yağır. İsrail su qıtlığı yaşayır. Bununla belə, kənd təsərrüfatı sahəsində tətbiq etdiyi yeni texnologiyalar sayəsində dövlət öz əhalisinin ərzaq ehtiyaclarını qarşılamaqla qalmır, istehsal etdiyi məhsulların 90 faizini ixraca yönəldir. Prezident İlham Əliyev də aqroparklar haqqında danışarkən "burada yetişdiriləcək məhsullar ixracyönümlü məhsullardır" deyərkən məhz İsrail təcrübəsinin tətbiqini nəzərdə tutur.

## Cəbrayılın Soltanlı kəndini Macarıstan bərpa edəcək

**Macarıstanın beynəlxalq əlaqələr üzrə dövlət katibi Zoltan Kovacs özünün sosial media hesabında Türk Dövlətləri Təşkilatının müşahidəçi üzvü olan ölkəsinin Ermənistanın işğalından azad olunan Azərbaycan torpaqlarında tikinti-quruculuq işlərinə başlayacağı barədə paylaşım edib.**



Z.Kovacs bildirib ki, 2024-cü ildə Macarıstan Qarabağ bölgəsinin yenidən qurulmasında iştirak edəcək. Bu iş üçün ölkəsinin tikinti şirkətlərindən ibarət konsorsium yaradılan və həmin qurum Cəbrayıl rayonunun Soltanlı kəndinin yenidən qurulmasında iştirak edəcək. Macar rəsmisi əlavə edib ki, Azərbaycan hökuməti bununla bağlı planları təsdiq edib və bəzi müqavilələr də artıq imzalanıb.

Paylaşımda o da qeyd edilir ki, sözügedən məsələ Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun Macarıstana səfəri zamanı vurğulanıb.

## Gömrük daxilolmaları 10 faiz artıb

**Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə cari ilin yanvar–iyul aylarında büdcə daxilolmaları 4 milyard 159,4 milyon manat təşkil edib. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 10,4 faiz çoxdur.**

Son 1 ildə gömrük rüsumları üzrə daxilolmalar 18 faiz artaraq 1 milyard 69 milyon manat, əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 7,4 faiz artaraq 2 milyard 913 milyon manat, aksizlər üzrə daxilolmalar 38,8 faiz artaraq 148 milyon manat olub.

*XQ*

# Ölkəmiz Avropanın qaz bazarında mövqeyini möhkəmləndirir

## İlin əvvəlindən "köhnə qitə"yə 7,6 milyard kubmetr "mavi yanacaq" nəql edilib



(əvvəli 1-ci səhifədə)

Bütövlükdə isə, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 2023-cü il sentyabrın 1-dək hasilatın pay bölgüsü sazişləri çərçivəsində Azərbaycanda 412,3 milyard kubmetr "mavi yanacaq" hasil edilib. Ümumi hasilatın 212 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun, 200,3 milyard kubmetri isə "Şahdəniz" yatağının payına düşüb.

Ötən müddətdə "Şahdəniz" yatağından hasil edilən qazın 141,5 milyard kubmetrə yaxını ixraca nəql edilib. "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan neftlə bərabər çıxarılan səmt qazı isə, "Əsrin müqaviləsi"-nin şərtlərinə uyğun olaraq, texniki məqsədlər üçün konsorsium iştirakçılarına, eləcə də daxili tələbatın ödənilməsi üçün Azərbaycanın qazpaylama şəbəkəsinə təhvil verilib.

Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın bildirdiyinə görə, cari ilin son üç ayının rəsmi statistikasını təhlil edərkən belə bir nəticəyə gəlmək olur ki, 8 ayda ölkə üzrə çıxarılmış ümumi qazın 24 milyard kubmetrdən çoxunu əmtəəlik qaz həcmləri təşkil edib. Onun fikrincə, qaz istehsalının artmasına bu il iyulun 10-da "Abşeron" yatağından hasilatın başlanması da təsir göstərib.

Bununla belə, ekspert hesab edir ki, "Şahdəniz" yatağı Azərbaycanın əsas qaz tədarükü mənbəyi olaraq qalır. Belə ki, bu yataqdan çıxarılan "mavi yanacaq" hazırda ölkənin ümumi əmtəəlik qaz hasilatının 73 faizini təşkil edir. Xatırladaq ki, beş il əvvəl "Şahdəniz" yatağının ikinci mərhələsi çərçivəsində hasilata başlananda Azərbaycanda əmtəəlik qaz hasilatının gündəlik həcmi cəmi 53 milyon kubmetr təşkil edib.

Müqayisə üçün bildirək ki, 2005-ci ildə ölkəmizdə cəmi 10 milyard 418, 4 milyon kubmetr "mavi yanacaq" istehsal olunub. Bunun da 3 milyard 930, 6 milyon kubmetri Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR), 6 milyard 487,8 milyard kubmetri isə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Çıraq" və "Azəri" yataqlarından neftlə bərabər çıxarılan səmt qazının payına düşüb.

2006-cı ilin dekabr ayında "Şahdəniz-1" platformasının istismara verilməsi ilə ölkədə qaz hasilatı kəskin artaraq 22 milyard 962 milyon kubmetrə çatıb. Həmin il ölkə üzrə çıxarılan ümumi qazın 5 milyard 997,6 milyon kubmetri SOCAR-ın, 16 milyard 964,4 milyon kubmetri beynəlxalq konsorsiumun payına düşüb. 2022-ci ildə isə Azərbaycanda 46 milyard 743,3 milyon kubmetr qaz hasil edilib ki, bunun da 34 milyard 958,3 milyon kubmetri əmtəəlik qaz olub.

Yeri gəlmişkən, Avropanın özünün enerji təhlükəsizliyini qorumaq üçün Azərbaycan qazına daha çox ümid bəslədiyi indiki şəraitdə hasilatın həcmini artırmağa ehtiyac duyulur. Bunu nəzərə alan Azərbaycan hökuməti 2023-cü ildə ölkədə əmtəəlik qaz hasilatını 35 milyard 900,3 milyon kubmetr həcmində proqnozlaşdırır.

Ölkəmizin isə kifayət qədər qaz ehtiyatları var. Belə ki, Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr həcmində qiymətləndirilir. Amma mütəxəssislər mövcud ehtiyatların daha çox olması qənaətindədirlər. Bu da təsadüfi deyil. Məlum olduğu kimi, geoloqlarımız Xəzər dənizinin Azərbaycan sektorunda illər öncə "Araz", "Alov", "Şərq", "Əşrəfi", "Dan Ulduzu", "Babək", "Naxçıvan", "Şəfəq-Asiman", "Qarabağ", "Dostluq", "Zəfər-Məşəl" və digər perspektivli strukturlar aşkar ediblər.

Həmin sahələrdə də kifayət qədər neft və qaz ehtiyatlarının olması güman edilir. Bu məqsədlə yaxın zamanlarda Azərbaycanın qaz ehtiyatlarının yenidən qiymətləndirilməsi planlaşdırılır. Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadənin bildirdiyinə görə, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Ümid", "Babək", "Abşeron", "Naxçıvan" və "Şəfəq-Asiman" yataqlarının potensialı bir daha nəzərdən keçirilərək yenidən texniki qiymətləndirmə aparılacaq.

Eyni zamanda Xəzər dənizində yerləşən "Dostluq" yatağının da karbohidrogen ehtiyatları ilə zəngin olması artıq təsdiqini tapıb. Belə ki, adıçəkilən yatağın neft və təbii qaz ehtiyatları müvafiq olaraq təqribən 60 milyon ton və 100 milyard kubmetr həcmində dəyərləndirilir. Xatırladaq ki, 2021-ci il yanvarın 21-də Azərbaycan və Türkmənistan hökumətləri arasında "Dostluq" yatağının karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalanıb. Yatağın işlənməyə cəlb edilməsi isə hər iki ölkənin neft-qaz sənayesinə böyük perspektivlər vəd edir.

Bütövlükdə isə, 1990-2000-ci illərdə Xəzərin Azərbaycan sektorunda aparılmış kəşfiyyat-qazma işləri nəticəsində bir sıra sahələr aşkarlanıb. Bəzi perspektiv sahələrdə əvvəlki illərdə aparılmış kəşfiyyat işləri lazımi nəticə verməsə də, sonralar həmin ərazilərdə yeni quyuların qazılmasına zərurət yaranıb.

Neft-qaz üzrə ekspert İlham Şabanın dediyinə görə, ötən müddətdə yeni texnologiyalar yaradılması, bu sahədə ciddi texnoloji inkişafın baş verməsi karbohidrogen ehtiyatlarının dəqiqləşdirilməsinə imkan yaradıb. Onun fikrincə, geoloqlarımızın vaxtilə aşkara çıxardıqları strukturların hər biri ümidverici sayıla bilər.

Ekspert əlavə etdi ki, Heydər Əliyev adına qazma qurğusu öz unikallığına, texniki və texnoloji imkanlarına görə 30 il əvvəl mövcud olmuş qazma qurğularını qat-qat üstələyir. Belə ki, əvvəlki qurğuların köməyi ilə dənizdə 7 min metr dərinliyində quyular qazmaq mümkün idisə, Heydər Əliyev adına qazma qurğusu 9 min metrə qədər dərinlikdə qazma işləri apara bilir. Bu da yaxın illərdə Xəzərin Azərbaycan sektorunda yerləşən bütün perspektivli sahələrin potensialını dəqiq öyrənməyə imkan yaradacaq.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Pakistan jurnalistləri Mətbuat Şurasında



**Dünən Azərbaycan Mətbuat Şurasında Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının dəvəti ilə ölkəmizdə səfərdə olan bir qrup pakistanlı idman jurnalisti ilə görüş keçirilib.**

AMŞ sədri Rəşad Məcid Pakistanın İdman Yazarları Federasiyasını təmsil edən qonaqları salamlayaraq rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri barədə məlumat verib. Qurumun beynəlxalq əlaqələrindən söz açan MŞ sədri bu təmasların əsasən xarici media oraqanlarının qabaqcıl təcrübəsinin mənimsənilməsinə, o cümlədən, söz və ifadə azadlığı ilə bağlı tendensiyaların öyrənilməsinə yönəldiyini deyib.

AMŞ İdarə Heyətinin üzvləri Azər Həsrət və Hacıbəy Heydərli medianın beynəlxalq əlaqələrdəki rolundan, ölkəmizdə sosial medianın durumundan, MŞ-nin icraçı katibi Əvəz Rüstəmov şikayətlərin araşdırılması prosedurundan, Şuranın Ahıl Jurnalistlər Məclisinin sədr müavini Əminə Yusifqızı yaşlı jurnalist nəslin təcrübəsinin önəmindən söz açıblar. Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti Eldar İsmayılov rəhbərlik etdiyi qurumun idman sahəsindəki beynəlxalq media təşkilatları ilə əlaqələri haqqında da məlumat verib.

Görüşdə Pakistanın idman jurnalistlərinin Azərbaycan mediası ilə bağlı sualları da cavablandırılıb.

XQ

# Arif Məlikov yad edildi



**Dünən görkəmli bəstəkar Arif Məlikovun anadan olmasının 90-cı ildönümü tamam olub. Bu münasibətlə tanınmış mədəniyyət və incəsənət xadimləri, Mədəniyyət Nazirliyinin məsul əməkdaşları, sənətkarın ailə üzvləri və digər qonaqlar Birinci Fəxri xiyabanda sənətkarın məzarını ziyarət edib, üzərinə tər çiçəklər düzüblər.**

Anım mərasimində çıxış edən mədəniyyət naziri Adil Kərimli, Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə, Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli Arif Məlikovun bənzərsiz yaradıcılığı ilə adını əbədi olaraq musiqi mədəniyyəti tariximizə yazdırdığını vurğulayıblar.

XQ

# Müdafiə Nazirliyinin məlumatı



### Hava Hücumundan Müdafiə bölmələrində döyüş atışları icra olunub

Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə bölmələrində sutkaboyu fasiləsiz olaraq xidmət aparılır, hava məkanımız daima izlənilir və müvafiq tədbirlər görülür.

2023-cü ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə bölmələrində döyüş atışları icra edilib.

Atış çalışmalarında döyüş heyətləri tərəfindən "İldırım 8-ER" ZRK-nın start mövqeyinə çıxarılması və döyüş tətbiqinə hazırlanması, eləcə də şərti düşmən tərəfindən atılan ballistik raketin aşkar olunaraq məhv edilməsi üzrə tapşırıqlar uğurla yerinə yetirilib.

### Mövqelərimiz intensiv atəşə tutulub

Sentyabrın 13-də saat 12:20 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Ordumuzun Ağdam rayonu istiqamətindəki döyüş mövqeləri intensiv atəşə tutulub.

Müdafiə Nazirliyindən bildiriblər ki, bölmələrimiz tərəfindən zəruri tədbirlər görülüb.

### Kəlbəcər istiqamətində təxribatın qarşısı alınıb

Dünən saat 19:00 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin kəşfiyyat-diversiya qrupu terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Ordumuzun Kəlbəcər rayonu Mərcimək yaşayış məntəqəsi istiqamətində yerləşən döyüş mövqelərinin arasındakı dərə boşluqlarından istifadə edərək bölmələrimizin yerləşdiyi əraziyə sızmağa cəhd edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, döyüş növbətçiliyi aparan hərbi qulluqçularımızın sayıqlığı nəticəsində təxribatın qarşısı alınıb.

Kəşfiyyat-diversiya qrupu bir üzvü yaralı olmaqla geri çəkilməyə məcbur edilib

### Hərbi qulluqçularımız qəzada həlak olublar

**Dünən çətin relyefli dağlıq ərazidə hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində Ordumuzun hərbi qulluqçuları Əliyev Taleh Saleh oğlu, Həsənov Elgün Elşad oğlu və Namazov Nihad Kamrəddin oğlu həlak olublar.**

Bu barədə XQ-yə Müdafiə Nazirliyindən məlumat verilib.

Faktla bağlı araşdırma aparılır.

"Müdafiə Nazirliyinin rəhbərliyi bədbəxt hadisə nəticəsində həlak olan hərbi qulluqçuların yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!", - məlumatda qeyd edilib.

XQ

# Azərbaycan əhalisinin sayı 10 milyon 157 mini ötdü



**Son siyahıyaalınmanın nəticəsinə görə, avqustun 1-də ölkə əhalisinin sayı 10 milyon 157 min 406 nəfər təşkil edib.**

Dövlət Statistika Komitəsi bildirir ki, ümumi sayda şəhər əhalisinin xüsusi çəkisi 54,6 faiz, kənd əhalisininki isə 45,4 faizdir. Kişilərin xüsusi çəkisi 49,8 faiz, qadınların xüsusi çəkisi isə 50,2 faiz olub.

XQ

# Ermənilərin "Holokost"a istinad etmələri yəhudi qurbanlarına hörmətsizlikdir

**"Ermənilər özlərinin xislət və xarakterinə uyğun olaraq daim bütün mübarizələrini yalan və riya üzərində qururlar. Bu ölkənin baş naziri Nikol Paşinyan AFP-yə müsahibəsində Azərbaycanı, guya, "növbəti Holokosta hazırlıq"da ittiham edib. Qarabağdakı separatçıların nümayəndəsi Vardanyan isə bəyan edib ki, "ermənilərin iztirabları Holokost qurbanlarının çəkdiyi əzablardan daha çoxdur".**

İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Regional Nümayəndəliyi bu açıqlamasının davamında bildirir ki, ermənilərin Azərbaycana qarşı Holokostdan öz çirkin təbliğat və qarayaxma kampaniyası kimi istifadə etməsi riyakarlıqdır. Göründüyü kimi Ermənistan məkrli siyasətini həyata keçirmək üçün öz çirkin və iyrənc təbliğat üsullarına Holokost qurbanlarını da əlavə edib. Ermənistan dövləti və məkrli erməni lobbisinin öz çirkin təbliğatında əsassız olaraq Holokosta istinad etməsi yolverilməzdir.

Açıqlamada daha sonra qeyd edilir ki, tarixdə Xolokost və yəhudilərin başlarına gətirilən digər məşəqqətlər heç bir xalqın başına gətirilməmişdir: "Bu səbəbdən yəhudilərin üzləşdikləri misli görünməmiş qorxunc soyqırımı aktları qətiyyən müqayisə edilə və misal göstərilə bilməz. Azərbaycan isə qədimdən bu günə qədər dünyanın ən tolerant ölkəsidir. Burada heç bir xalqın nümayəndəsinə qarşı ayrı-seçkilik, kobudluq sərgilənməmişdir. Ermənilər isə bütün tarix boyu Azərbaycan ərazilərində fitnə-fəsad, təxribatlar və soyqırımları törətmişlər".

Nümayəndəlik erməni saxtakarlığı ilə bağlı sonda qeyd edir ki, saysız-hesabsız milli qırğınlar törətmiş bir xalqın Holokost qurbanlarının pak və şərəfli adları ilə alver etməsi, özünü yəhudilərlə eyni tutması dərin hiddət doğurur: "Bu hal Holokost qurbanlarına qarşı ağır hörmətsizlikdir. Biz, Ermənistan rəhbərliyinin öz çirkin qarayaxma kampaniyalarında Holokost adından istifadə etməsinə qəti şəkildə etiraz edir, bu mənfur əməli qətiyyətlə pisləyirik. İsrailin əsl dostu Azərbaycana qarşı ermənilərin və havadarlarının həyata keçirdiyi bütün məkrli qarayaxma kampaniyalarına qarşı dost və qardaş Azərbaycan dövlətinin və xalqının yanındayıq".

XQ

# NDU yarış qalibi oldu

**Naxçıvan Dövlət Universitetinin komandası Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən "2023 ENACTUS" Azərbaycan Milli Yarışının qalibi olub.**




Gənclər Fondu, Tələbə Gənclər Təşkilatları İttifaqı, "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyi və "Enactus Azərbaycan"ın tərəfdaşlığı və BP Azərbaycan şirkətinin baş sponsorluğu ilə keçirilən yarışın final mərhələsində 6 komanda – Naxçıvan Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan–Fransız Universiteti, Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Gəncə Dövlət Universitetinin komandaları mübarizə aparıb. "Zeropollution", "Termobee" layihələri iləçıxış edən NDU-nun ENACTUS komandası rəqiblərindən güclü olduğunu sübut edib.

Naxçıvanlı tələbələr oktyabr ayında Niderlandın Utrext şəhərində keçiriləcək dünya ENACTUS çempionatında Azərbaycanı təmsil edəcək.

Xatırladaq ki, ENACTUS (Entrepreneurial Action Us) beynəlxalq proqramının əsası 1975-ci ildə ABŞ universitetləri qoyub. ENACTUS biznesin müsbət gücü ilə daha yaxşı və davamlı dünya yaratmaq üçün bu günün və sabahın liderlərini bir yerə toplayan beynəlxalq təşkilatdır. 2014-cü ildə ölkəmizdə ENACTUS-un qalibi Naxçıvan Dövlət, 2015-ci ildə Dövlət Aqrar, 2017-ci ildə Dövlət İqtisad, 2020-ci ildə Bakı Dövlət universitetləri, 2016, 2018 və 2019-cu illərdə isə Dövlət İdarəçilik Akamediyası olub.

T.RÜSTƏMLİ
XQ

# Səfirliyimizə hücum edən iranlının məhkəməsi başlayır

**Yanvarın 27-də Tehrandakı səfirliyimizə silahlı hücumla bağlı ibtidai istintaq işi yekunlaşıb.**



Bunu Tehranın Ümumi və İnqilab Məhkəməsinin prokuroru deyib. O bildirib ki, Azərbaycan səfirliyinə hücum bir səfirlik əməkdaşının qətlə yetirilməsi və digər əməkdaşların yaralanması, eləcə də səfiliyin əmlakına xəsarətin yetirilməsi ilə nəticələnib.

Xatırladaq ki, 2023-cü il yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə terror hücumu olub. "Kalaşnikov"la silahlanmış şəxs Azərbaycan səfirliyinə hücum edərək, mühafizə xidmətinin rəisini qətlə yetirib, iki nəfəri yaralayıb. Terrorçunu elə səfirliyin mühafizə xidmətinin digər əməkdaşı zərərsizləşdirib. Bundan sonra Azərbaycanın İrandakı səfirliyinin əməkdaşları təxliyə edilib.

XQ

# Laçında mina partlayışı

DİN-in Mətbuat Xidmətindən bildirilib ki, dünən saat 16 radələrində Laçın rayonunun Qazıdərə kəndinin ərazisində Həkəri çayının sahilində təmir-bərpa işləri aparan şirkətlərdən birinə məxsus ekskavator tank əleyhinə minaya düşüb. Hadisə nəticəsində xəsarət alan olmayıb, texnikaya maddi ziyan dəyib.

Faktla bağlı araşdırma aparılır.

XQ



# Barıt qoxulu, sevgi ünvanlı şeirlər

**Vətən müharibəsində şəhid olan soydaşlarımızdan biri də Bakının Zabrat qəsəbəsindən cəbhəyə yollanmış Saleh Namiq oğlu Əliyevdir. Cəmi 28 il yaşadı, heç özünə təxəllüs də seçməmişdi. Amma tale ona təxəllüs olaraq müqəddəs Şəhid adını bəxş etdi.**



Əslən Füzuli rayonundan olan Saleh 1998-ci ildə Zabrat qəsəbəsində 71 saylı tam orta məktəbdə 1-ci sinfə gedib. Məktəbi bitirdikdən sonra Bakı İdarəetmə və Texnologiya kollecinə qəbul olunub. Orta ixtisas təhsili aldıqdan sonra isə bir müddət istehsalatda çalışıb. 2014–2016-cı illərdə Milli Ordu sıralarında həqiqi hərbi xidmətdə olan Saleh vətənpərvərlik mövzusunda şeirlər yazaraq dostları üçün oxuyub. Əsas mövzularından biri də Vətənin ərazi bütövlüyü, əzəli torpaqlarımızın düşmən tapdağından azad edilməsi olub. Əsgərlikdən sonra Salehin poetik duyğu və düşüncələri həm də saf məhəbbətə, sədaqətə köklənib.

O, ürək edib şeirlərini redaksiyalara göndərməsə də, dostları arasında şair kimi tanınıb. Arabir məclislərdə onların xahişi ilə bəzi poetik nümunələrini səsləndirib. Bəlkə də haçansa ilk şeirlər kitabının çap olunmasını arzu edirdi. Amma...

2020-ci ilin iyul ayında Saleh Əliyev Azərbaycan Ordusunun generalı Polad Həşimovun şəhadətindən sonra, ailəsindən xəbərsiz, dostları ilə birlikdə ön xətdə döyüşmək üçün könüllü olaraq qeydiyyatdan keçib. Sentyabrın 21-də təlimə çağrılıb və bir həftə sonra – düşmənə qarşı "Zəfər Yürüşü" adlanan əks-hücum əməliyyatları başlananda cəbhəyə gedib.

Qanlı-qadalı oktyabr ayının 15-də günorta Saleh imkan taparaq anasına zəng edib: "Hər şey yaxşıdır, inşaallah, qələbə bizimdir! Özünüzdən muğayat olun. Axşam vaxtım olsa, yenə zəng edərəm", – deyib. Təəssüf ki, elə həmin gün axşam saatlarında Füzuli istiqamətində döyüşlər qızışıb və böyük şücaət göstərən Saleh şəhidlik zirvəsinə ucalıb.

Şəhadətindən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub. Onun dəftərçəsindən səngərdə yazdığı şeirləri tapılıb. Bəzisi barıt qoxulu, bəzisi ana nisgilli, bəzisi də yar həsrətli şeirlər...

**Saleh Əliyevin bir şeirini təqdim edirik:**

### POST ƏSGƏRİ

*Anacan, darıxma sən oğlun qədər,*
*O, postda dayanıb, yurdu qoruyur –*
*əlində avtomat səhərə qədər.*
*Dualar elə ki, oğlun qayıtsın.*
*O, postda durub ki,*
*El rahat yatsın…*
*Ana gözləri yolda, tək oturub otaqda,*
*Oğlu isə səngərdə, düşmənlə üz-üzədir...*
*Oğul narahatdır ki, yaralansa, ya ölsə,*
*Xəbər qanad açıb anaya çatar...*
*Ana narahatdır ki, oğlu soyuq gecədə*
*Daş, torpaq üstə yatar...*
*Gözlərindən qaçaq düşər yuxular,*
*Səhərəcən ürəyində qorxular...*
*Belə açılar səhər, belə keçər gecələr,*
*Ana oğlunu gözlər,*
*Oğul anamı özlər...*

***Saleh ƏLİYEV***

# Şəhid ailələri və qazilərə daha 50 mənzil

**Şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə ötən gün daha 50 mənzil verilib. Həssas qrupdan olan bu şəxslərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən həmin mənzillər Bakının Hövsan qəsəbəsindəki yeni yaşayış kompleksindən ayrılıb.**



Mənzillərin sənədləri 4 saylı DOST mərkəzində təqdim edilib. Sənədlərin verilməsi tədbirində Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib ki, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsi, onların mənzillə təminatı tədbirlərinə ötən əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə başlanılıb.

Ulu öndərin 100 illiyini qeyd etdiyimiz bu il də həmin proqram uğurla davam etdirilir. Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişlənib. 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibədə əlil olanların da mənzillə təminatı həyata keçirilir.

Ölkə Prezidentinin tapşırığı ilə 2023-cü ildə ən azı 1500 mənzil və fərdi evin verilməsi işləri aparılır. Bu il artıq 650, postmüharibə dövründə 5 min 150, ümumilikdə ötən dövrdə isə 13 min 950 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.



Mənzillə təmin olunanlar diqqət və qayğı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.



**Həmin gün xeyli adam şəhid Emin Fərmayıl oğlu Hüseynovun məzarını ziyarətə gəlmişdi. Yaşasaydı, 33 yaşı tamam olacaqdı. Amma Vətən müharibəsində canını, qanını əsirgəmədən iştirak edib və Şuşanın alınması xəbərinin yayıldığı günün səhərisi – noyabrın 9-da Xocavənddə şəhidlik zirvəsinə ucalıb.**

Eminin doğum günü ilə əlaqədar Tovuz rayon ictimaiyyətinin nümayəndələri və həmkəndliləri onun xatirəsini ehtiramla yad etdilər, ailə üzvlərinə təskinlik verərək, şəhidin adı ilə qürur duyduqlarını bildirdilər. Qeyd olundu ki, Eminin dünyaya gəlişi ermənilərin Qarabağın dağlıq hissəsində separatçılıq meyillərinin gücləndiyi dövrə təsadüf edib, o da ayağı yer tutunca, tay-tuşları ilə kənddə "dava-dava" oynaya-oynaya böyüyüb. Sonra taleyi elə gətirib ki, taxtadan düzəltdiyi "tüfəng"lə rəqib tərəfi məhv etməyə çalışan Emin hərbçi olub və Qarabağda əlinə həqiqi silah alaraq, son nəfəsinədək düşmənə qarşı mətanətlə vuruşub.

# Xocavənddə hünər zirvəsi



Böyüklərdən eşitdiyi "Bir gün gələr, erməninin dərsini verərik" arzusunu gerçəkləşdirənlərdən olub Emin. 2008-ci ildə A.Hüseynov adına Yanıqlı kənd tam orta məktəbini bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçib. O illərdə erməni xəyanətinin dəfələrlə şahidi olan gənc vətənpərvər əsgəri xidmətini başa vurunca, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tovuz rayon şöbəsinə müraciət edərək ön cəbhəyə getmək arzusunu bildirib. Onu Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə (MAXE) qəbul ediblər.

Azərbaycan Ordusunun mətin əsgəri olan Emin Hüseynov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda Vətən müharibəsi başlananda qisas arzusunun gerçəkləşməsinə addım-addım yaxınlaşdığına sevinib. Vətən mücadiləsinə Murovdağ silsiləsindən başlayıb. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə hünər göstərib.

Döyüş dostlarının söhbətlərinə görə, Emin Hüseynov Murovdağda yaralanmasına baxmayaraq, təxliyə edilməyə razı olmayıb. Elə döyüş meydanında ilk tibbi yardım aldıqdan sonra yenidən silaha sarılıb. Sərrast qumbaraatan kimi, Ermənistan ordusunun canlı qüvvəsinin və texnikasının məhv edilməsində xüsusi fərqlənib. Onun heç bir atışı hədəfdən yayınmayıb.

Qeyd etdiyimiz kimi, Emin Böyük Qələbə xəbərinin sevincini bircə gün yaşayıb. Ermənilərin kapitulyasiya aktına qol çəkdikləri ərəfədə Xocavənd döyüşlərində canını fəda edib. Nəşi doğma rayonuna gətirilərək Yanıqlı kənd qəbiristanlığında torpağa tapşırılıb...

Emin ailəli idi. Müharibə başlananda qızını bağrına basıb Qələbə ilə qayıdacağına and içmişdi. Amma qələbə arzusuna çatsa da, qızına verdiyi geri dönmək vədinə əməl edə bilmədi. Şəhidin Azərbaycan bayrağına bükülmüş tabutu kəndə gələndə oğlu hələ ana bətnində idi. İndi onun evində ata həsrətli 4 yaşlı qızı və ölümündən sonra dünyaya göz açan 2 yaşlı oğlu böyüyür. Heç şübhə yoxdur ki, hələ hadisələrin əsl mahiyyətini anlamasalar da, gələcəkdə atalarının qəhrəmanlığı ilə fəxr edəcək, torpaqlarımızın işğaldan azad edilməsi yolunda canından keçən Eminin Vətən sevgisi qarşısında baş əyəcək, onunla qürur duyacaqlar. Biləcəklər ki, ataların Vətən müharibəsindən öncə yalnız doğma el-obada tanıyırdılarsa, indi o, Azərbaycanın fəxri kimi bütün ölkədə tanınır. Qismətinə ölümlərin ən gözəli düşən Emin Hüseynov Azərbaycanın şərəf tarixini yazanlardan biridir.

Şəhidin atası Fərmayıl Hüseynov deyir ki, nə qədər toxtaq dursam da, ürəyim parçalanır: "O iki körpəsi bizdən atasını soruşanda onları qəbiristanlığa aparmaq çox ağır olacaq. Hələ qarşıda illər var... Balaları böyüyüb hər şeyi olduğu kimi dərk edənə qədər biz nələr yaşayacağıq, onu bir Allah bilir. Kimsə bu dünyanı tutub duran deyil. Hamımız öləcəyik. Yeganə təsellimiz budur ki, ona məhz Vətən yolunda ölmək nəsib oldu. Allahın dərgahında yüksək şəhidlik məqamına çatdı".

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Emin Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", eləcə də Füzulinin, Xocavəndin, Kəlbəcərin və Cəbrayılın azad olunmasına medalları ilə təltif edilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

**Müzəffər savaşın ilk qələbələri**

# Ağdərə–Basarkeçər yolu necə nəzarətə götürülmüşdü?

**Sentyabrın 28-i səhər saat 5-də döyüş tapşırığına əsasən, 1353 yüksəkliyinə hücum əməliyyatı başladı. Bu zirvə azad edilməli idi ki, "Ağ uçuq" zirvəsinə olunan həmlələr səngisin, Talış kəndinə və Suqovuşan yoluna nəzarət bizim tərəfə keçsin və əlaqə yolları vurulmasın. "N" saylı briqadanın döyüş hazırlığı bölməsinin rəisi, polkovnik-leytenant Əfqan Abdurahmanovun rəhbərliyi ilə hərbçilərimiz döyüş tapşırığını yerinə yetirmək üçün hərəkətə başladılar.**



İşğalçı qüvvələrin müqavimətinə baxmayaraq, onların səkkiz mövqeyi ələ keçirildi. Əsgərlərimizi ataş altında saxlayan düşmənin 82 mm-lik minaatan batareyası, "KamAZ" maşını məhv edildi, yolboyu geri çəkilən işğalçı ordunun canlı qüvvəsi vuruldu. Yüksəklik düşməndən azad edildi.

Sentyabrın 29-u gündüz saat 10–11 radələrində hərbçilərimizin bir qrupunun silahlarını təmizlədiyi, bir qrupunun da bölgə və döyüş növbəsi apardığı bir vaxtda bir mərmi atıldı və mövqeyimizdən xeyli uzağa düşdü. Polkovnik-leytenant Əfqan Abdurahmanov mərminin uzağa düşdüyünü görüb:

**– Düşmən başqa yeri vurur, Barandat meşəsi tərəfi, – dedi.**

İkinci mərmi atılandan sonra yüksəkliyə qalxan yolun döngə tərəfindən düşmən bir tank, bir BMP və 30 nəfərdən artıq canlı qüvvə ilə hücuma keçdi.

Kəhrilər (Kəhillər) xarabalığı yaxınlığında qanlı, əlbəyaxa döyüş başladı. Çox qızğın, ölüm-dirim döyüşü idi: gah yaxınlıqda mərmi partlayır, gah güllə səsindən qulaq tutulurdu. Çətinliklərə baxmayaraq, düşmənin irəliləməsinə imkan vermək olmazdı. İlk növbədə düşmənin zirehli texnikası sıradan çıxarılmalı, sonra canlı qüvvə məhv edilməli idi. Əsgər Oruc İbişli yaxın məsafədən qumbaraatanla tankı vurdu. Xeyli irəli soxulmuş BMP-2 isə daha böyük təhlükə yaratdı. BMP-2-dən durmadan mövqelərimizə atəş açılırdı.

Müddətdən artıq xidmət edən hərbi qulluqçu, gizir Nəriman Atakişiyev gözlənilmədən aralıda yerləşən BTR-82A-ya minərək tam sürətlə düşmənin zirehli döyüş texnikasına tərəf sürdü. Düşmənin BMP-2 maşınındakı heyət nə baş verəcəyini anlayana qədər əsgərimiz idarə etdiyi BTR-ni düşmənin döyüş texnikasının üstünə mindirdi və onun qülləsinin hərəkətini məhdudlaşdırdı. Bundan sonra Əfqan Abdurahmanov, Soltan Məmmədov mövqelərindən çıxaraq sağdan-soldan iki qrupla düşmən PDM-sinə tərəf qaçdılar, onun desant "lyuk"unu açdılar, içəri əl qumbaraları ataraq heyəti və içərisində olan 6 nəfər düşmən desantını məhv etdilər. Partlayış nəticəsində baş verən yanğından BTR də yandı. Çünki toqquşma zamanı döyüş maşınımızda nasazlıq yaranmışdı...

Beləcə, içəridə olan düşmən əsgərləri məhv edildi. BMP-2-də altı desant, bir sürücü, bir tuşlayıcı zərərsizləşdirildi.

Düşmən texnikasını sıradan çıxaran Nəriman Atakişiyev isə ağır yaralandı.

İşğalçı ordunun sağ qalan əsgərləri geri çəkilməli oldular. Çünki onların qarşısında yüksək əhval-ruhiyyəli, qətiyyətli, cəsarətli, ölümün gözünə dik baxan əsgərlərimiz vardı. Ermənilər silahlarını, geyimlərini qoyub qaçırdılar. Qaçmaq üçün hər saniyəni qənimət bilirdilər. Vahiməli səslə qışqırıb qaçırdılar. Qorxunun həyəcana çevrilməsi isə hərbçinin ən böyük səhvidir və bu onu ölümə aparır. Düşmən əsgərlərində belə bir vəziyyət yaranmışdı. Qaçıb gizlənə bilməyən, bəxti gətirməyənlərin arasında düşmənin 022 saylı xüsusi təyinatlılarının komandirinin qardaşı oğlu da vardı.

Mayor İntiqam Əmirov deyir: "Döyüş zamanı düşmən BMP-sinin içərisinə qumbara atıldı. Orada ölənlərin arasında düşmənin 022 saylı xüsusi təyinatlılarının komandirinin qardaşı oğlu da vardı. Bizim şəhidləri döyüş meydanından çıxaranda düşmən tərəfi buna imkan vermək istəmədi. Həkim Qafur Həsənovun mənə dediyinə görə, bizim şəhidlərimizi saxlamışdılar ki, 022 saylı xüsusi təyinatlıların komandirinin qardaşı oğlunun meyitini qaytaraq. Gəlib görmüşdülər ki, yanıb, yapışıb olduğu yerə".

Yüksəklik uğrunda gedən döyüşdə şəhidlərimiz oldu. Hücumunun qarşısını alarkən 22 yaşında qəhrəmancasına şəhid olan taqım komandiri, leytenant Elmar Bayramlı Aprel döyüşlərində də iştirak etmişdi.

Şaməddin Əliyev yaralı olduğu halda xəstəxanaya getməkdən imtina edərək döyüşə davam edib. İkinci dəfə yaralanaraq şəhid oldu.

Hərbçilərimiz polkovnik-leytenant Əfqan Abdurahmanovun rəhbərliyi ilə 1353 yüksəkliyini böyük şücaətlə müdafiə etdi, itkilər verilsə də, yüksəklik qorundu, düşmənin hücumları dəf edildi. "Böyük strateji əhəmiyyətli çox önəmli yüksəklik bizdə qaldı. Bu döyüşdə Vətən sevgisi, torpaq həsrəti hər bir əsgərə güc verdi. Yaralananlar döyüşü tərk etmək istəmirdilər. Hamı qalibiyyət şərbətini içməyə can atır, canı bahasına olsa belə, vücudunun bir hissəsini itirsə belə. Azərbaycan əsgərinin əzmini düşmən də yaxşı görürdü. Ona görə onlar geri çəkilməyə məhkum idilər. Bu gücün, bu iradənin qarşısında nəinki canlı qüvvə, heç texnika da dayana bilməzdi. Bir tabora yaxın düşmən məhv edildi", – mayor İntiqam Əmirov deyir.

Tabor komandiri sözünə davam edir:

"Bu döyüşdə panikaya düşməmək hər adamın işi deyildi. Əfqan Abdurahmanov sakit, təmkinlə komanda verir, təmkinlə döyüşü idarə edirdi. Dəfələrlə görmüşəm: elə zabitlər var ki, savadlıdırlar, amma savadlarını döyüş səhnəsində tətbiq edə bilmədilər. Bu adamda savad da vardı, bacarıq da, döyüşü idarəetmə qabiliyyəti də. Əsgərlərin ona inamı da bunlardan qaynaqlanırdı".

Düşmən isə sakitləşmək bilmirdi. Ətək tərəfdən böyük qüvvə ilə yenidən hücuma keçdilər. Sanki bizim boşluqları bilir, daha çox itki verməyimizə çalışırdılar.

**Bu, polkovnik-leytenant Əfqan Abdurahmanovun diqqətini çəkir:**

– Bunlar haradan bizi görür, zəif nöqtələrimizi haradan bilirlər?

Bu təhlükəli vəziyyətin, itkilərin qarşısı vaxtında alınmalı idi. Əfqan Abdurahmanov çıxış yolu axtararkən meşədəki ağacların birində quraşdırılmış gizli kamera diqqətini çəkdi. Bundan sonra əmr etdi ki, ətrafdakı bütün ağaclar yoxlanılsın və aşkar olunan kameralar məhv edilsin. Axtarış nəticəsində ermənilərin ağaclarda quraşdırdığı iki kamera aşkar edildi və düşmənin hərbçilərimizi izləməsinin qarşısı alındı. O kameralar yığışdırıldıqdan sonra düşmən basqıları bir az səngidi. Bundan sonra polkovnik-leytenant Əfqan Abdurahmanov yüksəkliyin ətrafının minalanması barədə əmr verdi. Mühəndis-istehkam xidmət rəisinin köməkçisi Rəhman Cəbiyev Əfqan Abdurahmanovun qərarına uyğun olaraq meşənin ətrafını minaladı.

"Düşmən 1353 yüksəkliyini və "Ağ uçuq"u geri almaq üçün bir neçə istiqamətdə əks-hücuma keçdilər, gecə-gündüz ağır döyüşlər getdi, lakin döyüş hazırlığı bölməsinin rəisi, polkovnik-leytenant Əfqan Abdurahmanovun rəhbərliyi altında əsgərlərimiz düşmənin arzularını ürəyində qoydular. 2-ci taborun komandiri Soltan Məmmədov özünü bacarıqlı zabit kimi göstərdi", – leytenant Cavid İbrahimli deyir.

Beləliklə, bölmələrimiz ermənilərin 6-cı və 7-ci alaylarının əlaqəsini kəsib Suqovuşanın arxasındakı hakim yüksəkliklərə çıxdılar.

Bu əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Ağdərə – Basarkeçər avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nöqtələri nəzarətə götürüldü. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verdi.

***P.ƏFƏNDİYEV***
***XQ***

*Sənətkarın xatirəsi*

# "Ayrılıq"dan Xudafərinə

## Yaxud mənəvi bütövlük nəğməkarı

**Milli musiqimizin dünya şöhrətli ifaçısı Yaqub Zurufçunun vəfatından 2 il ötür. Onu ilk dəfə 1989-cu ilin payızında Azadlıq meydanında gördük, tanıdıq və sevdik. Məqamında gəlib, güneyli Fərhad İbrahiminin həsrət, yanğı ilə qələmə aldığı və Əli Səliminin eyni hisslərlə bəstələdiyi "Ayrılıq" mahnısını o qədər eşqlə ifa etmişdi ki, o gün, unudulmaz hadisə kimi hafizələrə həkk olunmuşdu.**



Qarabağda xain düşmənin törətdiyi haqsızlıqlara və vəhşiliklərə qarşı Azadlıq meydanında ayağa qalxan, haqq səsini dünyaya çatdırmağa çalışan nəhəng izdiham qarşısında xalqımızın acı tale nəğməsini oxumaqla Yaqub Zurufçu Azərbaycanın qaysaq bağlamayan ayrılıq yarasının sanki hovunu aldı. Bu mahnını böyük Rəşid Behbudovun, ölməz Gülağa Məmmədovun ifasında da sevmişdik. Amma uzun illər Arazın o tayından didərgin düşmüş, qürbətdə bu tay arzusu ilə yanan və o gün doğma xalqına qovuşan bir ifaçının avazında "Ayrılıq" nisgili mənəvi bir bütövlüyə çevrildi.

Başı bəlalar çəkmiş Azərbaycanın 210 il əvvəl (1813-cü ildə) rus və fars şovinistləri tərəfindən "Gülüstan" müqaviləsi ilə Güney və Quzey adlanan iki hissəyə ayrılmasına həsr edilən "Ayrılıq" mahnısı Yaqub Zurufçunun ifasında qulaqlardan qəlblərə işlədi, bizi silkələdi, ayıqları dikəltdi, yatmışları ayıltdı. İndi o günü şirin bir xatirə kimi, o tarixin qəhrəmanının 2 il əvvəl amansız pandemiyanın cəngindən xilas ola bilməməsini isə dərin hüznlə yad edirik.

Yaqub Zurufçu 8 aprel 1956-cı ildə Təbrizin Çərandab məhəlləsində dünyaya gəlib. 7 yaşında Fərvərdin Mədrəsəsində ilk təhsilə başlayan Yaqub elə o illərdə Təbrizdə uşaq konsertlərində iştirak edib və məşhur "Cücələrim" mahnısı ilə tanınıb. 11 yaşından artıq Azərbaycan xalq və bəstəkar mahnılarını sevə-sevə ifa edib. 15 yaşında Təbriz Televiziyasında ilk dəfə "Evləri var xana-xana", "Qoy, gülüm gəlsin, ay nənə", "Dilbər" mahnılarını ifa edib.

Yaqub bəyə Azərbaycan sevgisi, onun musiqisinə, mədəniyyətinə dərin bağlılıq atasından keçib. Dediyinə görə, atası bir vaxtlar Bakıda yaşayıb. Yaqub dünyaya gözünü açandan ondan Bakı, Azərbaycan, onun tarixi, mədəniyyəti, insanları haqqında sevgi dolu hekayətlər dinləyib. Onun bütöv Vətən dünyası belə yaranıb.

Təbrizdə ilk çıxışından sonra tamaşaçı Yaqub Zurufçunu ekranlarda, konsert salonlarında bir az da yaxından görmək istəyib. Təbrizin, Tehranın Radio və Televiziyaları da tamaşaçının xahişi ilə onu efirə dəvət edirdilər.

Amma yeniyetməlik illərinin şöhrəti onun gözlərini qapatmayıb, düşünüb ki, təhsil almağın vaxtıdır. Tehran Universitetinin iqtisad fakültəsində təhsil almağa başlasa da, opera xorunda öz musiqi fəaliyyətinə davam edib.

Yaqub Zurufçunun azad düşüncəsi ifalarına qanad taxıb. 1979-cu ildə İranda Xalq İnqilabından 1 il sonra sənətkar Almaniyaya köçməli olub. Elə orada da peşəkar musiqi təhsili alıb. Əvvəl Hamburqda, sonra isə Amerikanın Florida ştatının Myami Universitetində vokal sənətini dərindən mənimsəyib.

Azərbaycana ilk gəlişi isə xalq hərəkatının kükrədiyi 1989-cu ilə təsadüf edib. Almaniyada konsert zamanı tanış olub dostlaşdıqları Gülağa Məmmədovun dəvəti ilə Bakıya gəlib. Elə həmin il Yaqub Zurufçu ilk konsertlərdən yığılan bütün vəsaiti doğma torpaqlardan - Qərbi Azərbaycandan və Qarabağdan qovulmuş, didərgin salınmış evsiz-eşiksiz həmvətənlərimizə yardım fonduna köçürüb.

Xatırladaq ki, hələ 1985-ci ildə Almaniyada konsertdə Gülağa Məmmədovun təklifi ilə Rəşid Behbudov öz konsertində 29 yaşlı Yaqub Zurufçunun çıxışına icazə verib. "Ayrılıq" mahnısını onun ifasında dinləyən sənətkar gənc soydaşımızı qucaqlayaraq ona xeyir-dua verib: "Daha arxayınam ki, məndən sonra davamçım var!"

Yaqub Zurufçu milli musiqimizi Avropada – Almaniya, İngiltərə, Fransa, İspaniya ilə yanaşı, ABŞ-da, Kanadada, Braziliyada, Cənubi Afrikada, Misirdə, Mərakeşdə, hətta uzaq Yaponiya və Avstraliyada da uğurla səsləndirib və sevdirib.

2015-ci ilin sentyabrında yurdsevər müğənni Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəylinin 130 illik yubileyinə onun və davamçıları olan bəstəkarlarımızın əsərlərindən ibarət maraqlı mahnı albomu hazırlayıb və dahi bəstəkarın ev muzeyində təqdimatını keçirib.

Ulu öndər Heydər Əliyev Amerikada müalicə olunarkən müğənni ona baş çəkib, böyük rəhbərin sevdiyi mahnıları pianinoda ifa edib. Müalicədən sonra Bakıya qayıdan Heydər Əliyev Prezident Aparatında Yaqub bəyi qəbul edərkən demişdi: "Mən səni, sənin sənətini çox sevirəm. Təbiidir, səni məndən başqa da Azərbaycanda çoxları, hamı sevir. Çünki sən Azərbaycanın o ağır illərində xalqımıza öz mahnılarınla, öz sənətinlə çox qürur vermisən, mənəvi dayaq olmusan!"

Otay–butayın ortaq nəğməkarı Yaqub Zurufçunun Almaniyada, ABŞ-da, Kanadada, Azərbaycanda və digər ölkələrdə 30-dan çox musiqi albomu işıq üzü görüb. O, 1995-ci ildə respublikada ilk professional səsyazma studiyasını yaradıb. Müstəqillik illərində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə hərbi hissələrdə geniş konsert proqramı ilə çıxış edib. Şəhidlərin xatirəsinə "Ağlama, anam, mənə…" mahnı-elegiyasını bəstələyib.

Yaqub Zurufçunun 2019-cu il oktyabrın 12-də Heydər Əliyev Sarayında solo-konserti oldu. Dahi Üzeyir Hacıbəylinin əsərlərinin, Bülbülün, Rəşid Behbudovun repertuarlarından klassik mahnıların, bütöv Azərbaycana, doğma Təbrizə və Bakıya həsr edilmiş musiqi əsərlərinin səsləndirildiyi, respublikamızın görkəmli mədəniyyət və incəsənət xadimlərinin, çoxsaylı pərəstişkarın iştirak etdiyi həmin möhtəşəm konsert, sanki, Yaqub Zurufçunun sevimli xalqı ilə vida konserti oldu.

Yaqub Zurufçu 14 sentyabr 2021-ci ildə 65 yaşında Bakıda amansız pandemiya ilə savaşda dünyasını dəyişdi. Arzusunda olduğu klip isə onun vəfatından sonra işıq üzü gördü. Söhrab Tahirin sözlərinə bəstələdiyi "Daha" mahnısının video çəkilişi Xudafərin körpüsü üzərində sənətkarın 11 yaşlı oğlu Atillanın iştirakı ilə aparıldı. Bir milləti ikiyə bölən tikanlı məftillər fonunda "Ayrılıq" mahnısına çəkilən klipi birlik rəmzi olan Xudafərin körpüsü üzərində lentə alınan "Daha" mahnısı tamamladı.

**Ramilə QURBANLI**

# Maksimum nəticə, yeni rekordlar...

## *Güləşçilərimiz dünya çempionatına necə hazırlaşıblar?*

**Dünyanın adlı-sanlı güləşçiləri bugünlərdə öz aralarında ən güclüləri müəyyənləşdirmək üçün Serbiyanın paytaxtı Belqradda keçiriləcək dünya çempionatında bir araya gələcəklər.**



Bəs çempionata millimizin hazırlığı necə qiymətləndirilir?

Builki dünya çempionatı Paris Olimpiadasına vəsiqə qazandırmaq baxımından da böyük önəm daşıyır. Sərbəst güləş üzrə Azərbaycan millisinin baş məşqçisi Xetaq Qazyumov güləşçilərin minimum və maksimum hədəflərini açıqlayıb: "Komandamız Olimpiadaya minimum 6 lisenziya qazanmağı hədəfləyib. Qeyri-olimpiya çəkilərində, əsasən, gənclərə üstünlük verməyik. Olimpiya çəkilərində isə təcrübəli güləşçilər mübarizə aparacaqlar. Avropa çempionumuz Əliabbas Rzazadədən (57 kq) minimum olimpiadaya lisenziya qazanmağı gözləyirəm. Maksimum nəticə göstərərsə, dünya çempionu ola bilər. Üçqat dünya çempionu Hacı Əliyevin (65 kq) böyük potensialı var. Hazırda çox yaxşı formadadır və düşünürəm ki, hansısa problem onun yenidən dünya çempionu olmasına mane olmayacaq".

Baş məşqçi Turan Bayramov, Abubakr Abakarov (86 kq), Maqomedxan Maqomedov (97 kq) və Georgi Meşvildişvilidən (125 kq) də yüksək nəticələr gözləndiyini bildirib. Qeyd edib ki, istər Olimpiya, istərsə də qeyri-olimpiya çəkilərində maksimum nəticəni hədəfləyirlər. Bunun üçün güləşçilər potensiallarından maksimum istifadə etməlidirlər.

Sərbəst güləş üzrə millinin lideri Hacı Əliyev (65 kq) Belqradda dünya çempionatında 6 illik medal həsrətinə son qoymağa və Azərbaycan güləşində ilk dördqat dünya çempionu kimi yeni rekorda imza ata bilər. İstedadlı güləş ustası dördüncü dəfə qızıl medal, eyni zamanda Olimpiadaya lisenziya qazanmağı hədəf seçib. O, həm özünün, həm də komandada yoldaşlarının yaxşı formada olduğunu deyib. Vurğulayıb ki, yığma ilboyu həm ölkə xaricində, həm də Vətəndə birlikdə təlim-məşq toplanışı keçib: "Düşünürəm ki, yarışa tam hazıram. Uğurlu nəticə əldə etmək üçün əlimdən gələni edəcəyəm".

Qadın güləşi üzrə millinin baş məşqçisi Semyon Şterev də yığmanın yüksək nəticələrə iddialı olduğunu deyib: "Mariya Stadnikla (50 kq) yanaşı, Jalə Əliyeva (57 kq) və Elis Manolovadan (62 kq) da yaxşı nəticə gözləyirik. Güləşçilərimizin uğurla çıxış edəcəklərinə inanırıq".

Dünya qadın güləşinin canlı əfsanəsi Mariya Stadnik 4 illik fasilədən sonra mundiala qayıdır. İkiqat dünya çempionu Belqradda növbəti titul və Olimpiadaya lisenziya qazanmaq üçün var-gücünü sərf edəcək. O, Olimpiya Oyunlarında 5-ci dəfə iştirak etməklə, Azərbaycan idmanında daha bir rekorda imza ata bilər.

Ötən il Belqradda ikinci dəfə dünya çempionu titulunu qazanan Eldəniz Əzizli bu dəfə də eyni məkanda eyni uğuru təkrarlamağa və yunan-Roma güləşində müstəqillik tariximizin ilk üçqat dünya çempionu adına sahib çıxmağa çalışacaq. Millinin kapitanı Serbiyada titulunu qorumaq üçün yüksək səviyyədə hazırlıq keçib.

Milli üzvlərinin hazırlığını yüksək qiymətləndirən yunan–Roma güləşi üzrə Azərbaycan yığmasının baş məşqçisi Aleksandr Tarakanov dünya çempionatında mümkün qədər çox olimpiya lisenziyası əldə etməyi qarşılarına məqsəd qoyduğunu qeyd edib: "Ötənilki dünya çempionatındakı nəticəni yaxşılaşdırmağa çalışacağıq. Dünya çempionatında qalib olmaq böyük önəm kəsb edir. Millimizin üzvləri yarışa yaxşı hazırlaşıblar. Güləşçilərimiz özlərinə əmindirlər. Düşünürük ki, istədiyimiz nəticəni əldə edə biləcəyik".

Beləliklə, sentyabrın 16-dan 24-dək "Stark Arena"da keçiriləcək dünya çempionatında güləşçilərimiz tarix yazmağa çalışacaqlar. Bunun üçün potensial da var, perspektivlər də.




Xatırladaq ki, müstəqillik illərində böyüklər arasında 12 dünya çempionumuz olub. Onlar ümumilikdə 17 qızıl medal qazanıblar. Hacı Əliyev 3 qızıl medalla (2014, 2015, 2017) Azərbaycan rekordçusudur.

**L.QURBANOVA**
**XQ**

**Təhsil sahəsi ölkəmizin inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Son illərdə Azərbaycanda təhsilin yeniləşməsi ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, gələcəyimizi daha etibarlı və inamlı görmək istəyimiz uğurla gerçəkləşir.**

Elm və təhsil naziri Emin Əmrullayev sentyabrın 11-də Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransındakı çıxışında qeyd edib ki, təhsil islahatları, mövcud problemlər və onların həlli istiqamətində görülən işlər davam edir, əsas hədəflər isə ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, rəqəmsal səriştələrin artırılması, XXI əsr bacarıqlarının inkişaf etdirilməsidir.

Yeri gəlmişkən, Sumqayıtın ilk təhsil müəssisəsi olan bu məktəb yenidən tikilərək 2021-ci ildə istifadəyə verilib. Müasir bunada keyfiyyətli təhsil üçün hər cür şərait yaradılıb. Burada 1123 pedaqoji işçi çalışır. Yeni tədris ilində məktəbdə 2 min 900 şagird təhsil alacaq.

Əlavə edək ki, Sumqayıt məktəblərinin ötən dərs ilində olduğu kimi, bu il də

# Bütünlüklə tələbə adı qazanan siniflər

## *Paytaxtda bu il 56 belə rekordçu qeydə alınıb*



Yüksəlişə nail olmağın yolu isə, məlum olduğu kimi, maksimum nəticələrdən keçir. Fərəhli haldır ki, orta məktəblərin müəyyən qrup şagirdləri universitetlərə builki tələbə qəbulunun nəticələrinə görə rekorda imza ataraq, zirvə yoluna ürəklə çıxa biliblər.

Təkcə paytaxt Bakıda ötən tədris ilində 1939 şagird fərqlənmə attestatlarına layiq görülüb. XI sinif məzunlarının 18-i qızıl, 6-sı gümüş nişanla təltif edilib. Bakı məktəblərindən 56 sinif ali məktəbə qəbulda 100 faiz nəticə göstərib. İdarədən aldığımız xəbərə görə, paytaxtdakı 13, 53, 85, 95, 114, 300, 302, 307 nömrəli

yüksək nailiyyətlərə imza atıblar. Belə ki, Təbiət Elmləri Təmayüllü Gimnaziyanın və Nizami Gəncəvi adına Texniki və Təbiət Elmləri Liseyinin şagirdləri ən yüksək nəticəyə imza atıblar. Gimnaziyanı 55 şagird bitirib. Onlardan 51-i Azərbaycanın, 4-ü isə xarici ölkələrin universitetlərinə qəbul edilib. Məzunlardan 10-u qızıl, 2-si gümüş medalla məktəbi bitirib. Adıçəkilən liseyi isə 54 şagird bitirib. Onlardan 42-si Azərbaycan, 12-si isə xarici ölkə universitetlərində təhsillərini davam etdirəcəklər. Təfəkkür liseyi də rekordu təkrarlayıb: iki sinfin bütün məzunları yüksək balla tələbə olublar. Ümumilikdə isə




tam orta məktəblərin, 220, 299 nömrəli məktəb-liseylərin hər birində bir sinfin bütün şagirdləri ali təhsil müəssisələrinə qəbul ediliblər. Bundan əlavə, 287 nömrəli "Zəkalar" liseyinin 5 sinfi 100 faiz nəticəyə nail olub.

**Bakı Dövlət Universitetinin Dövlət və ictimai münasibətlər fakültəsinə qəbul edilmiş Zakir Məmmədzadənin ürək sözləri:**

– Öyrəndiyimə görə, mənim daxil olduğum fakültə beynəlxalq münasibətlərdən daha çox daxili məsələlər üzrə mütəxəssislər yetişdirir. Tələbələr ictimai, siyasi, hüquqi və sair mövzularda biliklərə yiyələnir və idarəetmə sahəsində tarixi inkişafı izləyirlər. Sevinirəm ki, BDU kimi adlı-sanlı bir ali təhsil ocağına daxil olmuşam. İllərcə zəhmətimi çəkmiş əziz müəllimlərimə minnətdaram!

Abşeron–Xızı Regional Təhsil İdarəsinin tabeliyindəki məktəblərdən 172 şagird 600-dən, 37 şagird isə 650-dən yuxarı bal toplayıb.

**Bu il mingəçevirli məzunlardan 17 nəfər 600-dən yuxarı bal toplayıb. Şəhər üzrə ən yüksək nəticə əldə etmiş Təbiət–Riyaziyyat və Humanitar Elmlər təmayüllü liseyin şagirdi Sənani Zeynallı (673 bal) söylədi:**

– Çox şadam ki, müəllimlərimin və valideynlərimin etimadını doğrultdum. Bundan sonra da öndə getməyə, Vətən üçün gərəkli mütəxəssis olmağa çalışacağam.

Şirvan-Salyan Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Biləsuvar şəhər Ölsvət Eynullayev adına 4 nömrəli tam orta məktəbin 11-A sinfinin məzunları da 100 faiz nəticə göstərərək,



**Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki 166 nömrəli tam orta məktəbi "Qızıl medal"la bitirmiş Aqil Əlpaşayev dedi:**

– Fənn Olimpiadalarının respublika turunda tarix fənni üzrə 1-ci yerə layiq görülərək imtahansız Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya" fakültəsinə daxil oldum. Özümü xoşbəxt sayıram. Mənim bu uğurumda zəhməti olan hər kəsə ürəkdən "Çox sağ olun" deyirəm.

Abşeron–Xızı Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən İsmət Qayıbov adına Sumqayıt şəhər 1 nömrəli tam orta məktəbin şagirdləri də ali məktəblərə builki tələbə qəbulunun nəticələrinə görə rekord qazanıblar.

**Məktəbin direktoru Kəmalə Hüseynova əməkdaşımıza bildirib ki,** bu təhsil ocağının 11-A, 11-B və 11-E sinifləri 100 faiz nəticə göstərib. Ümumilikdə məktəbi 163 şagird bitirib. Məzunlar arasında ən yüksək nəticəni Niman Nuriyev əldə edib. O, 646 bal toplayaraq Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunub.

fərqləniblər. Məktəbi bitirən 19 şagirdin hamısı tələbə adının sevincini yaşayır. Onlardan Bakı və Lənkəran Dövlət universitetlərinin hərəsinə 5, Dövlət İqtisad Universitetinə 3, Azərbaycan Dillər, Bakı Slavyan, Xəzər, Azərbaycan Dövlət Pedaqoji universitetlərinə, eləcə də İdarəçilik Akademiyasına və Dövlət Sərhəd Xidmətinin Akademiyasına 1 nəfər qəbul olub.

Bir məktəbin isə 45 məzunundan 44-ü tələbə adını qazanıb. Söhbət Lənkəran şəhərindəki S.Kazımbəyov adına 6 nömrəli tam orta məktəb-liseyindən gedir. Bu təhsil ocağının uğurları ildən-ilə artır. Cari ildə məktəb-liseyin bir sinfinin bütün məzunları, digər bir sinfinin isə 22 məzunundan 21-i tələbə adını qazanıb. Qeyd edək ki, məzun Firanə Qurbanova FLEX proqramını (Gələcək Liderlərin Mübadiləsi) qazanaraq təhsilini ABŞ-da davam etdirəcək. O bu il FLEX proqramını qazanan 22 azərbaycanlıdan biridir.

Yüksək nəticə ilə tələbə adını qazanan gənc soydaşlarımızı – sabahımızın ən layiqli sahiblərini təbrik edirik!

**Ə.ƏLİYEV**
**XQ**

Müqayisəli təhlil

# Ermənistanın xarici borcu ÜDM-in 54 faizi qədərdir



**2023-cü ilin birinci yarısında Cənubi Qafqaz ölkələrinin iqtisadiyyatları sabit artım nümayiş etdirib. Ancaq bu vəziyyətin səbəbləri ölkədən-ölkəyə fərqlidir. Məsələn, bu ilin ilk altı ayında Ermənistan iqtisadiyyatının artım tempi 13 faiz təşkil edib. Gürcüstanın Ümumu Daxili Məhsulu isə 2023-cü ilin yanvar–iyun ayları ərzində 7,6 faiz artıb.**

Hər iki ölkədə buna tranzit ticarətinin artması və Rusiya–Ukrayna müharibəsinin səbəb olduğu maliyyə resursunun axını şərait yaradıb. Bu da erməni dramının və gürcü larisinin məzənnəsinin möhkəmlənməsinə səbəb olub. Gürcüstan iqtisadiyyatının sabitliyinə turistlərin sayının artması da təsir edib ki, onların da əksəriyyəti ruslardır. Amma burada bir nüansa da diqqət yetirmək lazımdır. Ermənistanda iqtisadi artım birbaşa Rusiya–Ukrayna müharibəsi ilə bağlıdır. Deməli, Ermənistanın iqtisadi artımı müvəqqətidir.

Bu iki ölkədə yuxarıda qeyd etdiyim kimi maliyyə resursunun axınında pul köçürmələri rol oynayır. Təkcə onu qeyd etmək kifayətdir ki, bu ilin altı ayı ərzində Rusiyadan Ermənistana fiziki şəxslərə köçürmələr ötən ilin müvafiq dövründəki 1,1 milyard dollara nisbətdə 2,1 milyard dollar təşkil edib, demək olar ki, iki dəfə artıb. Ermənistana ən çox pul köçürmələri daxil olan ikinci ölkə ABŞ olub.

Gürcüstanda isə əvvəlki dövrlərdə olduğu kimi, 2023-cü ilin birinci yarısında da transfer həcminə görə, Rusiya liderlik edib. Rusiya Federasiyası - 1,125 milyard dollarla (artım 50 faiz) birinci, İtaliya isə bundan 3,5 dəfə az göstərici ilə ikinci yerdə qərarlaşıb.

2022-ci ildə Rusiyadan Ermənistana pul köçürmələri, yerli ekspertlərin fikrincə, ÜDM-in 20 faizinə bərabər olub, müqayisə üçün qeyd edək ki, bir il əvvəl bu rəqəm Ermənistan ÜDM-nin 5 faizi kimi qiymətləndirilib. Eyni zamanda Rusiyadan yüksək maliyyə daxilolmaları fonunda Gürcüstanın beynəlxalq ehtiyatları 2022-ci ilin sonunda tarixi maksimumunu yeniləyərək 4 milyard 900,6 milyon dollara çatıb.

Bunların fonunda hər iki ölkənin dövlət borcu yüksəkdir və ÜDM-də yüksək faizə sahibdir. Beləliklə, Ermənistanın dövlət borcu 2023-cü ilin fevral ayının sonunda ÜDM-in 54 faizini təşkil edir. Yəni 2023-cü ilin iyul ayının sonuna Ermənistanın dövlət borcu, təxminən, 11 milyard 352 milyon dollardır. Ölkənin Maliyyə Nazirliyinin məlumatına görə, ilin əvvəli ilə müqayisədə borcun məbləği 714 milyon dollar və ya 6,7 faiz artıb. Bildirilib ki, daxili dövlət borcu xarici borcdan daha sürətlə artır. Ermənistanın xarici dövlət borcu iyulun sonunda 6 milyard 663 milyon dollar təşkil edib.

Bu o deməkdir ki, yeddi ay ərzində bu rəqəm 218 milyon dollar və ya 3,4 faiz artıb. Xarici borcun əsas hissəsini beynəlxalq təşkilatlar və xarici dövlətlər tərəfindən verilən kreditlər təşkil edir.

Qeyd olunur ki, sosial-iqtisadi proqramları həyata keçirmək üçün Ermənistan yeni kreditlər götürməkdə davam edir. Bu ilin aprelində hökumət Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) ilə ümumi məbləği 92 milyon avro olan yeni kredit sazişi – "Yaşıl, davamlı və inklüziv inkişaf siyasəti krediti" imzalayıb.

Bu dövrdə daxili borc daha da sürətlə artıb. Cari ilin yeddi ayında daxili borc 496 milyon dollar və ya 11,8 faiz artaraq 4 milyard 688 milyon dollar təşkil edib. Əgər fikir verdinizsə, Ermənistanın dövlət borcu ÜDM-nin 54 faizini təşkil edir və bu təhlükəli haddir.

Gürcüstanda isə ümumi xarici dövlət borcu iyulun 1-nə 8,51 milyard dollar qiymətləndirilir. Gürcüstan Maliyyə Nazirliyinin məlumatına görə, il ərzində xarici borc 7,6 faiz artıb. 31 mart 2023-cü il tarixinə ölkənin ümumi dövlət borcu isə 12,6 milyard dollar təşkil edib. Bu, Ümumi Daxili Məhsulun 32,2 faizi deməkdir.

Gürcüstan dövlətinin ən böyük kreditorları Asiya İnkişaf Bankı (2,15 milyard dollar), Beynəlxalq İnkişaf Bankı (1,38 milyard dollar) və Avropa İnvestisiya Bankıdır (1,005 milyard dollar).

Müqayisə üçün qeyd edək ki, bu il iyulun 1-nə Azərbaycanın dövlət borcu 16 milyard 151 milyon manat və ya yaxud 2023-cü il üzrə proqnozlaşdırılan ümumi daxili məhsulun 14,5 faizi qədər olub. Azərbaycanın xarici borcu 6 milyard 576,9 milyon dollar qiymətləndirilir ki, bu da 2022-ci ilin sonundakı göstəricidən 1,7 faiz azdır. 2023-cü il üçün proqnozlaşdırılan ÜDM-in 10 faizinə bərabərdir. 2023-cü il iyulun 1-nə Azərbaycanda iqtisadi artım göstəriciləri isə 6,2 faiz təşkil edib.

Regionun hər üç ölkəsi arasında Azərbaycan ən çoxşaxəli iqtisadiyyata malikdir və sənaye sektoru ölkənin ÜDM-də aparıcı rol oynayır. Ölkənin iqtisadi artımına təsir edən əsas amil enerji resursları üçün əlverişli mühit, o cümlədən bu enerji ehtiyatlarının (neft, qaz) son istehlakçılara çatdırılması üçün vaxtında görülən tədbirlərdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## Ekspert rəyi

**Güləhməd TALIBOV, professor**



Xarici borcun təhlükəli həddə olmasını müəyyən edən başlıca amillərdən biri ölkənin strateji valyuta-qızıl ehtiyatlarının borca mütənasiblik əmsalıdır. Borcun həcmi ehtiyatlardan çox olduqda bu, həmin ölkənin milli iqtisadi təhlükəsizliyini təhdid altına salır. Azərbaycanın strateji valyuta ehtiyatı isə kifayət qədər çoxdur. 2023-cü il iyulun 1-ə olan göstəriciyə görə, Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi 65,9 milyard dollar təşkil edib. Xarici borcumuz isə 6 milyard 576,9 milyon dollar qiymətləndirilir. Bu o deməkdir ki, valyuta rezervlərimiz xarici borcdan 10 dəfə çoxdur. Yəni Azərbaycan borcu bu gün sıfırlaya bilər.

İkincisi də, bu borcun həcmi 2023-cü il üzrə proqnozlaşdırılan Ümumi Daxili Məhsulun (ÜDM) 10 faizi qədər olub. Bu ilin I yarısında cəlb edilən vəsaitlər, yerinə yetirilən əsas borc öhdəlikləri, habelə xarici valyuta məzənnələrində baş vermiş dəyişikliklər nəzərə alınmaqla xarici dövlət borcu 116,3 milyon ABŞ dolları və yaxud 1,7 faiz azalıb. Göründüyü kimi, Azərbaycanda xarici borc azalır və bu 5 ildir davam edir.

Bundan başqa, son illər dünyada baş verən iqtisadi və siyasi çağırışlara baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik təmin edilib, maliyyə-bank sisteminin möhkəmləndirilməsinə nail olunub. İri layihələri öz hesabımıza maliyyələşdirmək imkanlarımız artıb.

Dünyada ölkələrinin böyük əksəriyyətinin isə strateji ehtiyatları xarici borcundan bir neçə dəfə azdır. Hətta elə ölkələr var ki, məcmu qızıl-valyuta ehtiyatları borclarını bağlaya bilmir. Bu ölkələrin siyahısında Ermənistan və Gürcüstan da var. Nə Ermənistanın, nə də Gürcüstanın strateji maliyyə ehtiyatları borclarını qapatmaq imkanında deyil. Məsələn, Gürcüstanda strateji ehtiyatlarının həcmi 4,9 milyard dollar təşkil edir ki, bu da xarici borcdan (8,51 milyard dollar) azdır. Ermənistanın strateji rezervlərinin həcmi 2022-ci ilin dekabr ayında 4 milyard 103 milyon dollara bərabər olub. Xarici borc isə 6 milyard 663 milyon dollardır və beynəlxalq valyuta rezervlərinindən çoxdur.

# Mərakeş Fransa və İranın yardımından imtina edib

**Mərakeş Kralı IV Məhəmməd Fransa və İranın zəlzələdən zərər çəkənlərə humanitar yardımından imtina edib. Məlumatı "Radio Farda" yayıb.**



Bildirilib ki, son günlər İranın bir sıra yüksək vəzifəliləri, Prezident İbrahim Rəisi, parlamentin sədri Məhəmməd-baqer Qalibaf, xarici işlər naziri Hüseyn Əmir Abdullahian və Qızıl Aypara Cəmiyyətinin başçısı adından Mərakeşə humanitar yardım edilməsi ilə bağlı dəfələrlə müraciət edilib. Ancaq rəsmi Rabat yardımı qəbul etməyib.

Mərakeşin Fransa, 5 il əvvəl Mərakeş Livan "Hizbullah"ı, POLİSARİO (Seyid əl Hamra və Rio-de Qronun Azadlığı Cəbhəsi) cəbhəsini dəstəklədiyi üçün İranla əlaqələri kəsib. Bu cəbhə Qərbi Saxarada fəaliyyət göstərən hərbi-siyasi təşkilatdır. Bu silahlı qruplaşma 1970–1980-ci illərdə Mərakeş və Mavritaniya silahlı qüvvələrinə qarşı fəal silahlı mübarizə aparıb. 1979-cu ildən BMT POLİSARİO cəbhəsini Qərbi Saxara xalqının qanuni nümayəndəsi kimi tanıyıb. Cəbhə Sosialist İnternasionalında müşahidəçi statusuna malikdir. 1982-ci ilin fevralında POLİSARİO Afrika İttifaqı Təşkilatına üzv olub. 15 il əvvəl krallıqda dini quruluşu dəyişməyə cəhd etdiyi üçün Mərakeş İranın Rabatdakı səfirliyini ittiham etmişdi.

Son zamanlar İranın ali rəhbəri ayətullah Seyid Əli Xamenei və Prezident İbrahim Rəisinin müraciətlərinə baxmayaraq, Mərakeş onlara müsbət cavab verməyib.

Qeyd edək ki, Mərakeşin Fransanın humanitar yardımından imtina etməsi də siyasi motivlidir. Kral hələ ki Böyük Britaniya, İspaniya Birləşmiş Ərəb Əmirlikləri və Qətərin yardım təklifinə müsbət cavab verib. Xatırladaq ki, Mərakeşi XVII əsrdən ələvilər sülaləsi idarə edir.

Sonda qeyd edək ki, Mərakeş Milli Geofizika İnstitutundan verilən açıqlamaya görə, cümə günü yerli vaxtla saat 23:11-də (Bakı vaxtı ilə sentyabrın 8-də saat 02:11-də) 7 maqnitudalı zəlzələ baş verib. Təbii fəlakət nəticəsində ölənlərin sayı 2 862, yaralıların sayı isə 2 562 nəfərə çatıb.

***XQ***

**Özbəkistanın paytaxtı Daşkənddə 2023-cü ildə Şuşa şəhərinin Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi münasibətilə "Ozarbayjonning qadimiy Shusha shahri Turkiy dunyoning madaniy poytaxti" adlı xüsusi poçt markası buraxılıb.**

# Özbəkistanda Şuşa markası




Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və Özbəkistanın müvafiq dövlət qurumlarının dəstəyi nəticəsində ərsəyə gəlmiş "Azərbaycanın qədim Şuşa şəhəri – Türk dünyasının mədəniyyət paytaxtı" adlı poçt markasının Özbəkistan Mərkəzi Poçtu tərəfindən daxili və beynəlxalq dövriyyəyə buraxılması nəzərdə tutulub.

Xüsusi dizaynla hazırlanmış poçt markasının üzərində Şuşa qalası, Azərbaycan bayrağı, Qarabağın tacı olan Şuşanın füsunkar təbiəti, başını duman almış əzəmətli dağları, əslən şuşalı olan Azərbaycanın mədəniyyət, ədəbiyyat və incəsənət xadimləri, milli musiqi alətlərimiz (qaval, tar, kaman), Qarabağın, Şuşanın və qazanılan Zəfərin rəmzi olan "Xarıbülbül" çiçəyi təsvir olunub.

Qeyd edək ki, Daşkənddə və Bakıda təqdimat mərasimlərinin keçiriləcəyi poçt markası hər iki ölkənin dövlət və hökumət nümayəndələrinə, eləcə də muzeylərinə göndəriləcək.

Xatırladaq ki, TÜRKSOY tərəfindən Şuşa şəhərinin Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə əlaqədar bu il Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi bir neçə layihə həyata keçirib. Bu layihələrə "Şuşa günləri" (Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, iki ölkənin Mədəniyyət nazirlikləri ilə birgə) tədbiri, "Wikipedia"da özbək dilində Şuşa haqqında bölmələrin yaradılması, Özbəkistan KİV nümayəndələrinin Qarabağa – Şuşaya media-turlarının təşkil edilməsi daxil olub. Yaxın zamanda isə bir neçə dildə Şuşaya həsr olunmuş ensiklopedik kitab çap ediləcək.

**Qulu KAZIMOV,**
**XQ-nin xüsusi müxbiri**

# Gürcüstandakı soydaşlarımıza ana dilində dərsliklər göndərilib

**Elm və Təhsil Nazirliyi Gürcüstanın Azərbaycan dilində tədris aparılan məktəblərinə 18 adda 21 min 402 nüsxə dərslik göndərib. Dərsliklər dünən Gürcüstanın Təhsil və Elm Nazirliyinə təhvil verilib.**




Qeyd edək ki, ana dili və ədəbiyyat dərsliklərinin mübadiləsi "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" əsasında həyata keçirilir. Son 5 ildə nazirlik tərəfindən 105 min 913 nüsxə dərslik və metodiki vəsait Gürcüstanın Azərbaycan dilində tədris aparılan məktəblərinə göndərilib.

Gürcüstanın Təhsil və Elm Nazirliyinin Strateji planlaşdırma və beynəlxalq əlaqələr departamentinin rəhbəri Kaxa Xondolişvili Azərbaycanın bu yardımını yüksək qiymətləndirib. Onun sözlərinə görə, Azərbaycanın Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Gürcüstandakı azərbaycandilli məktəblərin bu cür dərsliklərlə təmin olunması məktəblilərin öz ana dillərinə marağının artmasında və onların daha savadlı vətəndaş kimi böyüməlrində mühüm rol oynayacaq.

**XQ**

# Ukraynada muzdlu rusların sayı artacaq

**Rusiya ilin sonunadək Ukrayna ərazisindəki qoşunlarının sayını artıracaq. Böyük Britaniya Müdafiə Nazirliyinin hesablamalarına görə, Rusiya ordusu ilin sonuna qədər 420 min müqaviləli əsgəri cəlb etmək niyyətindədir. ABŞ-ın analitik mərkəzi ISW isə hesab edir ki, 2024-cü il seçkilərinə qədər heç bir səfərbərlik olmayacaq.**

Ukraynadakı Rusiya əsgərləri barədə Rusiya prezidenti Vladimir Putin də açıqlama verib. O, çərşənbə axşamı bildirib ki, son aylarda 250 min nəfərdən çox rus könüllü olaraq silahlı qüvvələrə qoşulub: "Hər gün 1000-1500 rusiyalı orduya qoşulmaq üçün könüllü müqavilələr bağlayır".

Hazırda Ukraynada nə qədər rus əsgəri var?

Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəis müavini Vadim Skibitski bildirib ki, Rusiya hərbçiləri işğal olunmuş Ukraynada 420 mindən çox hərbçi cəmləyib. Bura Rusiya Qvardiyası və digər bölmə və strukturlar daxil deyil; beləliklə, bu rəqəm Ukraynadakı müharibədə iştirak edən Rusiya qüvvələrinin ümumi sayını tam əks etdirmir. Onların sayı daha çoxdur. Sentyabrın 11-də Ukrayna və Britaniya hərbi rəsmiləri bildiriblər ki, daha çox rus hərbçiləri gələ bilər.

Böyük Britaniya Müdafiə Nazirliyi bildirib ki, Rusiya ordusu 2023-cü ilin sonunadək müqaviləli əsgərlərin hesabına iki dəfə arta bilər.

Bu arada Ukrayna işğal altında olan Sevastopola hücum edib. Bu şəhərə gecə hücumu zamanı Orconikidze gəmiqayırma zavoduna raket zərbəsi endirilib. Hücum nəticəsində zavod əməkdaşlarından 2 nəfər ölüb, 26 nəfər yaralanıb. Dənizdəki Rusiya gəmiləri də pilotsuz təyyarələrin hücumuna məruz qalıb. Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, iki gəmi– böyük desant gəmisi və sualtı qayığı zədələnib.

Yerli sakinlər şəhərdə ən azı 7, səmada isə çoxlu parıldamaların olduğunu bildiriblər. Bu da Rusiya hava hücumundan müdafiənin zəif işini göstərir.

***P.ƏFƏNDİ***
***XQ***


# "Çörək Nəqliyyat "ATSC səhmdarlarının nəzərinə!

4 noyabr 2023-cü il saat 11.00-da "Çörək Nəqliyyat "ATSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Bakı şəhəri, Qara Qarayev prospektində yerləşən "Sevinc " yay kinoteatrının binasında keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

1. Cəmiyyətin ləğvi və bununla əlaqədar bütün digər məsələlərin həll olunması üçün qərar qəbul edilməsi.
2. Cəmiyyətin ləğvetmə komissiyasının təyin edilməsi.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
№ 198 (30314) 14 sentyabr 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

# İçərişəhərdə nərd yarışı: "Oyunçu aparsın"

**İçərişəhərdə ağsaqqallar arasında "Oyunçu aparsın" adlı nərd yarışması təşkil edilib. Bu barədə mətbuata "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilib.**



Qeyd edək ki, sentyabrın 17-dək davam edəcək yarış ağsaqqalların asudə vaxtlarının maraqlı və səmərəli təşkili məqsədilə keçirilir.

Tarixi, əyləncə və sağlam mübarizəni özündə birləşdirən bu maraqlı yarışda Bakının və Bakı kəndlərinin ağsaqqalları iştirak edirlər.

Qeyd edək ki, turnir "İçərişəhər" Ağsaqqallar Şurası, "Üçüncü Bahar" İctimai Birliyi və Azərbaycan Milli İdman Növləri Assosiasiyasının birgə təşəbbüsü, "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsi, Gənclər və İdman Nazirliyinin təşkilati dəstəyi ilə keçirilir.

**XQ**

## İdman xəbərləri

### Döyüşçümüzün növbəti uğuru

**Azərbaycan idmançısı Yüksəl İbrahimov Slovakiyanın Povajska-Bistritsa şəhərində keçirilmiş "Real Fight Arena" turnirində MMA üzrə növbəti uğurunu qazanıb.**



Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, idmançımız qırğızıstanlı rəqibini birinci raundda texniki nokautla məğlub edib.

Bu, Yüksəl İbrahimovun RFA-da ardıcıl ikinci qələbəsidir.

### Londonda qarışıq növlər turniri

**Londonun əfsanəvi "Porçester Holl" sarayında müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş qarışıq idman növləri üzrə beynəlxalq turnir təşkil edilib.**



Yarışda İngiltərə, İspaniya və digər ölkələrin muay-tay, kikboksinq və MMA üzrə idmançıları mübarizə aparıblar. Turnirin əsas döyüşləri Yusuf Ali Taleb ilə Co Bello və Kennet Alarkon ilə Körtis Allen arasında keçirilib. Yusuf Ali Taleb və Körtis Allen rəqiblərini məğlub edərək qalib adına layiq görülüblər. Yusuf Ali Taleb "Immortal Champions" – MMA Britaniya titulunu, Körtis Allen həm Avropa çempionu, həm də "Immortal Champions" – muay-tay titulunu qazanıb.

### Millimizin Avropa Superfinalı heyəti



**Sentyabrın 19-dan 25-dək İtaliyanın Alqero şəhərində təşkil olunacaq Avropa Superfinalında iştirak edəcək çimərlik futbolu üzrə Azərbaycan millisinin heyəti açıqlanıb.**

Baş məşqçi Zeynal Zeynalov komandaya 12 oyunçu – Elçin Qasımov, Vaqif Şirinbəyov (qapıçılar), Amid Nəzərov, Elşad Manafov, Orxan Məmmədov, Sabir Allahquliyev, Comərd Baxşəliyev, Hüseyn Axundov, Ramil Əliyev, Kamran Qürbətov, İsa Zeynallı, Tural Qurbatov (oyunçular) cəlb edib.

Qeyd edək ki, B qrupunda yer alan Azərbaycan yığması sentyabrın 19-da Türkiyə, bir gün sonra Rumıniya, sentyabrın 21-də isə İsveçrə ilə qarşılaşacaq.

***Leyla SABİRQIZI***
**XQ**

*Texnologiya yenilikləri*

# İdman "Lada"sı buraxılır



**"AvtoVAZ" strukturuna daxil olan "Lada Sport" şirkəti yeni nəsil "Lada Vesta Sport"un sedan və universal kuzovlarında idman versiyalarının istehsalına başlayıb.**

Lenta.ru informasiya saytı bildirir ki, "Lada Sport" artıq "Station Wagon" və sedan kuzov tiplərində "Vesta Sport"u yığmağa başlayır. 1.8 mühərriki VAZ-da yığılmadığı üçün o, yəqin ki, "Granta Sport" 1.6 ilə eyni şəkildə quraşdırılacaq.

Maşınların rəsmi dilerlərdə nə vaxt görünəcəyi və qiymətinin nə qədər olacağı barədə məlumat yoxdur.

**XQ**

# 390 karatlıq brilyant

**Rusiyanın zərgərlik markası "Alrosa" Yakutiyadakı mədəndən 390,7 karatlıq brilyantın çıxarıldığını açıqlayıb.**



Bunun son 10 ildə Rusiyada çıxarılan ən böyük almaz olduğu bildirilir.

Bu qiymətli daşın kütləsi, forması və rəngi onu digərlərindən fərqləndirir.

Rusiya dövlətinə məxsus zərgərlik nümunələri satan şirkət son illərdə iri ölçülü daşları hərraca çıxarır. Rəsmilər isə Rusiya–Ukrayna müharibəsinə görə bu daşın çətin satıla biləcəyini deyirlər.

Qeyd edək ki, ABŞ və Qərb ölkələrinin sanksiyalarından sonra "Alrosa" Asiya və Hindistan bazarlarına üstünlük verməyə başlayıb.

***S. FİDAN***
**XQ**

# Avropaya qarışqa hücumu



**Avropa ölkələri qırmızı atəş qarışqalarının hücumuna məruz qalıb. Bu barədə "Guardian" qəzetinin icmalçısı Patrik Barkham bildirib.**

**Onun sözlərinə görə, güclü neştərə malik qırmızı atəş qarışqaları əkin sahələrinə ziyan vura, həmçinin elektrik avadanlıqlarını, avtomobilləri və kompüterləri sıradan çıxara bilərlər.**

**Barkham qeyd edib ki, qarışqaların bu növünün qlobal istiləşmə səbəbindən tez bir zamanda bütün Avropanı zəbt edəcəyi gözlənilir. İcmalçı, həmçinin xəbərdarlıq edib ki, qarışqalar tez bir zamanda "superkoloniyalar" yarada, onurğasızları, daha böyük onurğalıları ovlaya, bitkiləri məhv edə və yerli qarışqaları, həşəratları və otyeyən heyvanları onların yaşadıqları ərazidən sıxışdırıb çıxara bilərlər.**

**Qeyd edək ki, Avstraliya bu qarışqa növünü məhv etmək üçün 200 milyon funt sterlinqdən çox (425 milyon manatdan çox) pul xərcləyib, lakin həşəratı tamamilə məhv etmək mümkün olmayıb.**

***F. SALMANLI***
**XQ**

# Van Qoqun tablosu tapıldı

**Məşhur rəssam Van Qoqun Hollandiyada oğurlanmış tablosu tapılıb. "The Guardian" qəzeti xəbər verir ki, hollandiyalı detektiv 2020-ci ildə muzeydən oğurlanmış Van Qoq tablosunu tapıb. Agentliyin müxbiri yazır ki, Vinsent Van Qoqun 2020-ci ilin martında muzeydən oğurlanmış rəsm əsəri aşkar edilib.**



Van Qoqun 3-6 milyon avro dəyərində olan "Nuenen, Bahardakı Kahin bağı" adlı tablosu polisin köməyi ilə holland sənət detektivi Artur Brand tərəfindən aşkar edilib.

Xatırladaq ki, rəssamın 1884-cü ildə çəkdiyi rəsm koronavirus pandemiyası səbəbindən karantin zamanı Amsterdam yaxınlığında yerləşən Singer Laren Muzeyindən oğurlanmışdı.

**XQ**

## Sağlamlıq

# Saçlar niyə tökülür?



**Qaraciyərin müxtəlif mənşəli yağlanma xəstəliyində simptomlardan biri də saçların tökülməsidir. İçki içməyən insanlarda da əmələ gələn bu xəstəlik çox gizli gedir, illərlə özünü büruzə vermir.**

Qaraciyər piylənməsinin ən son mərhələsi sirrozdur, o, azı 10 il ərzində qaraciyərin xroniki iltihabı nəticəsində yaranır. Bununla da orqan çatışmazlığı yaranır və bu da ölümə aparır.

Qaraciyər yağlanmasının əlamətlərindən biri saçları yuyanda və darayanda çəngə ilə tökülməsidir, bu zaman daraq saçla dolur.

Qastroenteroloqlar uzun müddət saçı belə tökülən və çarə tapmayan insanlara qaraciyər müayinəsinə üz tutmalarını tövsiyə edirlər. Bildirirlər ki, yorğunluq, iştahsızlıq, qaraciyərdə ağrı, əzələ boşalması, arıqlama, güclü qaşınma, bədəndə ödem bu xəstəliyin əlamətləridir.

Xüsusən piylənməsi olanlar, şəkər və təzyiq xəstələri risk altındadır.

***Z.HÜSEYNLİ***
**XQ**

## İNSAN VƏ KAİNAT

# "Nobel"i "tapanlar" yox, "öyrənənlər" aldılar

**"51 Pegasi b"nin spektrindəki sürüşmələr o qədər əhəmiyyətli idi ki, onlara yalnız ulduza çox yaxın olan nəhəng bir planet səbəb ola bilərdi. Bu, astronomların Günəş sistemində gördükləri ilə ziddiyyət təşkil edirdi. Çünki Günəş sistemində ulduza kiçik və yüngül planetlər yaxın, nəhəng planetlər isə xeyli uzaq məsafədə yerləşir. Amma burada tərsinədir, söhbət ulduza yaxın iri planetdən gedir.**

Ceffri Marsin rəhbərlik etdiyi Kaliforniya qrupu belə qərara gəlib ki, ölçmələrdə hansısa səhv var və gəldikləri nəticələri dərc etmirlər. Lakin İsveçrə astronomları Mişel Mayor və Didye Queloz 1995-ci ildə Günəşə bənzər ulduzun ətrafında "51 Pegasi b" ekzoplanetini kəşf etdiklərini elan edirlər. O, Yupiterin çəkisinin təxminən yarısıdır və ulduzdan cəmi 0,0527 astronomik vahid uzaqlıqdadır. 2015-ci ildə Beynəlxalq Astronomiya Komitəsi planetə Dimidium adını verdi və dörd il sonra Nobel Komitəsi Mayor və Quelozun nailiyyətlərini onlara fizika üzrə Nobel mükafatı verərək tanıdı.

Kaliforniya qrupu isə kənarda qaldı. Gəldikləri nəticələri dərc etməmək onlara baha başa gəldi.

"51 Pegasi b"nin səthi 1300 K-ə (Kelvin-mütləq sıfıra (–273.15°C) sahib temperatur ölçü vahidi) qədər qızır. Astronomlar planeti yeni bir sinfə - "isti Yupiterlər"ə təsnif etdilər. Alimlər qaz nəhənginin öz ana ulduzuna bu qədər yaxın necə əmələ gəldiyini başa düşə bilmədilər.

Kifayət qədər məntiqli izahat isə tezliklə tapıldı. 1996-cı ildə astronom Duqlas Lin və onun həmkarları planetin ulduzdan xeyli məsafədə yarandığını, lakin ona doğru köç edərək, yavaş-yavaş ulduzun dairəvi diskinin qalıqlarını udduğunu irəli sürdülər. Oxşar şeylər digər "isti Yupiterlər"də də baş verir.

**XQ**

# Şahdağa erkən qar yağıb



**Dünən ölkə ərazisində yağıntılı hava şəraiti davam edib, şimşək çaxıb, arabir leysan xarakterli yağış yağıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bəzi yerlərdə yağıntılar intensiv və güclü olub.

Şahdağda isə 2750 metr hündürlüyə qar yağıb.

İntensiv yağışlar nəticəsində sentyabrın 13-də saat 8 radələrində Qəbələ rayonu ərazisindən keçən Dəmiraparançay və Şəki rayonu ərazisində keçən Damarçın çaylarından sel keçib.

Gəncə, Daşkəsən, Göygöl, Naftalan, Şəmkir, Oğuz, Şamaxı, Qrız, Şəki, Balakən, Lerikdə duman müşahidə olunub. Dumanda görünüş 50-500 metrədək məhdudlaşıb.

**XQ**

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

ELMİRA XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4919 |
| SİFARİŞ | 2335 |
| QİYMƏTİ | 40 qəpik |

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00